Səməd Behrəngi

# Balaca Qara Balıq

Gənclik
Bakı–1978

Səməd Behrəngi Cənubi Azərbaycanın ən istedadlı uşaq yazıçılarındandır. Bu kitaba onun altı hekayəsi salınmışdır. Bütün hekayələrdə nəciblik, azadlıq idealları tərənnüm edilir, kapitalist dünyasındakı yoxsulluq, hüquqsuzluq və onları yaradan ictimai bərabərsizlik tənqid olunur.

Tərcümə edəni:
**Məmmədrza Afiyət**

B $\frac{70802}{M\ 653\ (12)\text{-}78}$ 86-78

Gənclik
1978

# Ulduz və qarğalar

*Ulduzun dilindən bir neçə söz:*

*"Salam, uşaqlar! Mənim adım Ulduzdur. Bu il on yaşım tamam olur. Oxuyacağınız bu əhvalat sərgüzəştimin bir hissəsidir. Ağaye Behrəng bir zaman kəndimizin müəllimi idi və bizim evdə mənzil kirayə etmişdi. Bir gün sərgüzəştimi ona danışdım, xoşuna gəldiyindən dedi:*

*—İcazə versəydin, sənin qarğalarla olan sərgüzəştlərini hekayələşdirərdim.*

*Razı oldum.*

*Bunu da deyim ki, mən yeddi yaşına qədər şəhərdə—analığımın yanında yaşamışam və bu sərgüzəşt də o vaxtlara aiddir. Atam yaşadığımız kiçik şəhərin idarələrindən birində işləyirdi... Bir neçə ildən sonra mən kəndə getdim. Ağaye Behrəng söz verdi ki, mənim gəlinciyim barədə hekayə yazsın.*

*İnanıram ki, mənim sərgüzəştimdən çox şeylər öyrənəcəksiniz.*

*Dostunuz Ulduz".*

# Ana Qarğanın peyda olması

Ulduz otaqda tək-tənha oturub həsrətlə bayıra boylanırdı. Analığı hamama gedəndə qapını qıfıllayıb ona demişdi ki, yerindən tərpənsə, vay halına. Ulduz böyük adamlar kimi otaqda oturub öz-özünə düşünürdü. Birdən itirdiyi gəlinciyi yadına düşdü, qanı qaraldı. Darıxdığından bir neçə dəfə barmaqlarını saydı. Sonra qalxıb pəncərəyə yanaşdı. Elə bu an gözü hovuzun qırağına qonub su içən Qarğaya sataşdı. O saat tənhalığını unutdu, ürəyi açıldı. Qarğa başını qaldıranda Ulduzu gördü və uçub getmək istədi. Sonra Ulduzun ona dəyməyəcəyini duyub uçmadı. Dimdiyini azacıq araladı. Ulduz onun gülümsədiyini yəqin edib sevindi:

– Ağa Qarğa, – dedi, – hovuzun suyu təmiz deyil, içsən xəstələnərsən.

Qarğa yenə də dimdiyini araladı və uçub pəncərəyə qondu:

– Biz qarğalar üçün fərqi yoxdur, – dedi, – bundan pisini də içirik, heç xəstələnmirik. Bir də ki, mənə Ağa Qarğa demə. Axı, mən Ana Qarğayam. Özümün də dörd uşağım var. Mənə Ana Qarğa de.

Qarğa çirkin olmasına baxmayaraq, mehriban idi. Ulduz onu tutub öpmək istəyirdi; bir qədər də irəli gəlsəydi, yəqin öpərdi.

Qarğa soruşdu:

– Adın nədir?

Ulduz adını dedi. Qarğa yenə soruşdu:

– Evdə nə edirsən?

Ulduz çiyinlərini çəkib cavab verdi:

– Heç nə. Analığım qapını bağlayıb gedib. Özü də tapşırıb ki, yerimdən tərpənməyim.

– Sən özünü lap yaşlı adamlar kimi aparırsan, niyə oyuncaqlarınla oynamırsan?

Qarğa Ulduzun dərdini təzələdi. Gəlinciyi yadına düşdü. Dərindən ah çəkdi. Qarğanın dediklərini yaxşı eşitmək üçün pəncərənin bir tayını açdı. Sonra üzünü Qarğaya tutub dedi:

– Ana Qarğa, axı, oynamağa heç nəyim yoxdur. Danışan yekə gəlinciyim vardı, onu da itirmişəm.

Ulduzun dərdli sözləri Ana Qarğanı kövrəltdi. O, qanadının ucu ilə gözlərindən axan yaşı silib yerindən hoppandı, bir az da yaxına qondu. Ulduz əvvəlcə qorxub geri çəkildi, sonra sevincək Qarğaya yaxınlaşdı. Ana Qarğa soruşdu:

– Oynamağa yoldaşın da yoxdur?

– Bircə Yaşardır. Məktəbə getdiyi üçün onu da çox az-az görürəm.

– Gəl, birlikdə oynayaq.

Ulduz sevincindən bilmədi, nə etsin. Ana Qarğanı tutub bağrına basdı, sabun iyi verən dırnaqlarını sığalladı. Ana Qarğa ayaqlarını qarnının altına yığmışdı ki, Ulduzun paltarı çirklənməsin.

Onlar yanaşı dayanıb söhbət etməyə başladılar.

– Ana Qarğa, sabunu xoşlayırsan?

– Hə, lap çox!

– Analığımdan qorxmasaydım, birini gətirərdim, yeyərdin.

– Analığının xəbəri olmaz, get gətir.

– Gedib ona xəbər verməzsən ki?

– Mən xəbərçilik eləmirəm.

– Axı, analığım deyir, sən nə iş görsən, Qarğa mənə xəbər verəcək?

Ana Qarğa güldü:

– Bu qara başıma and olsun, mən xəbərçilik eləmirəm. Su içmək bəhanəsilə hovuzun qırağına qonuram... Sonra da sabundan, balıqdan oğurlayıb qaçıram...

– Axı, oğurluq günahdır?!

– Günah odur ki, uşaqların acından ölələr. Günah odur ki, qarnımı doyura bilməyim. Bil ki, quru və boş nəsihətlərlə oğurluğun qarşısını almaq olmaz. Nə qədər ki, hər kəs özü üçün işləyir, oğurluq da qalacaqdır.

Ulduzun analığı evdə olan yeməli şeyləri gizlədirdi, sabunu isə gizlətmirdi. Ulduz mətbəxə keçdi. Bir qəlib Marağa sabunu götürdü. Qayıdanda nə görsə yaxşıdır? Ulduz gördü ki, analığı pəncərəyə tərəf gəlir, Qarğa isə qeyb olub! Ulduz yaman tələyə düşmüşdü. Analığı başını pəncərədən içəri uzadıb çığırdı:

– Ay qız, yenə nə olub? Niyə evi bir-birinə qatmısan? Sənə deməmişdim, yerindən tərpənmə?!

Ulduz heç nə demədi. Sabunu qoltuğunda gizlədib küncə qısıldı. Analığı içəri girən kimi soruşdu:

– De görüm nə axtarırdın?

Ulduz qorxa-qorxa dedi: – Anacan, vurma! Gəlinciyimi axtarırdım...

Analığı Ulduzun qulağından tutub hirsli-hirsli çığırdı:

– Yüz dəfə demişəm ki, gəlinciyi birdəfəlik başından çıxart! Eşidirsən?!

Analığı özünə çay dəmləmək üçün mətbəxə keçdi. Ulduz isə bir bəhanə ilə həyətə çıxdı. O yan-bu yana nəzər saldı, gördü ki,

Ana Qarğa damın üstündə oturub. Ulduz qoltuğunda gizlətdiyi sabunu çıxarıb gül kollarının dibinə qoydu və Ana Qarğaya işarə elədi ki, gəlib götürsün. Ana Qarğa aşağı endi və gül kollarının arasında gizləndi. Ulduz ondan soruşdu:

– Ana Qarğa, oynamaq üçün balalarından birini gətirərsən?

Ana Qarğa astadan: – Nahardan sonra məni gözlə, – dedi, – Ata Qarğa icazə versə, gətirərəm.

Ana Qarğa bu sözləri deyib sabunu götürdu, uçub getdi.

Ulduz, Qarğa gözdən itənə qədər onun dalınca baxdı. Sevincdən atılıb-düşdü, oynadı; sanki danışan gəlinciyini tapmışdı...

Analığı çığırdı:

– Ay qız, az atılıb-düş, gün vursa xəstələnsən, sənə kim baxacaq? Gəl içəri!

Günorta yeməyinin vaxtı idi. Ulduz keçib otaqda oturdu. Bir neçə dəqiqədən sonra atası da işdən qayıtdı. O qədər bikef, yorğun idi ki... Ulduzun salamına belə cavab vermədi. Əllərini yumadan süfrənin başında oturdu, yeməyə başladı. Görünür, idarənin rəisi onu yenə də acılamışdı,

Qızardılmış kartofun iyi az qala Ulduzu bihuş etmişdi. Atası yeməyi ağzına apardıqca qız onun ağzına baxır, udqunurdu. Əlini süfrəyə uzatmağa isə cürət etmirdi. Analığının dediyi bu sözlər Ulduzun yaxşı yadında idi: "Uşağın özünə xörək çəkməyə haqqı yoxdur. Uşaq, ancaq böyüklər ona xörək qoyduqdan sonra yeyə bilər".

# Ana Qarğa ilə tanış olaq

Sentyabr ayı idi. Yay günlərində Ulduzun atası və analığı nahardan sonra yatardılar. O da istər-istəməz yatmalı idi. Yatmayanda atası acıqlanıb deyərdi:

– Uşaq nahar yeyəndən sonra yatmalıdır!

Ulduz hələlik bunun vacib olub-olmadığını bilmirdi. Öz-özünə dedi: "Bu gün yatmamalıyam, yatsam, Ana Qarğa gəlib görər yoxam, onda balasını da qaytarıb aparar". Otağın aşağı başında uzanıb özünü yuxuluğa vurdu. Elə ki atasını, analığını yuxu apardı, qalxıb barmaqlarının ucunda həyətə çıxdı, tut ağacının kölgəsində oturdu. Azca keçmiş Qarğa özünü yetirdi. Əvvəlcə damın üstünə qonub Ulduza baxdı. Ulduz işarə eləyəndən sonra, aşağı enib onun yanında əyləşdi; özü ilə balaca bir Qarğa da gətirmişdi. Ana Qarğa balasını Ulduza verdi.Bala elə qəşəng idi ki! Ulduz dərin ah çəkdi. Ana Qarğa soruşdu:

– Niyə ah çəkdin?

– Gəlinciyim yadıma düşdü. Kaş yanımda olaydı. Üçümüz oynayardıq.

– Fikir eləmə. Nəvələrimdən birinin böyük balası yumurtlayıb, bu günlərdə bala çıxaracaqdır. Onlardan birini gətirərəm, olarsız üç.

– Məgər sənin başqa balan yoxdur?

– Var. Bundan başqa üçü də var.

– Mümkünsə, özününkülərdən gətir.

– Onda özüm darıxaram. Bir də Ata Qarğa nə deyər, heç icazə verər? Bu da ki, hələ heç dil açmayıb. Gəzir, amma uça

bilmir. Bir həftədən sonra dil açacaq, iki həftədən sonra uçacaqdır. Elə eləyərsən ki, iki həftə qurtaran kimi uçsun. Belə olmasa, heç vaxt uça bilməyəcək. Yadında saxla!

– Uçmasa nə olar?

– Uçmasa ölər. Bilirsən ona hansı yeməklər verməlisən?

– Yox.

Ana Qarğa balasını yemləməyi Ulduza başa saldı:

– Gündə bir tikə sabun, bir az ət, əgər olsa hərdən balaca bir balıq da verərsən. Elə hovuzunuzda xeyli balıq var. Soxulcan da, pendir də verə bilərsən. Yaxşımı!?

– Yaxşı!

Ana Qarğa dedi:

– Analığın bu balanı saxlamağa icazə verər?

– Yox. Analığımın belə şeyləri görməyə gözü yoxdur. Gərək gizlində saxlayam. – Bala Qarğanın xırda gözləri parıldayırdı. Ayaqları Ulduzun barmaqları kimi zərif, tükləri yumşaq idi. Anasından qəşəng görünürdü.

Ana Qarğa Ulduza baxıb dedi:

– Bala Qarğanı harada gizlədəcəksən?

Ulduz bu haqda fikirləşməmişdi. Bir anlığa xəyala getdi. Sonra sevinclə dedi:

– Gül kollarının arasında gizlədərəm.

Ana Qarğa etiraz etdi:

– Orada olmaz, analığın görər. Bir də ki, güllərə su verəndə balam islanar, naxoşlayar.

– Bəs harada gizlədim?

Ana Qarğa o yan-bu yana nəzər salıb dedi:

– Pilləkənin altı yaxşıdır.

Kiçik şəhərlərdə, kəndlərdə pilləkənlərin altında toyuq hini olur. Ulduzgilin də pilləkəninin altında boş toyuq hini var idi. Bala Qarğanı hinə salıb qapını bağladılar ki, nə pişik, nə də analıq görsün. Sonra hinin havası təmiz olsun deyə, kiçicik bir baca da açdılar.

Ulduz Ana Qarğadan soruşdu:

– Balacanın adı nədir?

– Ağa Qarğa çağırarsan.

– Məgər oğlandır?

– Bəli.

Ana Qarğa ilə Ulduz bir qədər söhbət edib ayrıldılar. Ulduz evə girib uzandı, gözlərini yumdu. Analığı yuxudan ayılıb gördü ki, Ulduz hələ də yatır. Həqiqətdə isə o yatmamışdı, Ana Qarğa haqqında düşünürdü.

## Dadlı hörümçəklər

Bir neçə gün idi ki, Ulduz çox şən görünürdü. Atası və analığı təəccüblənirdilər. Bir gecə analığı ərinə dedi:

—Bilmirəm bu uşağa nə olub ki, elə hey gülür, oynayır, şənlik edir? Gərək bunun səbəbini öyrənəm.

Ulduz bu sözləri eşitcək öz-özünə düşündü: "Bir qədər ehtiyatlı olmaq lazımdır".

O, hər gün Ağa Qarğaya iki-üç dəfə baş çəkirdi. Ev xəlvət olan kimi Ağa Qarğanı hindən çıxarıb onunla oynayırdı. Ona dil öyrədirdi. Ana Qarğa da hərdən sabun, ət və buna bənzər şeylərdən gətirib, balasına baş çəkirdi. Bir dəfə iki hörümçək

gətirmişdi. Hörümçəklər Ana Qarğanın caynaqlarında əl-ayaq atır, xilas ola bilmirdilər.Onların necə də uzun ayaqları vardı!..

Ana Qarğa hörümçəklərdən qorxan Ulduza baxıb dedi:

– Qorxma! Bir bax, gör balam bu saat onları necə yeyəcək?!

Doğrudan da, Ağa Qarğa hörümçəkləri iştahla yedi. Sonra da caynaqlarını bir neçə dəfə yerə vurub dedi:

– Bunlardan yenə də gətir, çox dadlıdır!

Anası dedi:

– Yaxşı, gətirərəm.

– Bizim aşpazxanada bunlardan çoxdur, – deyə Ulduz dilləndi, – nə qədər istəsən, gətirib verərəm, Ağa Qarğa.

Ağa Qarğa udquna-udquna təşəkkür etdi.

O vaxtdan Ulduz o yan-bu yanı gəzir, hörümçək tutub cibinə yığır, fürsət düşən kimi Ağa Qarğaya yedirirdi.

Bir gün nahar çağı Ulduzun analığı gördü ki, süfrənin üstündə bir neçə hörümçək gəzişir. Ulduzun ürəyi həyəcanla döyünməyə başladı. Amma özünü bilməməzliyə vurdu. Analığı hörümçəkləri götürüb həyətə atdı, xata sovuşdu.

Nahardan sonra Ulduz cibində qalmış hörümçəkləri Ağa Qarğaya vermək üçün onun yanına getdi. Analığının həyətə atdığı hörümçəklərdən bir neçəsini tapmışdı. Hörümçəklərdən birini barmaqları arasında Ağa Qarğanın ağzına uzatdı. Ana Qarğa balasını dimdiyi ilə belə yemləyirdi. Elə Ağa Qarğa hörümçəyi dimdiyi ilə almaq istəyirdi ki, birdən çimçindi və başını geri çəkib dedi:

– Ulduzcan, yemirəm!

– Mənim balaca Qarğam, de görüm, niyə yemirsən?

– Bir dırnaqlarına bax, gör nə gündədir?!

– Nə gündədir?

– Uzun, çirkli, qara! Ulduz, sənə irad tutduğum üçün üzr istəyirəm. Ancaq mən o xörəyi yeyə bilmərəm.

Ulduz razılıq hissi ilə Ağa Qarğaya baxdı:

– Başa düşdüm. Eybimi üzümə dediyin üçün sənə təşəkkür edirəm. Mən özüm də bundan sonra belə çirkli dırnaqlarla yemək yeyə bilmərəm, inan ki, yeyə bilmərəm!

## Balıq üstündə hay-küy

Hovuzda bir neçə qırmızı balıq var idi. Altı -yeddi gün əvvəl Ulduz bu balıqlardan birini kasa ilə tutub Ağa Qarğaya verdi. Ağa Qarğa balığı uddu. O, birinci dəfə idi ki, balıq yeyirdi. Anasından eşitmişdi ki, balıq ovlayıb udmağın xüsusi ləzzəti var! Onun anası Ulduzun analığına oxşamırdı. Çox şeylər bilirdi. Məsələn o, uşağı üçün nəyin pis, nəyin yaxşı olduğunu çox yaxşı başa düşürdü. Balası ondan bir şey istəyəndə heç vaxt qışqırmazdı. Deyərdi ki, əziz balam, filan şeyi sənin üçün gətirməyəcəyəm, çünki ziyanı var, filan şeyi yesən yaxşı qarıldaya bilməzsən, çünki səsin tutular. O, hər şeyin səbəbini balasına deyirdi. Amma Ulduzun analığı belə etmirdi: həmişə acıqlı-acıqlı deyirdi: "Ulduz, filan işi eləmə, onu yemə, filan yerə getmə, belə eləmə, elə eləmə, düz otur, ucadan danışma, niyə pıç-pıç edirsən" və s.

Amma, analığı heç vaxt Ulduzu başa salmırdı ki, nəyə görə ucadan danışmaq olmaz, nəyə görə günorta yatmalıdır?

Ulduz əvvəllər belə düşünürdü ki, bütün analar onun analığı kimidir. Ana Qarğa ilə tanış olub, dostlaşandan sonra isə fikri tamam dəyişdi.

Bir gün Ulduzun analığı balıqlardan birinin yoxa çıxdığını gördü, süfrə başında səs-küy salıb ərinə dedi:

– Bu, qarğaların işidir. Özü də həmişə gəlib hovuzun başında sabun oğurlayan Qarğanın. Yaman həyasızdır. Əlimə düşsə dara çəkərəm, edam edərəm.

O, Ana Qarğanın dalısınca danışsa da, Ulduz səsini çıxarmırdı. Çünki analığı onun Qarğa ilə əlbir olduğunu başa düşərdi. Analığı elə hey deyinirdi:

– Gərək ayıq olaq, ağızları dada gəldiyi üçün hamısını tutub apara bilərlər.

## Ana Qarğa çox şey bilir və ölümündən qorxmur

Nahar çağı idi. Hamı yatmışdı. Ulduzla Qarğa tut ağacının kölgəsində oturdular. Ulduz hər şeyi ona danışdı. Ana Qarğa dedi:

– Heç fikir eləmə, analığın məni tuta bilməz.

Onlar Ağa Qarğanı hindən çıxartdılar. Artıq o, dil açmışdı; Ulduz və Ana Qarğa kimi olmasa da, özünə görə pis danışmırdı. O, gül kolları arasında o yan-bu yana atılıb-düşəndən sonra gəlib anasının yanında dayandı. Ana Qarğa ona caynaqları ilə qanadlarını dartmağı öyrətdi. Sonra sol qanadının altındakı yaranı Ulduza və oğluna göstərib dedi:

– Bu yaranı əlli altı il bundan əvvəl sabun oğurluğuna gedəndə almışam. Sabunbişirən dəyənəklə vurub. Sağalması beş il çəkdi. Yabanı meyvələr tapıb yedikdən sonra sağaldım.

Ulduz Ana Qarğanın savad və biliyinə heyran qalmışdı. Arzu edirdi ki, kaş onun kimi anası olaydı. Öz doğma anası yadına gəlmirdi. Ancaq bir dəfə analığından eşitmişdi ki, anası var.

Analığı atası ilə dalaşanda demişdi:

– Bu gün-sabah özümün uşağım olacaq. Daha bu yetimin qaravaşlığını edə bilmərəm. Götür uşağını göndər anasının yanına.

Bir-iki dəfə Ulduzun əmisi anası barədə bəzi şeylər danışmışdı. Əmisi hərdənbir kənddən şəhərə gələndə onlara baş çəkərdi. Ulduz ancaq bunu bilirdi ki, anası kənddə yaşayır və onu çox istəyir. Anası barədə bundan başqa heç nə bilmirdi.

Həmin gün Ana Qarğa Ulduzu və balasını öpdü. Sonra Qarğalar şəhərinə uçmaq üçün qanadlanıb damın üstünə qondu.

Ulduz dedi:

– Uşaqlarına və Ata Qarğaya mənim salamımı çatdır.

Sonra yadına düşdü ki, Qarğanın uşaqlarına pay göndərsin. Analığının aldığı əmziyi donunun cibindən çıxarıb pillələrlə dama qalxdı. Əmziyi Ana Qarğaya verib balalarına aparmasını xahiş etdi.

Ana Qarğa uçub sərv ağacının başına qondu, Ulduza baxa-baxa qarıldayıb gözdən itdi.

## Yaşarla qısa görüş

Ulduz damın üstündə durub uzaqlara tamaşa edirdi. Birdən yadına düşdü ki, analığından xəbərsiz dama çıxıb. Bir az qorxdu. Sonra ürkək nəzərlərlə

ətrafdakı həyət və evləri seyr etməyə başladı. Sol qonşuluqlarında yerləşən ev Yaşargilin evi idi. Ulduz həyətə baxanda gördü ki, Yaşar evdən çıxdı və həmişə boş olan it damının yanında oturdu. Yaşar Ulduzdan iki-üç yaş böyük idi. Özü də çox zirək və mehribandı. Ulduz çox çalışdı ki, Yaşar onu görsün, mümkün olmadı. Səsləməyə də qorxdu. Xoşbəxtlikdən birdən Yaşar başını qaldırdı və onu gördü. Əvvəl mat qaldı, sonra sevincək divarın yaxınlığına gəldi.

– Ulduz, orada nə edirsən? —deyə soruşdu.

– Ürəyim darıxdı, buraya qalxdım ki, o yan-bu yana tamaşa edim.

– Bəs analığın haradadır?

Ulduz hər şeyi yadından çıxarmışdı. Elə ki, Yaşarın dedikləri onu ayıltdı, Ağa Qarğanı həyətdə qoyub gəldiyi yadına düşdü. Analığı yuxudan oyanıb onu görsə... Ulduz tələsik damdan həyətlərinə endi, Ağa Qarğanı götürüb hinə saldı. Elə bu zaman analığının səsi eşidildi:

– Ay qız, Ulduz, hansı cəhənnəmdəsən? Niyə cavab vermirsən?!

Qorxudan Ulduzun ürəyi titrədi. Əvvəlcə heç nə deyə bilmədi. Sonra özünü ələ alıb dedi:

– Buradayam, anacan, buradayam. Bu saat gəlirəm!

Analığı daha heç nə demədi. Bəla sovuşdu.

## Ana Qarğanın edam olunması

Ertəsi gün səhər tezdən Ulduz yatağından dik atıldı. Ana Qarğa qarıldayaraq kömək istəyirdi. Ulduz tələsik həyətə qaçdı. Nə görsə yaxşıdır? Gördü ki, analığı tut ağacının altındadır və Ana Qarğanı ağacdan asıb ağacla döyür. Yazıq qarıldayıb çığırır, analığının cırıq-cırıq olmuş üz-gözündən qan sızırdı. Ayaqlarından asılmış Ana Qarğa qanadlarını çırpıb qarıldayırdı...

Analığına tərəf necə qaçıb onun ayaqlarını qucaqladığını və budunu möhkəm dişlədiyini Ulduz heç özü də bilmədi! Aldığı ağrıdan fəryad qoparan analıq Ulduzu kənara itələdi və qulağının dibindən möhkəm bir şillə vurdu. Ulduz yerə sərildi. Başı daşa dəydi və huşunu itirdi.

## Ulduz qarışıq yuxular görür

Ulduz yalnız nahar çağı gözlərini açdı. Qonşulardan da bir neçəsi burada idi. Analığı başının üstündə oturub Ulduzun ağzına qaşıqla dərman tökürdü. Ulduzun gözləri tor görürdü. Başının üstə durmuş adamları sonradan bir-bir tanıdı. Anasının yanında oturub gözlərini Ulduza zilləyən Yaşarı da gördü. Qızın gözlərinin açıldığını görən analığı hövlnak səsləndi:

– Şükür olsun, gözlərini açdı, daha ölməz! Ulduz! Danış! Danış!..

Ulduz danışa bilmirdi. Başını analığına tərəf çevirəndə bir daha qulağında Ana Qarğanın qarıltısı səsləndi. Ulduz dəli kimi əl atıb analığının saçlarını çəngələdi və çığırdı. Ancaq başı elə ağrıdı ki, ixtiyarsız olaraq əlləri yanına düşdü, səsi kəsildi. Hıçqıra-hıçqıra ağlayır, sayıqlayırdı.

– Ana Qarğa! Hanı? Hanı Ana Qarğa?.. Balaca Qarğa necə oldu? Ana!.. Ana!..

Oturanlar Ulduzu sakitləşdirmək istəyirdi. Yaşar ona hamıdan qabaq yaxınlaşdı. Ulduz hey ağlayırdı. Analığı ona mehribanlıq göstərməyə çalışaraq sakit-sakit danışırdı:

– Ulduzcan, ağlama! Dərmanını içsən, tez sağalarsan!

Haçandan-haçana Ulduz ağlamaqdan yorulub yuxuya getdı. Yuxuda gördü ki, Ana Qarğa tut ağacından asılıb və ölüm ayağındadır. O sanki deyirdi: "Mən ölürəm, Ulduz! Dediklərimi yadında saxla, qorxma!" O, ağaca tərəf qaçır, analığı arxa tərəfdən çıxıb təpiklə onu vurmaq istəyir...

Ulduz çığırıb yuxudan ayıldı, hönkürə-hönkürə ağlamağa başladı. İndi onun yanında analığından və atasından başqa heç kəs yox idi. O, yenə də yuxuya getdi. Bir azdan yenə də həmin yuxunu gördü və çığırıb yuxudan ayıldı. Ulduz axşama qədər elə bu cür hey xoflanır, yuxudan sərsəm ayılıb çığırırdı. Bir dəfə də ayılanda gördü ki, axşamdır, həkim onu müayinə edir. Həkimin onun atasına dediyi bu sözləri eşitdi:

– Zədəsi o qədər də qorxulu deyil, tezliklə sağalar. Amma uşaq yaman qorxub. İndi ona iynə vuraram, sakitləşib yatar.

Elə bu an Ulduz: – Acmışam, – deyə səsləndi.

Analığı süd gətirdi. Ulduz südü içdi.

Həkim Ulduza iynə vurdu, əl sumkasını götürüb getdi.

Ulduz fikirli-fikirli tavana baxaraq atasının və analığının söhbətlərini eşitməyə çalışırdı. Lakin çox qulaq asa bilmədi, onu yuxu apardı.

## Ana Qarğa ilə dərdləşmə və Ana Qarğanın necə girə düşməsi

Sabahı gün sübh tezdən Ulduz Ağa Qarğanın dərdini çəkirdi. Elə buna görə də əli əsdi, çayı yorğanın üstünə dağıldı. Analığı gözlərini bərəltsə də bir söz demədi, çünki atası evdə idi. İşə getməyə hazırlaşırdı. Ulduz əvvəlcə durub Ağa Qarğaya baş çəkmək istədi. Ancaq fikrindən döndü. O, çox narahat idi, bilmirdi ki, Ağa Qarğanın başına nə gəldi, Ana Qarğa analığının girinə necə keçdi, özü də sübh tezdən?! Analığı gözünün üstünə bağladığı sarığı açsa da, alnında, qaşında Ana Qarğanın caynaqlarının izi qalmışdı.

Atası işə gedəndən sonra analığı Ulduza dedi:

—Mən Yaşarın anasına dəyib tez qayıdıram. Çoxdandır ki, hamama getməmişəm. Səni də ki, özümlə apara bilməyəcəyəm. İstəyirəm gedim, görüm Yaşarın anası mənimlə hamama gedə bilər?

Analıq, doğrudan da, mehriban olmuşdu. Qabaqlar heç vaxt Ulduzla belə danışmazdı... Fürsətdən istifadə edən Ulduz analığına dedi:

—İndi ki hamama gedirsən, Yaşara de, gəlsin mənim yanıma. Təklikdən cana gəlmişəm.

Analıq bir an fikrə gedib dedi:

– Yaşar dərsə gedəcək.

Ulduz heç nə demədi. Analığı evdən çıxıb gedən kimi, ayağa durub Ağa Qarğanını yanına getdi. Yazıq Ağa Qarğa hinin bir küncündə qısılıb ağlayırdı. Ulduzu görən kimi dilləndi.

– Nəhayət, gəldin?!

– Səni tək qoyduğum üçün məni bağışla, Ağa Qarğa!

– Qabaqca bir şey gətir yeyim, sonra söhbət edərik, yamanca ac-susuz qalmışam.

Ulduz geri dönüb su və yemək gətirdi. Ağa Qarğa bir az yeyəndən sonra dedi:

– Mən elə bilirdim, səni də anamın yanına göndərdilər.

– Anan hara getdi?

– Analığın o qədər döydü ki, yazıq öldü. Sonra da ayağından yapışıb atdı zibilliyə.

Ulduz kövrəldi:

– Yazıq Ana Qarğa! Yəqin indi itlər bədənini dağıdıb, Yeyiblər....

– Yox, yeyə bilməzlər. Axı, biz qarğaların əti acı olur. İndi anam zibillikdə...

Ağa Qarğa ağladı. Ulduz da özünü saxlaya bilməyib ağlamağa başladı. Axırda Ulduz dedi:

– Analığım indi qayıdıb bizi görər, mən gedim. O, hamama gedəndən sonra yenə də sənə baş çəkərəm.

Ulduz hinin qapısını bağladı, gəlib yorğanı başına çəkib uzandı. Analıq evə qayıtdı, boğçasını götürüb getdi. Ulduz qalxıb qarğasının yanına gəldi. Günəş hər yerə yayılmışdı. Ağa Qarğanı hindən çıxartdı, qapısını da açıq qoydu ki, içəriyə gün düşsün.

Ağa Qarğa qanadlarını açdı, dırnaqlarını soldan-sağa yerə çəkib dedi:

– Ulduzcan, doğrudan da, azadlıq çox yaxşı şeydir!

Ulduz ah çəkib dedi:

– Ana Qarğanın sübh tezdən nə üçün gəldiyini bildinmi?

– Bildim, – deyə Ağa Qarğa cavab verdi.

Ulduz maraqla soruşdu:

– Mənə də deyə bilərsənmi?

Ağa Qarğa dedi:

– Gəlmişdi ki, mənə uçmaq öyrətsin, yanına aparsın. Deyirdi: "Bu gün uçmağa başlamaq günüdür. Qardaşlarını, bacını aparıb uçmaq öyrədəcəyəm. Sən də gərək gələsən. Sonra yenə də qaytarıb öz yerinə gətirərəm". Mən ondan soruşdum ki, bəs Ulduz? Onu xəbərdar etməyək? Ana: "Xəbərdar edərəm", – dedi. Buna görə də hinin qapısını örtdü, sənə xəbər eləməyə getdi. Ancaq sən bayıra çıxmadın. Mən hində gözləyirdim. Birdən hay-küy eşitdim. Anam ucadan bir neçə dəfə qarıldadı. Ürəyim düşdü. Anam deyirdi: "Məgər bizim yaşamağa haqqımız yoxdur? Niyə gərək istədiyimiz adamlarla açıq-aşkar dostluq edə bilməyək?"

Qapının altındakı deşikdən baxıb gördüm ki, anam sənin analığının əlinə keçib. Ancaq o, anamın sözlərini başa düşmürdü.

Ulduzun səbri tükənmişdi. Tələsik soruşdu:

– Sonra nə oldu?

Ağa Qarğa dedi:

– Sonra anamı tut ağacından asdı. Anam fürsət tapıb caynaqları ilə analığının üz-gözünü cırmaqladı. O da özündən çıxıb başladı anamı dəyənəklə döyməyə.

Ulduz soruşdu:

– Ana Qarğa başqa söz demədi?

– Niyə demədi, dedi ki, ey ağılsız analıq, sən elə bilirsən, qarğaların oğurluqdan xoşu gəlir? Mən balalarımın və özümün qarnımı doyurmaq üçün xırım-xırda tapa bilsəm, dəli deyiləm, oğurluq eləyəm. Öz qarnınızı doyurursunuz və elə bilirsiniz ki, hamı sizin kimi toxdur!

Ağa Qarğa bütün bunları deyib sakitləşdi. Ulduz göz yaşlarını gizləyib sual verdi:

– Sonra?

– Sonra, sən əynində bircə alt paltarı bayıra çıxdın... Qalanını da özün bilirsən.

Hər ikisi bir anlığa susdu. Nəhayət, Ulduz sükutu pozdu:

– Deməli, Ana Qarğa öldü... Hər şey bitdi... İndi nə etməliyik?

– Mən gərək uçmaq öyrənəm.

– Əlbəttə...

– Kaş, atam, qardaşlarım, bacım və nənəm harada olduğumuzu biləydilər!

– Bilsəydilər, nə vardı ki... Köməyimizə çatardılar.

– Yadındadır, anam deyirdi, bir neçə gündən sonra uçmağı öyrənməsəm öləcəyəm?

– Yadımdadır.

– Dəqiq vaxtını bilirsən?

Ulduz barmaqları ilə hesablayıb dedi:

– Altı gün vaxtımız qalıb.

– Səncə neyləməliyik?

– İstəyirsən, səni Yaşara verim, aparıb çöldə uçmaq öyrətsin?

– Yaşar kimdir?

– Qonşu oğlan.

– Yaxşı, ağıllı oğlandır. Amma ona necə deyək? Elə bu saat çıx damın üstünə, de, gəlib məni aparsın.

– İndi olmaz, məktəbə gedib.

– Məktəbə? Yay tətili hələ qurtarmayıb ki?

– Düz deyirsən. Analığım məni aldadıb. Məktəblərdə hələ tətildir. Mən damın üstünə çıxıram, sən durduğun yerdən tərpənmə.

Ulduz ayağını ikinci pilləyə qoymaq istəyirdi ki, küçədən ayaq səsləri eşidildi. O, tələsik Ağa Qarğanı götürüb hinə qoydu, qapısını bağladı, otağa qaçdı, yorğanın altına girdi və gözlərini həyətə dikdi.

## Ev nəzarət altındadır

Qapı döyüldü, əvvəlcə ata içəri girdi, arxasınca da kiçik qardaşı. Əmisi onların dalınca həyətə təpilən qara itin ipindən yapışmışdı.

Ata dedi:

– Daha heç bir qarğa ayağını buraya basa bilməyəcək.

Əmisi dedi:

– Bir neçə vaxtdan sonra gəlib aparacağam.

Ata dedi:

– Eybi yoxdur, apararsan. Qış bizə it lazım deyil.

Əmisi dedi:

– Ulduz hardadır? Qardaş arvadıyla gedib?

Ata dedi:

– Yox, xəstədir, uzanıb.

Onlar iti tut ağacına bağlayıb otağa gəldilər.

Ulduz əmisini çox istəyirdi. Hər şeydən əvvəl ona görə ki, kənddən – anasının yanında gəlirdi. Əmisi Ulduzun əhvalını soruşdu, anası barədə söz açmadı. Çünki birinci arvadı haqqında atasının yanında danışanda onun acığı tuturdu.

Əmisi Ulduzun atasından soruşdu:

– İdarəyə qayıtmayacaqsan?

– Yox, icazə almışam.

Bundan sonra söhbət yenə də itdən və qarğalardan getdi. Ata hey qarğaların dalısınca danışırdı:

– Qarğalar çox çirkindirlər, oğrudurlar, özü də qorxaq oğrudurlar. Əyilib daş və ya başqa bir şey götürən adamı görəndə tez uçub aradan çıxırlar…

Günortadan bir saat keçmiş it hürdü. Analıq gəldi. Əmisi pəncərədən başını çıxarıb acıqlanandan sonra it səsini kəsdi.

Sakit oturub nəzərlərini əmisinə zilləmiş Ulduz birdən dilləndi:

– Əmi, gedəndə iti də özünlə apara bilməzsən?

Əmisi soruşdu:

– Nəyə görə?

Ulduzun dili dolaşdı, bilmədi nə desin, özünü ələ alıb:

– Mən…mən itdən qorxuram,– dedi.

Atası dilləndi:

– Şıltaqlığın tutmasın!

Əmisi dedi:

– Qorxma, ağıllı itdir. Adamlarla işi yoxdur.

Atası dedi:

– Boşla getsin! Özü hamını itdən də betər qapır. Boş yerə dələduz qarğaların tərəfini saxlayır. Bilmirəm, bu çirkin heyvanlardan hansı yaxşılığı görüb!

Ulduz daha heç nə demədi. Yorğanı başına çəkib yatdı. O, yuxudan ayılanda əmisi çıxıb getmişdi. İt həyətdə o yan-bu yana gedib hürür və qarğaları qovurdu.

Həmin gündən başlayaraq ev nəzarət altına alındı. Qarğalardan heç biri aşağı enməyə cürət etmirdi.

## Kədərli və nigarançılıqla dolu günlər. Aclıq... qorxu

Ağa Qarğanın vəziyyəti ağırlaşmışdı. Çox vaxt aclıq çəkirdi. Ulduz nə qədər çalışırdısa, vaxtında ona yemək və su verə bilmirdi. Qara it heç nəyi gözdən qoymurdu. Tanış olmayan bütün səslərə hay verirdi. Ulduzun və Ağa Qarğanın ümidi təkcə Yaşara gəlirdi. O, köməyə gəlsə, işlər qaydasına düşərdi. Lakin ona necə deyəydilər? Yaşarın anasının hərdən onlara gəlməsinə baxmayraq, Ulduz sirrini ona deməyə ehtiyat edirdi. Haradan biləsən ki, o, analığın sağ əli deyil? Bir də ki analığı onu heç kəsin yanında tək qalmağa qoymurdu.

Günlər bir-bir ötüb keçirdi, özü də nigarançılıqla, kədərlə. Ulduz başa düşürdü ki, Ağa Qarğanı uçurtmasa, öləcək. Amma uçurtmağın qaydasını bilmirdi.

Nəhayət, Yaşarı görmək üçün fürsət düşdü. Elə həmin gün analıq toya getmək istəyirdi. Ulduz fürsətdən istifadə edib ona:
– Anacan, evdə tək qala bilmərəm,– dedi. – İtdən qorxuram.

Analıq bir an fikirləşdikdən sonar rəhmə gəldi, Ulduzu götürüb Yaşargilə apardı. Ulduz ürəkdən sevindi. Yaşarı evdə görməyib anasından soruşdu:

– Bəs Yaşar haradadır?

– Məktəbə gedib, qadası! Axı, məktəblər dünəndən açılıb.

Ulduz oturub Yaşarı gözlədi.

## Ağa Qarğanın xilası üçün tədbir

Günorta Yaşar qaça-qaça evə gəldi. Ulduzu görən kimi salam verdi. Yaşarın körpə bacısı da var idi. Anası süd verib onu yatırtmaq istəyirdi. Körpənin yatmasına mane olmamaq üçün Ulduzla Yaşar həyətə çıxdılar. Ulduz qəmgin halda üzünü Yaşara tutub dedi:

– Yaşar, heç bilirsən nə olub? Yaşar Ulduza dedi:

– Yox.

– Ağa Qarğa ölür!

– Ağa Qarğa kimdir?

– Mənim Ağa Qarğam da!

– Məgər sənin Qarğan da var?

– Hə, varımdır, bəs indi neyləyək?

– Acından ölür?

– Yox!

– Yaralıdır?

– Yox.

– Bəs niyə ölür?

– Uça bilmir, Qarğa uça bilməsə, mütləq ölər.

– Ver mənə, uçmaq öyrədim.

– Pilləkənin altında gizlətmişəm.

– Analığının bundan xəbəri var?

– Yoxdur. Əgər xəbər tutsa, öldürər.

– Onda düşünüb bir tədbir aramalıyıq.

– Əvvəlcə itin barəsində düşünməliyik. Məgər, itin səsini eşitmirsən?

– Niyə eşitmirəm?! İt Ağa Qarğanı götürməyə qoymayacaq. Bir tədbir görməliyik. Bunun üçün mənə bir-iki gün möhlət ver.

– Vaxt azdır. Ağa Qarğanı elə bu gün götürməliyik, yoxsa ölər. Ana Qarğa özü deyib.

Son dərəcə həyəcanlanmış Yaşar soruşdu:

– Ana Qarğa kimdir?

– Ağa Qarğanın anası. Bu haqda sonra danışaram. İndi gərək elə bir iş görək ki, Ağa Qarğa ölməsin...

Onlar birlikdə nahar elədilər. Nahardan sonra Yaşarın atası işə getdi. Anası körpəsi ilə yatmağa hazırlaşdı. Yaşar, ondan əl çəksinlər deyə, bir bəhanə tapıb anasına dedi:

– Mən yatmayacağam, Ulduzla oturub dərslərimi hazırlayacağam.

Bir azdan sonra hər ikisi bayıra çıxıb pilləkənlərlə damın üstünə qalxdılar. O yan-bu yana boylanıb gördülər ki, it Ağa Qarğanın saxlandığı hinin lap qapısı ağzında uzanıb.

Yaşar Ulduza dedi:

– Mən aşağı düşüb Qarğanı götürəcəyəm.

– Qapının ağzını kəsdirib dayanan iti görmürsən?

– Deyirsən məni qapar?

– Əmim dedi ki, adama dəymir. Amma qarğaların düşmənidir. Ağa Qarğanı görsə səni də didib dağıdar.

– O barədə də fikirləşmişəm. Ağa Qarğanı qoltuğumda gizlədib aradan çıxaracağam.

– Yaxşı tədbirdir, – deyə Ulduz razılaşdı. Yaşar tələsik həyətə düşdü, Ağa Qarğanı hindən çıxarıb, dama qalxdı.

Ağa Qarğa onlara təşəkkürünü bildirdi. – Ancaq iş-işdən keçib!—dedi.

– Yaşar soruşdu: – Niyə?

– Çünki anam günortaya qədər vaxt qoymuşdu. Həmin vaxt ötüb. Bir də mən o qədər aclıq çəkmişəm ki, uçmağa heyim qalmayıb.

Qüssədən boğazı qəhərlənən Yaşar dedi:

– İstəmirsən aparıb sənə uçmaq öyrədim?!

– Dedim ki, artıq gecdir...

O, lələklərindən birini Ulduza verib dedi:

– Nəhayət, bir gün qarğalar mənim və sizin sorağınıza gələcəklər.

Ağa Qarğa bu sözləri deyəndən sonra caynaqlarını yığdı və canı soyudu.

Ağa Qarğanın ölümü uşaqları son dərəcə kədərləndirdi. Ulduz xeyli ağladı. Yaşar onu sakitləşdirib dedi:

– Onların başına bir oyun açacağam ki, özləri də məəttəl qalacaqlar. Bu gün istəyirəm atanı və analığını o qədər qorxudam ki,kölgələrindən də xoflansınlar.

Yaşar tələsik həyətə düşdü. İti açıb küçəyə buraxandan sonra dama qalxdı. Damdan götürdüyü yekə qara daşı itin yatdığı yerə atdı. Daşın səsi az qala evi tərpətdi.

Ulduzun atası səsə ayılıb həyətə çıxdı.

– Evimə əcinnələr yol tapıblar! Mən daha burada qala bilmərəm! Dadıma çatın!..

Bir neçə polis və başqa kişilər dövrəsinə toplaşıb onu sakitləşdirməyə çalışırdı. Ulduzun atası itin yerini göstərərək dad çəkirdi:

– Bir baxın! Daşı kim gətirib buraya atıb? İt niyə qeybə çıxıb? Əcinnələr evimə yol tapıblar, əvvəlcə iti öldürüblər... Sonra da... Vay!.. Vay!..

Onu darta-darta evə apardılar. O: – Allah, özün kömək elə!.. Əcinnələr! – deyib təzədən həyətə çıxdı, dəli kimi o yan-bu yana qaçmağa başladı.

Kimsə analığı məsələdən xəbərdar etmişdi. O, tələsik özünü evə yetirdi. Ərinin əhvalını görən kimi qəşş edib yerə yıxıldı. Arvadlar tez onu götürüb evlərdən birinə apardılar. Ara sakitləşdi, hərə çəkilib evinə getdi.

Polisin nə vaxt çıxıb getməyindən heç kəs xəbər tutmadı. Bir azdan Ulduzun analığını gətirdilər. Gecədən xeyli keçmiş Yaşarın anası Ulduzu gətirib evlərinə ötürdü. Onun atası da, analığı da o qədər qorxmuşdular ki, bu vaxta qədər qızın harada olduğundan xəbər tutmamışdılar...

# Qar, soyuq, bekarçılıq... İntizar...

Payızın son günləri özü ilə qar, soyuq gətirdi. Qış başladı. Çovğun, soyuq həddini aşdı. Ulduzun əmisi iti aparmağa gəldi. İtin üstündə qardaşı ilə dalaşdı. Əliboş və əsəbi halda qayıdıb getdi.

Qorxu analığın canından çıxmamışdı. Mətbəxin qapısı, divarları dua yazıları ilə dolu idi. O, gecələr bayıra tək çıxmaqdan qorxduğu üçün Ulduzu yanınca aparırdı. Ulduzun bir zərrə də qorxusu yox idi. Həmişə bayıra tək gedirdi və ürəyində analığına gülürdü...

Havalar getdikcə daha da sərtləşirdi. O qədər qar yağırdı ki, səhər durub görürdün, pəncərələri yarıya qədər örtüb. Şaxta sərçələri qurudub payız yarpaqları kimi yerə tökürdü. Bir gün Ulduzun atası gördü ki, damın qırağında iki qarğa oturub. Dəyənəklə vurub hər ikisini yerə saldı. Amma əyilib götürdükdə gördü ki, şaxtadan donublar. Bunu eşidən Ulduz çox kədərləndi. Xəbər Yaşara bir neçə gündən sonra çatdı. O, öz-özünə dedi:

– Yəqin ki, Ağa Qarğanın dalısınca gəlibmişlər... Yazıqlar!

Yaşarın anası hər gün səhər gəlib Ulduzun analığına kömək edirdi. Qabları yuyur, evi təmizləyir, günortaya yaxın evlərinə qayıdırdı. Ulduz onu çox istəyirdi. Analığı bir yana çıxan kimi, macal tapıb onunla bir neçə kəlmə danışar, Yaşarın əhvalından xəbər tutar və ona salam göndərərdi. Başqa qonşu arvadlar da gəlib-gedirdilər, ancaq Ulduz Yaşarın anasını onların hamısından çox istəyirdi. Analığın yanında isə heç nə büruzə vermirdi. Qarğaların intizarını çəkirdi. İnanırdı ki, onlar bir gün gələcəklər.

Ulduzun atası həmişə olduğu kimi yenə də idarəyə gedib-gəlirdi. Bir gecə o, arvadına dedi:

– Bu dəfə uşağın sağ qalsa, ayaq tutsa, Ulduzu başqa yerə göndərəcəyəm ki, rahat olasan. Amma uşağın yenə də dünyaya ölü gəlsə, məndən incimə. Ulduzu özümdən uzaqlaşdıra bilməyəcəyəm...

## Nəzir-niyaz ölümün qabağını ala bilmir... Ana Qarğanı xatırlayırlar...

Nəhayət, Ulduzun analığının uşağı oldu. Onun yaşaması üçün tədbirlər gördülər; uşaq isə... həftəsi tamam olanda ölümcül vəziyyətə düşdü. Həkim çağırdılar. Həkim uşağa baxıb dedi:

– Uşaq yaxşı inkişaf etməyib, sağ qalmasına ümid yoxdur. –Ertəsi gün uşaq öldü.

Ana zəiflikdən, qəm-qüssədən bərk naxoşladı. Gecə-gündüz elə hey öz-özünə deyinir, qəhərlənirdi.

Yaşarın anası bütün gunü analığın yanında qalırdı. Hərdən Yaşar nahara anasının yanına gələndə fürsət tapıb Ulduzla danışırdı...

Qarğalardan xəbər yox idi. Arabir tənha bir qarğa “qar-qar” edərək havada görünür, dərhal da gözdən itirdi. Sərv ağacları çılpaq və boş qalmışdı. Ulduz bir vaxt Ana Qarğanın ağacın nazik budaqlarına qonub qarıldamasını, yırğalanmasını və uçub getməsini xatırladı...

# Qış bərk keçir

Qış çox bərk keçirdi, çox bərk. Həyətə divar boyu qar yağmışdı. Neft və kömür tapılmırdı, hətta dəyərindən üç dəfə artığına da tapmaq olmurdu. Yaşarın atası işsiz idi, anası isə işləmək və paltar yumaq üçün başqalarının evinə gedirdi, qayıdanda kədərli xəbərlər gətirirdi:

—Dünən bir yoxsul ailə soyuqdan donub...

Bir gün də səhər ağlaya-ağlaya gəlib Ulduzun atasına gecə öz körpəsinin soyuqdan donub öldüyünü xəbər verdi.

Yaşar çox pərişan idi. Balaca bacısının ölümü onu dəli eləmişdi. Hətta Ulduzun yanında: – Az qalmışdı ki, mən də soyuqdan donam. Axı, bizim kürsünün altı çox vaxt boş olur, kömürümüz yoxdur,—deyib ağladı.

Ulduz onun göz yaşlarını görərək: – Ağlama. Yaşar, – dedi, -ağlasan, mən də ağlayaram.

Yaşar sakitləşdi, atasının səhər anasına dediklərini Ulduza danışdı:

– Bu xarabada bir adam yoxdur ki, desin, niyə filankəslərin kömürü olmasın?!

– Atan işləyir?

– Yox. Evdə oturub. Hey fikir eləyir; hərdən də durub qar kürüməyə gedir.

– Niyə gedib iş tapmır?

– Deyir ki, iş yoxdur.

– İş niyə yoxdur?

Yaşar heç nə deməyib çiyinlərini çəkdi.

Soyuq getdikcə azalır, havalar qızırdı. Bahar özünü göstərməyə başlayır, sular hərəkətə gəlir, çöl, təpə zümrüd paltar geyinir, hər yer gül-çiçəyə bürünürdü.

Yaşarın anası soyuq və boş kürsüləri yığışdırıb pəncərələri açdı. Atası isə on-on beş nəfərə qoşulub Tehrana getdi ki, kərpic kürələrində işləsin. Başqa illərdə olduğu kimi, bu il də Yaşarla anası evdə tək qaldı...

Analıq yaxşılaşmışdı, lakin yenə də Ulduzu görməyə gözü yox idi. Ulduz çox vaxt Yaşargildə olurdu. Analığı isə ona heç nə demirdi. Son zamanlar atası Ulduzu daha çox istəyirdi. Deyirdi ki, bu il onu məktəbə göndərəcəkdir.

## Qarğaların dilini kim bilir?

Yay yaxınlaşırdı. Yaşarın başı imtahanlara qarışmışdı. Bir gün Ulduza dedi: –Dünən məktəbimizin həndəvərində uçan iki qarğa gördüm.

Ulduz tez yerindən atılıb soruşdu:

– Bəs sonra?

– Sonra sinfə getdim, hesabdan imtahanımız vardı, bayıra çıxanda gördüm yoxdurlar.

Ulduz köksünü ötürüb dedi:

– Qəm eləmə, bizim qarğalarımızdırsa bir də qayıdarlar. Heç danışa bildiniz?

– Fürsət olmadı. Bir də axı, mən qarğaların dilini bilmirəm.

– Elə demə, bilirsən.

– Haradan, bilirsən.

– Mehribanlığından, təmiz ürəkli olmağından, başqaları üçün çalışmağından, bir də ona görə ki, sən mənim analığımın tayı deyilsən.

– Bunları haradan öyrənibsən?

– Ana Qarğa deyirdi; deyirdi ki, bütün yaxşı uşaqlar qarğaların dilini bilir.

Yaşar bu sözlərdən şadlandı, sevincək halda Ulduzun əllərini ovucları arasına alıb sıxdı və dedi:

– Heç özüm də bilmirəm, o gün necə oldu ki, Ağa Qarğa ilə danışa bildim...

## Qarğaların qayıtması

Yay yaxınlaşır, havalar istiləşirdi. Bir gün Yaşar axırıncı imtahanını verib evə qayıdırdı. Məktəbdən bir qədər aşağıda, məscidin qabağında tut ağacı vardı. Tutun altına çatanda "Yaşar!" – deyə naməlum bir səs eşidildi. Yaşar dönüb ətrafa baxdı. Kimsəni görmədi. Küçə lap xəlvət idi. O, yoluna davam etdikdə, yenə də həmin səsi eşitdi. Yaşar geri döndü, gözü tut ağacına qonmuş iki Qarğaya sataşdı. Yaşarın ürəyi həyəcanla döyündü.

– Qarğalar! – dedi. – Siz məni hardan tanıyırsınız? ,

Qarğalardan biri nazik səslə dilləndi:

– Ağa Yaşar, məgər sən Ulduzun dostu deyilsən?

– Bəli, dostuyam!

O biri Qarğa yoğun səslə dedi:

– Doğrudur, anamız səni görməmişdi, amma Ulduz sənin əlamətlərini ona demişdi. Çoxdandır ki, səni tapmaq üçün məktəbləri gəzirik. Nənəmiz tapşırmışdı ki, Ulduzu görməmişdən əvvəl səni tapaq. Bəs Ulduzun kefi necədir?

Yaşar dedi:

– Ağa Qarğa, elə bilirdim ki, siz onu yaddan çıxarmısınız.

Yoğun səsli Qarğa dedi:

– Tanışlıq vermədiyim üçün üzr istəyirəm. Mən, vaxtilə sizin yanınızda olan və öldürülən Ağa Qarğanın qardaşıyam. Bu da mənim bacımdır. Onu Xanım Qarğa çağırın.

Xanım Qarğa dedi:

– Əlbəttə, bizim bir qardaşımız da var idi, şaxtadan donub öldü. Anamızın qüssəsini çəkən atamız da rəhmətə getdi.

Yaşar təəssüflə dedi:

– Başınız sağ olsun!

Hər iki Qarğa birlikdə:

– Təşəkkür edirik! – dedilər.

– Burada söhbət eləməyimiz yaxşı deyil, – deyə Yaşar qarğaları evlərinə dəvət etdi və bildirdi ki, evdə özündən başqa heç kəs yoxdur.

Qarğalar bu təkliflə razılaşdılar. Evə tərəf gedən Yaşarın başı üzərindən asta-asta uçmağa başladılar. Bu zaman Yaşar özünü nə qədər də xoşbəxt hesab edirdi! O, başı üzərində uçan qarğalara baxır və qürurla yeriyirdi. Yaşar qonşudan açarı alıb qapılarını açdı və içəri keçdi. Qarğalar da aşağı enib pilləkənin üzərinə qondular. Yaşar üzünü onlara tutub dedi:

– Ulduzu görmək istəyirsiniz?

Bu zaman divarın o tayından Ulduzun ağlamaq səsi eşidildi. Hər üçü sakit dayandı.Az sonra Xanım Qarğa dedi:

– Hələlik Ulduzu görmək lazım deyil. Gəlin tələsməyək.

Ağa Qarğa dedi:

– Doğru deyirsən, gedək Qarğalar şəhərinə xəbər verək, sonra qayıdıb görərik. Elə bu gün qayıdacağıq. Bizdən Ulduza salam de.

Qarğalar gedəndən sonra Yaşar dama çıxdı. Nə qədər gözlədisə Ulduz həyətdə görünmədi. Qayıdıb anasının taxçada qoyduğu çörək və pendiri götürüb nahar elədi. Sonra yenə də dama qalxdı. Hava çox isti idi. Köynəyini çıxarıb damın üstündə arxası üstə uzandı. Səmanın seyrinə daldı. Səma tərtəmiz, mavi idi...

## Qaçmaq haqqında plan

Nahar zamanı atası Ulduzu yanında – süfrə başında oturtmuşdu. Ulduz hıçqırıb ağlayırdı. Bundan əsəbiləşən analığı öz-özünə deyinməyə başladı:

– Lap şitini-şorunu çıxarıb. Könlünə kötək düşüb!

– Əziz qızım, – deyə Ulduzun atası dilləndi, – sən ki sözə-baxan uşaq idin, indi nə oldu?

Ulduz heç nə demədi. Yenə də hıçqırıb ağladı. Analıq yenə də söz atdı:

– Nə olacaq? Deyir ki, təklikdən təngə gəlmişəm. Gərək qoyasız, gedəm Yaşarla oynayam.

– Əlbəttə, mənim də ürəyim oynamaq istəyir. Tənhalıq lap məni cana gətirib, – deyə Ulduz analığının sözünü təsdiq etdi.

Bir qədər çək-çevirdən sonra ata belə qərara gəldi ki, Ulduz hərdən Yaşarın yanına getsin, bir az oynadıqdan sonra qayıtsın.

Ulduz şadlandı. Atasının dediklərindən istifadə edib həyətə çıxdı və sonra da dama qalxdı. Fikri orada oturub qarğaları gözləmək idi. Birdən gözü yatmış Yaşara sataşdı. Gedib Yaşarın yanında oturdu. Əli ilə onun saçlarını sığalladı. Yaşar gözlərini açıb güldü, tez köynəyini əyninə geyib oturdu:

– Ulduz, bilirsən yuxuda nə görürdüm?

– Yox.

– Yuxuda görürdum ki, bir-birimizin əlindən tutub, buludların üzərində oturmuşuq, Xanım Qarğanın toyuna gedirik. Qarğalar da bizim arxamızca uçurlar.

– Xanım Qarğa kimdir?

– Sənə deməmişəm?

– Yox.

– Qarğaları gördüm, axı, hələ danışdım da!..

– Nə vaxt?

– Məktəbdən qayıdanda Ağa Qarğanın qardaşını və bacısını gördüm. İndi gəlməlidirlər.

– Deməli, Xanım Qarğa bizim Ağa Qarğanın bacısıdır?

– Bəli.

– Ata Qarğadan nə xəbər?

– Dedilər ki, arvadının qüssəsindən ölüb.

Bu zaman ağacların arxasından iki Qarğa çıxdı, sakitcə damın üstünə enib ehtiramla salam verdilər. Ulduz onları tutub öpdü və bağrına basdı. Hal-əhvaldan sonra Ağa Qarğa dedi:

– Ulduz, bütün qarğalar deyirlər ki, sən gərək bizim yanımıza gələsən. Analığının sənə əziyyət verdiyini bilirik. Belə yaşasan, çərləyib ölərsən.

– Necə qaça bilərəm? Atamla analığım qoymazlar.

Xanım Qarğa da sözə qarışdı

– İstəsən, qarğalar çıxış yolu taparlar.

Sakit dayanmış Yaşar qəfil dilləndi:

– Yəni deyirsiz getsin, daha qayıtmasın?

– Bu, onun öz istədiyindən asılıdır. Bəs sən nə fikirdəsən, Yaşar? – deyə Xanım Qarğa soruşdu.

Yaşar: – Sizin butün sözlərinizi qəbul elirəm dedi, – Ulduz burada qalsa, əldən gedər, ancaq Qarğaların şəhərinə getsə!..

Ağa Qarğa dedi:

– Sabah yenə də danışarıq. Ulduz, sabaha qədər fikirləş!

Qarğalar getdilər. Ulduz üzünü Yaşara tutub soruşdu:

– Necə bilirsən, mütləq getməliyəm?

Yaşar dedi:

– Bəli, getməyinə get. Amma həmişəlik yox... Söz verirsən ki, qayıdacaqsan?

– Söz verirəm, Yaşar!..

## Nənə Qarğa qaçmağın yolunu öyrədir

Ertəsi gün günortaüstü qarğalar gəldilər. Qoca Qarğa da onlarla gəlmişdi. Xanım Qarğa nənələrini Ulduzla Yaşara təqdim etdi:

– Nənəmizdir.

Nənə Qarğa uşaqlara yaxınlaşdı, keçib onlarla üzbəüz oturdu:

– Sizi tapdığımız üçün bütün qarğalar sevinirlər, – dedi, – qızım sizin haqqınızda çox danışıb.

Ulduz soruşdu:

– Ana Qarğa sizin qızınız idi?

– Bəli... Çox yaxşı Qarğa idi.

– Mənim üstümdə öldürüldü! – Ulduz təəssüflə ah çəkdi.

– Qarğalar bir-iki deyillər ki, ölməklə, öldürülməklə qurtarsınlar; biri ölürsə ikisi dünyaya gəlir.

Yaşar sözə qarışdı:

– Ulduz sizin yanınıza getmək istəyir.

– Lap yaxşı!

– Ürəyim istədiyi vaxt qayıda bilərəm? – deyə Ulduz Nənə Qarğaya sual verdi.

– Əlbəttə, biz qarğalar o adamı sevirik ki, öz yaşayışını, dostlarını qoyub qaçmasın, öz işi xatirinə başqaları barədə pis fikirdə olmasın.

– Yaxşı, bəs məni öz yanınıza necə aparacaqsınız?

– Hər şeydən əvvəl möhkəm bir tor lazımdır. Gərək onu özünüz toxuyasınız.

– Tor nə üçündür?

– Əvvəla, onun üçündür ki, qarğalar yəqin etsinlər ki, siz tənbəl deyilsiniz, işgüzarsınız, öz xoşbəxtliyiniz üçün zəhmət çəkməyə hazırsınız. İkinci, onun üçündür ki, sən oturarsan torun üstündə, qarğalar səni götürüb apararlar öz şəhərlərinə...

Yaşar yenə də sözə qarışdı:

– Bağışla, Nənə Qarğa, tor toxumaq üçün biz ipi, yunu hardan tapaq?

– Yaxşı və işgüzar adamlara qarğalar həmişə kömək etməyə hazırdırlar. Biz yun gətirərik, siz də oturub toxuyarsınız.

Bu an Nənə Qarğanın gözü damda sirkə şüşələrinin ətrafına düzülmüş daşlara sataşdı.

– Bax, – dedi, – biz yunu gətirib bu daşların arasına qoyacağıq.

Onlar bir az da o yan-bu yandan danışdılar, sonra uçub getdilər.

Ulduz dedi:

– Yaşar, axı ip əyirməyi, tor toxumağı bacarmıram.

– Mən bilirəm, atamdan öyrənmişəm.

## Qarğalar səy edirlər... Uşaqlar can-başla işləyirlər... İşlər qaydaya düşür...

Məktəblərdə yay tətili başlanmışdı. İndi Yaşarın farsca savadı pis deyildi. Atasından gələn məktubları oxumağı, anasına izah etməyi bacarırdı. Anası yenə də başqalarına paltar yuyurdu. Atası Tehranın kərpic kürələrində işləyirdi. Qarğalar indi Yaşargilə tez-tez gəlib-gedirdilər. Ulduzun analığı qarğaların çoxluğundan təşvişə düşüb: “Olmaya, bu qızın qarğalarla əlaqəsi var?” – deyə öz-özünə deyinirdi.

Yaşargildə ipəyirmə işi öz qaydasında gedirdi. Onlar böyüklər kimi işləyirdilər; yoğun iplər hazırlayır, həyətdəki hində gizlədirdilər.

Nənə Qarğa da hərdənbir onlara baş çəkib, işin gedişindən xəbər tuturdu.

Yaşar yoğun ipləri ona göstərdikdə Nənə Qarğa gülüb dedi:
– Afərin, ağıllı uşaqlar! Amma çalışın ki, heç kim gördüyünüz bu xəlvəti işdən xəbər tutmasın. Ayıq olun ha!

Yaşarla Ulduz:

– Arxayın ol, Nənə! Yaşımızın az olmağına baxma, ağlımız çoxdur, – deyə Nənə Qarğanı arxayın etdilər.

Uşaqların ağıllı cavablarından razı qalan Nənə Qarğa əyri dırnaqları ilə yeri cıza-cıza:

– Sizdən xoşum gəlir, – dedi, – afərin! Afərin! Hələ uşaqsınız. Buna görə də hələ çox şey öyrənməli və bundan da çox çalışmalısınız.

Hərdənbir Xanım Qarğa qardaşı ilə uçub gəlir, uşaqların yanında oturur, söhbət edirdilər. Onlar öz şəhərlərindən, sərv ağaclarından danışırdılar, buludlardan, küləkdən, dağdan, çöl və səhradan söz açırdılar. Uşaqlar artıq əlli-altmışdan çox Qarğa ilə tanış idilər. Xanım Qarğa deyərdi ki, Qarğalar şəhərində bir milyondan da çox Qarğa yaşayır.

Bu, uşaqları sevindirməklə yanaşı, həm də təəccübləndirirdi ki, nə əcəb bir milyon Qarğa bir yerdə yaşayır, ancaq davaları düşmür?!

# Ulduzun səfər yoldaşı

Bir gün Ulduz Yaşarla oturub yun əyirəndə başını qaldırdı, gördü ki, Yaşar hərəkətsiz dayanıb ona tamaşa edir. Soruşdu:

– Niyə mənə belə baxırsan, Yaşar? Nə olub?

– Heç, elə belə.

– Gərək mənə deyəsən!

– Bilirsənmi, Ulduz, sən gedəndən sonra tək qalıb darıxacağam.

– Dünən mən də bu barədə fikirləşirdim. Kaş, ikilikdə səfər edəydik. Təklikdə səfərə çıxmağın o qədər də ləzzəti yoxdur.

– Deməli, istəyirsən, mən də yanında olum?

– Lap ürəkdən istəyirəm, ancaq gərək bu barədə Nənə Qarğa ilə məsləhətləşək.

– Özüm deyərəm!

Ertəsi gün Nənə Qarğa gələndə Yaşar ondan soruşdu:

– Nənə, Ulduzla birlikdə mən də sizin yanınıza gələ bilərəm?

– Gələ bilərsən, amma anana ürəyin yanmır? Onu necə qoyub gedərsən?

– Getməmişdən bir gün qabaq ona deyəcəyəm.

– Anan razı olsa, səni də apararıq.

Nənə Qarğa ilə söhbətdən ruhlanan uşaqlar daha səylə işləməyə başladılar.

# Balıqların və yunun oğurlanması

Ulduzla Yaşar çox vaxt bir yerdə olurdular. Ulduzun gözdən uzaq olması analığın ürəyindən idi. Ona çox dəyib-dolaşmırdı. Qarğaların isə bu günlər tez-tez gəlib getməsi onu yaman narahat edirdi. Qorxurdu ki, axırda başına bəla açılar. Ulduzun atası da yaman narahat olmuşdu: xüsusən hovuzun qırağına gedib balıqların yoxa çıxdığını görəndən sonra. İki balığı Xanım Qarğa ilə qardaşı, qalanlarını da o biri qarğalar yemişdi. Buna görə də Ulduzun analığı və atası harada Qarğa görürdülərsə onları söyür, qarğıyır və dallarınca daş atırdılar.

Sirkə qoymaq üçün bir gün Ulduzun atası üzüm alıb gətirmişdi. Analıq şüşəni götürüb dama qalxdı. Daşları o yan-bu yana edəndə gördü ki, bir xeyli yun var. Yunu götürüb ərinin yanına gəldi və təşvişlə dedi:

– Görürsən, əcinnələr yenə də bizi ələ salıblar. Hələ də yaxamızdan əl çəkmirlər. Bu yunu da yəqin onlar gətirib daşların arasına qoyublar.

Ulduzun atası dedi:

– Gərək qarşılarını alaq.

Sabahı gün Ulduz eşitdiklərinin hamısını Yaşara danışdı. Yaşar gülüb dedi:

– Yunu gizlicə götürməliyik. Belə olmasa, işimiz bir neçə gün təxirə düşər.

Ulduz yunu götürdü və gətirib boş it damına qoydu. Yaşar kifayət qədər yunun toplandığını gördükdən sonra qarğalara xəbər çatdırdı ki, daha yun gətirməsinlər.

## Yaşar anasından izin alır... İtin dilini bilmək əhvalatı...

Uşaqlar o gündən tor toxumağa başladılar. Yaşarın anasının uzun simləri var idi, arvad bu simlərə paltar sərərdi. O, anasından həmin simləri alıb ip qatlarının arasına qoymaq istəyirdi ki, tor möhkəm olsun.

Bir gün axşam yeməyi zamanı Yaşar anasına dedi:

– Anacan, bir neçə günlüyə səfərə getsəm, darıxmazsan ki?

Anası elə bildi ki, Yaşar zarafat edir.

– Mənə icazə verərsənmi, bir neçə günlüyə səfərə çıxım?– deyə Yaşar bir də soruşdu. – Söz verirəm ki, tez qayıdaram.

Ana soruşdu:

– Əvvəl de görüm, bunun xərcini haradan alaq?

– Heç bir xərc lazım deyil, anacan.

– Yaxşı, de görüm kiminlə gedirsən?

– İndi deyə bilmərəm, gedəndə bilərsən.

– Yaxşı, de görüm axı, haraya gedirsən?

– Onu da gedəndə deyərəm.

– Onda, mən də gedəndə izin verərəm.

Yaşarın anası elə bilirdi ki, oğlu zarafat edir.

Bir neçə il bundan əvvəlki kimi yenə də yekə-yekə danışır. Yaşar hələ birinci sinifdə oxuyarkən yekə-yekə danışardı. Məsələn, mütəkkənin üstündə oturub deyərdi:

– İstəyirəm, göylərə uçam, balaca ulduzlardan bir neçəsini pencəyimə düymə eləmək üçün gətirəm.

Ancaq o bilmirdi ki, balaca ulduzların hər biri minlər, milyonlar dəfə ondan böyükdür. Kürsülərindəki manqalın odundan min dəfələrlə istidir.

Günlərin birində Yaşar bir küçə itini ədəb-ərkanla evə gətiribmiş. Ata-anası bunu görüb soruşmuşdu:

– Bu murdar heyvanı evə niyə gətirmisən?

Yaşar qürurla demişdi:

– Elə deməyin, bu it dil bilir. Neçə vaxtdır zəhmət çəkib dil öyrətmişəm. Ona nə desəm, yerinə yetirir.

Yaşarın atası gülüb demişdi:

– Əgər düz deyirsənsə, qoy gedib bazardan iki çörək alıb gətirsin. Bu da pulu.

Yaşar dedi:

– Onda əvvəl yemək yesin, sonra.

Yaşarın anası bir az çörək gətirib itin qabağına qoydu. İt çörəyi yeyib quyruğunu buladı. Yaşar dilləndi:

– Dostum, bildim nə dedin.

Yaşarın atası soruşdu:

– Yaxşı, de görək nə dedi?

Yaşar cavab verdi:

– Bilirsiniz nə dedi? Dedi ki, Yaşarcan, dişlərimin arasında nə isə qalıb, xahiş edirəm ağzımı aralayıb onu çıxarasan...

Xülasə, mətləbə qayıdaq. O gün Yaşar anasına bir daha sual verdi:

– Deməli, gedən günü icazə verəcəksən?

– Bəli!

– Ana, paltarasılan simi də mənə verərsən?

– Onu neyləyirsən? Yenə nə kələyin var?

– Heç bir kələyim yoxdur. Səfər zamanı lazım olacaq.

Yaşarın anası oğlunun məqsədini başa düşməsə də simi ona verməyə razı oldu. Onlar yatağa uzanarkən Yaşar:

– Ana! – deyə səsləndi. .

– Nə deyirsən, oğlum?

– Söhbətimizi heç kimə deməyəcəksən ki?

– Ürəyin sakit olsun, oğul. Heç kimə demərəm.

Yaşar daha heç nə deməyib, aydın səmadakı ulduzlara tamaşa eləməyə başladı.

## Yola düşmək günü

İşlər sürətlə gedirdi. Yaşarın anası çox vaxt evdə olmurdu. Qarğalar da ara-sıra gəlib-gedirdilər. Nənə Qarğa deyirdi:

—Get-gəli azaltmaq lazımdır. Ulduzun analığı başa düşər, işlər pozular.

Nəhayət, uşaqlar toru toxuyub qurtardılar. Nənə Qarğa gəlib onu gördükdə:

– İndi çəkdiyiniz zəhmətin faydasını görmək vaxtıdır, – dedi.

– Nə vaxt yola düşəcəyik? – deyə Yaşarla Ulduz nənəyə sual verdilər.

Nənə Qarğa dedi:

– Əgər istəsəniz, elə lap sabah günorta vaxtı.

Uşaqlar bildirdilər ki, nə qədər tez olsa, o qədər yaxşıdır.

– Onda, sabah günorta gözləyin. Elə ki gördünüz, iki Qarğa üç dəfə qarıldadı, toru götürüb damın üstünə qalxın.

Uşaqların sevincinin həddi-hüdudu yox idi. Sevindiklərindən durub oynamaq istəyirdilər. Onlar bir qədər də söhbət etdikdən sonra Nənə Qarğa uçub sərv ağacına qondu. Sonra qarıldayıb uçdu, gözdən itdi.

## Heç nədən xəbəri olmayanlar... Ulduzu dəli zənn edirlər

Axşam idi. Yemək zamanı Ulduz öz-özünə gülürdü. Bunu görən analığı onu dəli kimi qələmə verdi.

– Qız, axı niyə gülürsən? Mən ki burada bir gülməli şey görmürəm, – deyə atası da Ulduza irad tuturdu.

Ulduz isə şadlığından güldüyünü bildirirdi.

Analıq əsəbiləşir, ata isə soruşurdu:

– Hansı şadlığından?

– Elə-belə. Şadlığımdan.

## Yaxşı ana, mehriban ana...

– Anacan, sabah günorta evdə ola bilərsən? – deyə Yaşar anasına sual verdi.

– Mənimlə işin var?

– Bəli!

– Yaxşı, sabah günorta evdə olaram.

Yaşarın anası oğlunun işindən baş açmırdı. Amma bunu da bilirdi ki, Yaşar yaxşı oğlandır, pis iş görməz. O, oğlunu çox

istəyirdi; gündüzlər başqalarına paltar yumağa gedəndə də fikri Yaşarın yanında qalırdı. Hətta, bəzən ac da qalırdı, amma oğluna paltar və dərs ləvazimatı alırdı. Bir sözlə, çox yaxşı və mehriban ana idi. Yaşar da öz növbəsində anasını aldatmaz və zəhmətə salmazdı.

## Ulduz "həbsdədir"

Səhər açıldı. Artıq bir neçə saatdan sonra yola düşmək vaxtı çatacaqdı. Yaşar həyətdə o yan-bu yana getsə də, fikri Ulduzun və anasının yanında idi. Toru gətirib bir neçə dəfə həyətdə yerə sərdi, üstündə oturdu və yenə də yığıb yerinə qoydu. Günorta anası gəlib çıxdı. Üzüm, çörək və pendir almışdı. Oturub naharlarını elədilər. Ulduzdan nigaran olduğu üçün Yaşar heç nə danışmırdı. Öz-özünə düşünürdü: "Əgər Ulduz gələ bilməsə, necə olacaq? Yəqin ki, planımız pozulacaq.Əgər Ulduzun analığı əlimə düşsə, ona deyərəm: "Ay xala, axı, niyə qoymursan Ulduz mənim yanıma gəlsin? İndi qarğalar gəlib çıxsalar, neyləyərəm? Ulduz hələ də gəlib çıxmayıb. Az qalır ürəyim partlasın..."

Yaşar su gətirmək bəhanəsilə həyətə düşdü, gördü ki, Ulduzun atası ilə analığı divarın o tayında dayanıb danışırlar. Analıq deyirdi:

– Bilmirsən bu qız mənim başıma nə oyun açır? Axırda məcbur olub mətbəxə saldım və qapını qıfılladım.

Bu zaman sərv ağacına Qarğa qondu. Onları görən kimi Yaşarın ürəyi döyündü:"İndi nə edim, hanı Ulduz? Bəlkə anamı onun dalınca göndərim? Birdən analıq onu həbs eləmiş olar?.."

Qarğalar uçub Yaşarın başı üzərindən keçərək, tut ağacına qondular, qarıldamağa başladılar:

– Qar! Qar! Qar!

Yaşar bir anlığa özünü itirdi. Sonra özünü ələ alıb hinə sarı getdi. Toru götürüb dama qalxdı. Qarğalar da gəlib onun yanına qondular. Yaşar toru açıb sərdi. Heç yarım dəqiqə keçməmişdi ki, sol tərəfdən qara bir dəstənin bulud kimi yaxınlaşdığını gördü. Yanındakı qarğalardan biri dedi:

– Gəlirlər! Bəs Ulduz hanı?

– Deyəsən, analığı onu "həbs" eləyib, – deyə Yaşar dilləndi.

Qara dəstələr yaxınlaşdıqca qarıltı çoxalırdı. Ulduz isə yox idi ki, yox idi! Minlərlə Qarğanın qarıltısı yeri-göyü götürmüşdü. Bir anın içərisində bütün qapı-baca Qarğa ilə doldu. Tut ağacında boş yer qalmadı. Evdən bayıra çıxanlar xoflanırdı. Yaşarın anası başına qazan keçirərək həyətin ortasında fəryad edirdi:

– Yaşar, haradasan? İndi gözlərini çıxaracaqlar!..

Yaşar anasının fəryadını eşidən kimi damın kənarına gəlib:

– Qorxma, ana, – dedi, – bunlar mənim dostlarımdır! Məni çox istəyirsənsə, get Ulduzu göndər buraya. Səndən çox xahiş edirəm, ana! Biz gərək yola düşək..

Yaşarın anası heyrət içində oğluna baxa-baxa qalmışdı.

Yaşar yenə də yalvarmağa başladı:

– Anacan, get! Xahiş edirəm, get... Qarğalar bizim dostumuzdur. Onlardan qorxma!

Yaşar bilmirdi, nə eləsin. Az qalırdı, ağlasın. Bu vaxt Nənə Qarğa irəli gəlib ona dedi:

– Yaşar, sən get torun üstündə otur, mən bir neçə Qarğa götürüb Ulduzun dalısınca gedərəm.

Qarğaların səsi çoxlarını həyətə çıxarmışdı. Hərə başına bir şey tutub qorxa-qorxa göyə baxırdı. Bəziləri də qorxusundan pəncərələrin arxasından tamaşa edirdi. Qoca arvadlar fəryad qoparıb deyirdilər:

– Bəla nazil olub! Gedin dua oxuyun.

Birdən Ulduzun atası əlində ağac həyətə çıxdı. Analıq da onun ardınca çıxdı. Hərəsi başına bir qazan keçirmişdi. Bunları görən Nənə Qarğa dedi:

– Qarğalar, bu ər-arvadın əl-ayağına dolaşın, qoymayın yerlərindən tərpənsinlər!

Qarğalar onların üstünə töküldülər. Fürsətdən istifadə edən Nənə Qarğa bir neçə Qarğa ilə birlikdə içəri cumdu. Mətbəxdən Ulduzun səsi eşidildi. O, bıçaqla qapını deşməyə çalışırdı. Qapı qıfıllı idi. Yaşarın anası özünü yetirib əlindəki daşla qıfılı qırdı. Ulduzu oradan çıxardı və qucaqlayıb üz-gözündən öpdü.

Ulduz dedi:

– Ana, bizdən nigaran olma, tezliklə qayıdacağıq. Məni azad etdiyini analığıma demə, səni incidər.

Yaşarın anası ağlayırdı. Ulduz qaçıb toyuq hinində gizlətdiyi boğçanı götürdü və dama qalxdı. Yaşarın yanına çatan kimi özünü onun üstünə atdı. Yaşar qollarını açıb onu bağrına basdı və sevincindən ağladı. Nənə Qarğa Yaşarın anasına təşəkkür etdikdən sonra dama qalxdı və uca səslə əmr etdi:

– Qarğalar, yola düşün!

Qarğalar hərəkətə gəldilər. Toru caynaqları və dimdiklərinə götürüb qalxdılar. Yaşar havaya qalxarkən çığırdı:

– Ana, biz getdik, atama salam deyərsən, fikir eləmə, tezliklə qayıdacağıq!

Qarğalar Ulduzun analığından və atasından əl çəkib ge0-tdilər. Onlar həyətin ortasında dad çəkib qarğaların arxasınca daş və ağac atırdılar. Paltarları cırıq-cırıq olmuşdu və bir neçə yerdən yaralanmışdılar.

Xülasə, qarğalar şəhərdən uzaqlaşdılar. Onlar uşaqları dövrəyə almışdılar. Uşaqların başlarının üstü boş idi. Buludları görən Ulduz dilləndi:

– Necə də qəşəngdirlər!

Qarğalar hay-küylə Qarğalar şəhərinə doğru uçurdular. Elə bir yerə uçurdular ki, Ulduzun atasının evindən yaxşı idi. Elə bir yerə uçurdular ki, orada analıq yox idi...

## Əmzikləri tullayın!
## Nakam və şəhid dostların xatirəsinə!

Nənə Qarğa, Xanım Qarğa və Ağa Qarğa gəlib uşaqlarla görüşdülər. Bir qədər söhbət etdikdən sonra başqaları kimi onlar da işə yollandılar.

Ulduz boğçasını açdı.

Boğçada bir qədər çörək və kərə yağı var idi.  Ulduz cibindən bir neçə qarğa lələyi çıxardı və Nənə Qarğaya verib:

– Nənəcan, – dedi, – bunlar Ağa Qarğanın lələkləridir; saxlamışdım ki, yadigar olaraq sizə verim. Mən və Yaşar Ağa Qarğanı və anasını heç vaxt yaddan çıxarmayacağıq. Onlar bizim yolumuzda qurban getdilər.

Nənə Qarğa lələkləri alıb havaya qalxdı, uşaqların və qarğaların başı üzərində qanad çalaraq ucadan səsləndi:

– İcazənizlə, iki kəlmə söz demək istəyirəm.

Qarğalar sakit oldular. Nənə Qarğa qanadının altından bir dənə əmzik çıxarıb dedi: "Əziz dostlar, mənim yaxşı qarğalarım! Elə bu saat Ulduz Ağa Qarğanın lələklərindən bir neçəsini mənə verdi. Biz bu lələkləri qoruyub saxlayacağıq. Ona görə ki, mehriban və fədakar ana və baladan qalmış nişanədir. Bu lələklər bizə ona görə lazımdır ki, baxıb onları xatırlayaq, onlar kimi yaxşı və şücaətli olaq!"

Ulduz və Yaşar özlərini saxlaya bilməyib "Ura!„ çəkdilər. Qarğalar da hündürdən qarıldadılar. Nənə Qarğa sözünə davam etdi:

– Amma bu əmziyi tullayırıq. Analıq onu Ulduza almışdı ki, həmişə sorsun, danışmağa, öz dərdini başqalarına deməyə vaxt tapmasın.

Ulduz bir zaman Ana Qarğaya verdiyi əmziyi tanıdı.

Nənə Qarğa əmziyi göydən yerə tullayıb dedi:

– Analıq Ana Qarğanı öldürdü, Ağa Qarğanı nakam elədi, amma Yaşarla Ulduz onları unutmadılar. Öz nakam və şəhid dostlarını heç vaxt unutmayan uşaqlar yaşasın!

Qarğalar yenə ucadan qarıldadılar.Ulduzla Yaşar əl çalıb,"Ura!„ dedilər.

## O dağların başı, dağda yaşayan qarğaların şəhəridir

Uzaqdan hündür dağlar görünürdü. Nənə Qarğa aşağı enərək dedi: "Bax, o dağların başı Qarğalar şəhəridir. Bizim nə üçün gedib dağların başında yaşadığımıza təəccüblənməyin. Çünki qarğalar da cürbəcürdür."

# Balaca Qara Balıq

Çillə axşamı idi. Qoca Balıq dəryanın dibində nəvə-nəticələrini ətrafına toplayıb onlara nağıl danışırdı:

– Biri var idi, biri yox idi, bir balaca Qara Balıq var idi. O, anası ilə birlikdə kiçik bir arxda yaşayırdı. Arx dərəyə axırdı. Balaca Qara Balıqla anasının bir qara daşın dalında, yosunların arasında evləri vardı. Ana və bala sahərdən axşama qədər bir-birinin dalına düşüb üzür, hərdən başqa balıqlara qoşulub sürətlə balaca bir yerdə gəzişir və geri qayıdırdılar. Qara Balıq anasının bircəsi idi.

Bir neçə gün idi ki, o, fikrə getmişdi və az danışırdı. Könülsüz və tənbəl-tənbəl o tərəf-bu tərəfə gedir, geri qayıdırdı. Çox vaxt anasından xeyli geri qalırdı. Anası əvvəlcə elə bilirdi ki, sadəcə olaraq balasının kefi yoxdur, bu kefsizlik tezliklə keçib gedəcəkdir. Lakin... Demə, Balaca Balığın dərdi varmış...

Bir gün səhər tezdən, günəş doğmamış Balaca Balıq anasını yuxudan oyadıb:

– Anacan, – dedi, – sənə bir neçə kəlmə sözüm var.

– Eh, sən də vaxt tapdın! Danışmağı sonraya saxla. Yaxşı olar ki, gəzməyə çıxaq, – deyə Ana Balıq gözlərini ovuşdurdu və əsnədi.

– Yox, anacan, mən daha belə gəzməyi istəmirəm. Gərək buradan gedəm, – deyə Balaca Balıq etiraz etdi.

Anası heyrətlə ona baxıb soruşdu:

– Doğrudan getmək istəyirsən?

– Bəli, anacan, hökmən getməliyəm!

– Axı, alaqaranlıqdan hara getmək istəyirsən?

– İstəyirəm, gedim görüm arx harada qurtarır. Bilirsənmi, anacan, uzun müddətdir ki, fikirləşirəm, görəsən, arx harada qurtarır? Amma indiyə qədər bir nəticəyə gələ bilməmişəm. Dünən gecədən gözümü yummayıb hər şeyi götür-qoy etmişəm.Belə qərara gəlmişəm ki, özüm gedim, arxın qurtaracağını tapım. Bilmək istəyirəm, başqa yerlərdə nə var, nə yox...

– Mən də uşaq olanda belə fikirlərə düşmüşəm, balacan! Arxın nə əvvəli var, nə axırı. Elə gördüyün nə varsa odur. Arx həmişə axır və qurtarmır.

– Yox, anacan, belə deyil. Hər şeyin axırı var. Məsələn, gecə sona çatır, gündüz sona çatır, həftə, ay, il... Məgər bunların sonu olmur?

Balaca Qara Balığın qızışdığını və dil-ağıza qoymayıb danışdığını görən Ana Balıq dedi:

– Boş-boş sözləri bir kənara qoy, dur gəzməyə çıxaq. İndi danışmaq yox, gəzib-dolaşmaq vaxtıdır.

– Yox, ana, mən belə gəzintilərdən yorulmuşam. Buradan uzaqlaşmaq və başqa yerlərdə nələr olduğunu bilmək istəyirəm. Birdən zənn edərsən ki, bunları mənə kimsə öyrədib, yox, ana, çoxdan bu fikrə düşmüşəm. Əlbəttə, ondan-bundan çox şeylər öyrənmişəm. Məsələn, bunu başa düşmüşəm ki, balıqların çoxu həyatlarını boş-boşuna keçirdiklərindən gileylənirlər. Daim ahnalə edir, hər şeydən şikayətlənirlər. Bilmək istəyirəm görüm, həyat elə bir qarış yerdə o yan-bu yana gedib qayıtmaqdanmı,

qocalıb heç nə görməməkdənmi ibarətdir, yoxsa başqa dünya da mövcuddur?!

– Balacan, dəli olubsan? Dünya! Dünya! O başqa dünya nə deməkdir? Dünya elə həmin dünyadır ki, biz yaşayırıq, həyat da ki, elə gördüyün yaşayışdan ibarətdir!

Bu zaman iri bir Balıq onların evinə yaxınlaşdı:

– Qonşu, – dedi, – uşaqla nəyin üstündə belə bəhsə girmisən? Deyəsən, bu gün gəzmək fikriniz yoxdur?

Ana Balıq qonşunun səsini eşidib cavab verdi:

– Gör zəmanə nə dəyişib? Uşaqlar öz analarına cib-cib öyrətməyə başlayıblar.

– Necə məgər? – deyə qonşu iri Balıq soruşdu:

– Gör, bu cırtdan haralara getmək istəyir? Hey deyir ki, istəyirəm, gedim görüm dünyada nələr olur? Nə bilim, axmaq-axmaq sözlər!

Qonşu iri Balıq:

– Balaca, – dedi, – de görüm sən nə vaxtdan belə filosof və alim olubsan ki, bizim xəbərimiz yoxdur?!

Balaca Balıq dedi:

– Xanım, mən bilmirəm siz alim, filosof nəyə deyirsiniz? Hər gün təkrar olunan cansıxıcı gəzintilərdən cana doymuşam. Belə yorucu həyatı daha davam etdirmək istəmiram. İstəmirəm ki, bir də gözümü açanda görüm, sizin kimi qocalmışam, özü də göz-qulaqları bağlı balıqlar kimi qalmışam.

Qonşu Balıq:

– Vay, – dedi, – gör bu, nələr danışır?!

Ana Balıq dilləndi:

– Heç fikirləşməzdim ki, bir dənə uşağım ola, o da belə çıxa! Bilmirəm, balamın qulağını hansı bədcins doldurub...

Balaca Balıq dedi:

– Heç kəs mənim qulağımı doldurmayıb. Anlamaq üçün mənim özümün ağlım, huşum, görmək üçün də gözüm var!

Qonşu Balıq Balaca Balığın anasına dedi:

– Bacı, o pıç-pıç danışan İlbiz yadındadırmı?

– Yaxşı yadıma saldın, yadımdadır! Tez-tez uşağımın yanına gələrdi. Görüm onu gorbagor olsun!

Balaca Balıq dedi:

– Bəsdir, ana! O, mənim dostum idi!

– Balıqla İlbizin dostluğunu eşitməmişdik, bunu da eşitdik!

Balaca Balıq:

– Mən də balıqlarla İlbizin düşmənçiliyini eşitməmişdim! Amma siz o biçarənin başını yediniz, – dedi.

Qonşu dilləndi:

– Bu, keçmişin söhbətidir.

– Keçmişi siz özünüz yada saldınız!

Anası dedi:

– Elə ölməli idi! Məgər oturub-durub nələr danışdıqları yadından çıxıb?!

– Onda məni də öldürün! Çünki mən də onun dediklərini deyirəm, – deyə Balaca Balıq gileyləndi.

Axır ki, nə başınızı ağrıdım, səs-küyün sədası başqa balıqları da oraya çəkib gətirdi. Balaca Balığın sözləri hamını əsəbiləşdirmişdi. Qoca balıqlar bir-bir söhbətə qarışıb Balaca Balığa acıqlandılar:

– Elə düşünürsən ki, sənə rəhm edərik?!

– Bir qulaqburması bəsdir!

Balaca Qara Balığın anası onlara müqavimət göstərdi:

– Kənara çəkilin! Uşağıma əl vurmayın!

Bu zaman balıqlardan bir başqası Balaca Balığın anasına dedi:

– Xanım, uşağını lazımınca tərbiyələndirmədiyin üçün əzab çəkməlisən!

Qonşu Balıq sözə başladı:

– Sizinlə qonşu olduğuma xəcalət çəkirəm!

Başqa bir Balıq dilləndi:

– Nə qədər ki, bu məlunun işi… Göndərək qoca İlbizin yanına.

Balıqlar Bala Balığı tutmaq istədilər. Dostları onu təhlükədən uzaqlaşdırdılar. Anası baş-gözünə döyür, ağlayır və deyirdi:

– Allah, sən saxla! Uşağım əlimdən gedir. Nə edim? Başıma haranın daşını töküm?

Balaca Balıq dedi:

– Anacan, mənim üçün ağlama, geridə qalmış bu qoca balıqların halına ağla.

Balıqlar yerbəyerdən çığırdılar:

– Təhqir eləmə!

– Get! Sonra peşman olsan, daha bizdən incimə!

– Bunlar cavanlıq əlamətidir. Getmə!

– Buraların nəyi pisdir?!

– Başqa dünya yoxdur! Dünya elə gördüyün bu dünyadan ibarətdir. Qayıt!

– Ağlını başına yığıb getməkdən imtina etsən, onda bilərik ki, doğrudan da, başa düşən Balıqsan!

– Biz sənə adət etmişik. Getmə!

Ana Balıq doluxsunaraq dilləndi:

– Mənə rəhmin gəlsin, bala! Getmə! Getmə!..

Balaca Balıq onların dediklərinə etina etmədən uzaqlaşdı. Həmyaşıdlarından bir neçəsi onu arxın gölməçəyə tökülən yerinə qədər ötürüb geri döndülər. Balaca Balıq dostlarından ayrılarkən dedi:

– Görüşənə qədər, dostlar! Məni unutmayın!

Dostları:

– Heç unudarıqmı? Sən bizi qəflət yuxusundan oyatdın. Bizə elə şeylər öyrətdin ki, hətta heç yuxumuza da gəlməzdi. Görüşənə qədər, ağıllı və cəsur dost! – dedilər.

Balaca Balıq şəlaləvari yerdən aşağı sürüşüb arxa nisbətən xeyli çox suyu olan gölməçəyə düşdü. Əvvəlcə özünü itirdi. Sonra üzməyə və gölməçədə dolanmağa başladı. Balaca Balıq bu vaxta qədər bu qədər suyun bir yerə yığışdığını görməmişdi. Suda minlərlə çömçəquyruq gəzişirdi. Balaca Balığı görən kimi onu məsxərəyə qoydular:

– Bir bunun təhər-tövrünə bax! Sən nə cür məxluqsan?!

Balaca Balıq ani olaraq fikirləşib:

– Xahiş edirəm təhqir etməyin, – dedi, – mənim adım Balaca Qara Balıqdır. Siz də adınızı deyin, tanış olaq!

Çömçəquyruqlardan biri dedi:

– Biz bir-birimizi Çömçəquyruq çağırırıq.

O biriləri yerbəyerdən dedilər:

– Əslimiz, nəcabətimiz var.

– Dünyada bizdən gözəli tapılmaz!

– Sənin kimi yöndəmsiz deyilik!

Balaca Balıq onlara belə cavab verdi:

– Sizin bu qədər xudpəsənd olduğunuzu bilmirdim. Amma nadanlıq üzündən belə danışdığınız üçun sizi bağışlayıram.

Çömçəquyruqlar səsləndilər:

– Deməli, biz nadanıq?

– Nadan olmasaydınız, başa düşərdiniz ki, hər kəs üçün öz təhər-tövrü xoşdur. Allaha şükür, sizin heç adınız da özünüzünkü deyil.

Çömçəquyruqlar əvvəl əsəbiləşdilər. Sonra Balaca Balığın haqlı olduğunu görüb sözlərini dəyişdilər.

– Sən özünü nahaq yerə yorursan ,– dedilər, – biz səhərdən axşama qədər dünyanı gəzirik, amma özümüzdən, ata və anamızdan, sonrası da ki, saysız-hesabsız, balaca qurdlardan, böcəklərdən başqa heç kəsi görmürük.

Balaca Balıq soruşdu:

– Siz ki gölməçədən qırağa çıxa bilmirsiniz, dünyanı gəzib dolanmaqdan necə dəm vura bilərsiniz?!

Çömçəquyruqlar təəccübləndilər:

– Məgər gölməçədən başqa da özgə dünya var?

– Bəs necə! Özünüz fikirləşin, görün yaşadığınız su haradan axıb gəlir və sudan kənarda nələr var?

– Sudan qıraqda da yer olar? Biz indiyə qədər sudan başqa heç yeri görməmişik. Ha, ha, ha! Sən dəli olubsan, nədir?!

Balaca Qara Balığı da gülmək tutdu. Fikirləşdi ki, çömçəquyruqları başa salmadan çıxıb getsin. Sonra belə qərara gəldi ki, onların anaları ilə də bir-iki kəlmə danışsın:

– Ananız haradadır?

Bu zaman Qurbağanın gur səsi onu diksindirdi, Qurbağa gölməçənin qırağındakı iri daşın üstündə oturmuşdu. Suya baş vurdu, gəlib Balığın qarşısında dayandı:

– Mən buradayam, – dedi, – qulluq?!

– Möhtərəm xanım, salam!

– Ey əsil-nəcabətsiz vücud! Nə əllaməlik edirsən? Bunları uşaq görüb axmaq-axmaq danışırsan?! Bir belə ömür eləmişəm və başa düşmüşəm ki, dünya elə bu gölməçədən ibarətdi. Yaxşı olar ki, işinin dalısınca gedəsən, mənim uşaqlarımı yoldan çıxarmayasan.

– Yüz il də ömür eləsən, yenə geri qalmış, nadan Qurbağa kimi qalacaqsan!

Qurbağa hirsləndi və Balaca Qara Balığın üstünə cumdu. Bu zaman gölməçənin dibi bir-birinə qarışdı. Balaca Balıq aldığı təkandan dığırlandı, özünü dərədən axan enli arxda gördü. Dərə əyri-üyrü idi. Dağın başından baxanda dərənin suyunu enli, ağ sapa oxşatmaq olardı. Dərənin bir yerində dağdan qopub arxa düşmüş iri bir daş suyu iki yerə bölürdü. İri bir Kərtənkələ də qarnını daşa söykəmişdi. Günəşin hərarətindən ləzzət alır, suyun təkində ovladığı Qurbağanı yeyən iri, yumru Xərçəngə tamaşa edirdi. Elə bu an oradan üzüb keçmək istəyən Balaca Qara Balığın gözləri Xərçəngə sataşdı. O, bərk qorxdu və uzaqdan Xərçəngə salam verdi. Xərçəng Balaca Balığı görüncə:

– Nə ədəbli Balıqsan, – dedi, – gəl qabağa. Balaca, qabağa gəl!

Balaca Balıq:

– Mən dünyanı gəzməyə gedirəm, – deyə Xərçəngə cavab verdi, – cənabınızın yeminə çevrilmək istəmirəm!

– Niyə belə bədbinsən, qorxaqsan, Balaca Balıq?

– Nə bədbinəm, nə də qorxaq. Gördüklərimi deyirəm.

– Çox yaxşı, indi de görüm gözlərin nə gördü və əqlin nə kəsdi ki, səni ovlayacağımı xəyalına gətirdin?

– Özünü bilməməzliyə vurma!

– Bilirəm, Qurbağanın hərəkətlərinə işarə edirsən. Lap uşaqsanmış ki, baba! Qurbağalarla aram olmadığı üçün onları ovlayıram. Onlar elə xəyal edirlər ki, dünyanın yeganə məxluqlarıdırlar və hamıdan xoşbəxtdirlər. İstəyirəm onları başa salım ki, dünya kimin əlindədir. Sən isə qorxma, qadası! Gəl qabağa. Qorxma, gəl!

Xərçəng bu sözləri deyib yanlarını basa-basa Balaca Balığa tərəf yeridi.

Xərçəng elə gülməli yeriyirdi ki, Balığı ixtiyarsız olaraq gülmək tutdu:

– Ay yazıq, – dedi, – sən heç yeriməyi də bacarmırsan. Haradan bilirsən, dünya kimin əlnndədir?!

Balaca Balıq Xərçəngdən aralandı. Bu zaman suyun üzərinə kölgə düşdü. Gözlənilməz zərbədən Xərçəng səndələyə-səndələyə suyun dibinə batdı. Xərçəngin bu halını görən Kərtənkələni gülmək elə tutdu ki, az qaldı sürüşüb suya düşsün. Xərçəng isə artıq suyun üzünə çıxa bilmədi.

Balaca Balıq gördü ki, suyun kənarında balaca bir çoban dayanıb ona və Xərçəngə tamaşa edir. Qoyun-keçi sürüsü də suya yaxınlaşdı. "Mə-mə! Bə-bə!" səsləri dərəni başına götürdü.

Balaca Balıq sürünü su içib qurtarana qədər gözlədi. Sürü gedəndən sonra Kərtənkələni səsləyib:

– Kərtənkələcan, – dedi, – mən arxın qurtaracağını axtarmağa gedən Balaca Qara Balığam. Sən bilikli, zəkalı heyvansan. Buna görə də səndən bəzi şeylər soruşmaq istəyirəm.

– Xatirin hər nə istəyir, soruş.

– Yolda məni Nərə balıqla, Saqqa quşu ilə, Balıqudan quşla çox qorxudublar. Bunlar haqqında bir şey bilirsənsə, mənə de!

Kərtənkələ dedi:

– Nərə balıqlar və Balıqudanlar bu tərəflərdə tapılmazlar. Xüsusilə Nərə balıqlar. Çünki onlar dənizdə yaşayırlar: Amma Saqqa quşuna elə bu həndəvərdə rast gəlmək olar. Məbada aldanıb kisəsinin içərisinə girəsən.

– Kisə nədir? – Balaca Balıq onun sözünü kəsib soruşdu.

– Saqqa quşunun boğazının altında xeyli sututan kisə var. Bəzən təcrübəsiz, xam balıqlar suda üzən quşun kisəsinə girib birbaşa qarnına gedirlər. Saqqa quşu tox olanda balıqları kisəsində ehtiyat saxlayır.

– Deməli, onun qarnına gedəndən sonra xilas olmaq üçün çarə yolu yoxdur?

– Yoxdur. Kisəni parçalamaqdan başqa heç bir yol yoxdur. Sənə bir xəncər verərəm. Saqqa quşununənginə düşsən, dediyim kimi edərsən.

Kərtənkələ qayadakı yarığa sürünüb xəncərlə qayıtdı. Balaca Balıq xəncəri alıb dedi:

– Kərtənkələ, sən çox mehribansan, bilmirəm, sənə necə təşəkkür edim?!

– Canım, təşəkkür nəyə lazımdır, mənim belə xəncərim çoxdur, sənin kimi ağıllı balıqlara bağışlayıram.

– Məgər məndən qabaq da buradan keçən olub?

– Çoxları keçib. İndi onlar özləri üçün böyük dəstə düzəldiblər...

Kərtənkələ bunları deyib qulağını daşdakı yarığa dayadı:

– Di, sağ ol, – dedi, – balalarım yuxudan ayıldığı üçün getməliyəm.

Kərtənkələ yarığa girdi. Balaca Balıq isə çarəsiz qalıb yola düşdü. Hey öz-özünə sual verirdi: "Doğrudanmı, arx dənizə tökülür? Saqqa quşunun gücü elə mənə çatsın?! Balıqudan quşun bizimlə nə düşmənçiliyi var? ".

Balaca Balıq üzə-üzə gedir və fikirləşirdi. Yolboyu təzə şeylər görür, öyrənirdi. Şəlalənin başı üstə axmasından həzz alır, yenidən üzürdü. Kürəyində günəşin hərarətini hiss edir və möhkəmlənirdi.

O, sonra elə bir yerə çatdı ki, burada dərə enlənir, su isə kolluqların arasından axıb gedirdi. Balaca Balıq suyun çoxalmasından ləzzət alırdı. Xeyli gedəndən sonra o, çoxlu Balığa rast gəldi. Anasından ayrılandan bəri Balıq görməmişdi. Bir neçə Rizə balıq onu dövrəyə aldı və soruşdu:

– Elə bil qəribsiniz?

– Bəli, qəribəm. Uzaq yerdən gəlirəm.

Rizə balıqlar dedilər:

– Hara getmək fikrindəsən?

– Arxın qurtardığı yeri tapmağa gedirəm.

– Hansı arxın?
– İçində üzdüyümüz arxın.
– Biz buna arx yox, çay deyirik.
Qara Balıq heç nə demədi. Rizə balıqlardan biri dilləndi:
– Xəbərin var ki, Saqqa quşu yolu kəsib?
– Xəbərim var. Bilirəm...
Başqa bir Rizə balıq soruşdu:
– Onu da bilirsənmi ki, Saqqa quşunun nə geniş kisəsi var?
– Onu da bilirəm.
– Bunları bilə-bilə yenə getmək fikrindəsən?
– Bəli, bütün bunları bilirəm və getməliyəm.

Balıqlar arasında səs yayıldı ki, uzaq yollardan gəlmiş Balaca Qara Balıq çayın qurtaracağını tapmaq istəyir və Saqqa quşundan da qorxmur.

Rizə balıqlardan bir neçəsi Balaca Qara Balıqla getmək istədi, lakin böyüklərin qorxusundan səslərini çıxarmadılar. Hətta onların bir neçəsi Balaca Qara Balığa yanaşıb qımıldandı.

– Saqqa quşu olmasaydı, biz də səninlə gedərdik...

Çayın qırağında bir kənd var idi. Kəndin qadınları və qızları çayın içində qab-qacaq və paltar yuyurdular. Balaca Balıq onların səs-küyünə bir xeyli qulaq asdı və uşaqların islanmış bədənlərinə tamaşa etdi, sonra yola düzəldi. O qədər getdi ki, axşam oldu. Balaca bir daşın altına girib yatdı. Gecəyarı ayıldı və gördü ki, Ay suya düşüb, hər yeri işıqlandırır.

Balaca Balıq Ayı çox istəyirdi. Gecələr Ay suya düşəndə yuvadan çıxıb onunla bir neçə kəlmə danışmaq həsrətindəydi. Amma hər dəfə anası ayılıb onu yuvasına dartar və yenidən yatırdardı. Bu dəfə Balaca Balıq Ayın qarşısına çıxdı:

– Salam, ey mənim göyçək Ayım!

Ay da Balaca Qara Balığı mehribanlıqla qarşıladı:

– Salam, mənim Balaca Qara Balığım! Sən hara, bura hara?

– Dünyanı səyahətə çıxmışam.

– Dünya çox böyükdür, sən hər yeri gəzə bilməzsən.

– Eybi yoxdur, bacardığım yerə qədər gedəcəyəm.

– Ürəyim çox istəyirdi ki, səhərə qədər yanında qalam, amma böyük bir qara bulud mənə tərəf gəlir. Qorxuram işığımın qabağını kəssin.

– Ey qəşəng Ay, sənin işığını çox sevirəm. Ürəyim istəyir ki, sənin nurun həmişə yoluma işıq saçsın.

– Mənim Balığım, düzünü axtarsan, mənim işığım yoxdur. İşığı mənə Günəş verir, mən də onu yerə saçıram. Heç eşidibsənmi ki, adamlar yaxın gələcəkdə uçmaq, gəlib mənim üzərimə düşmək arzusundadırlar?

– Bu, mümkün deyil!

– Düzdür, bu çox çətin işdir, ancaq insan öz istədiyinə...

Ay sözünü qurtara bilmədi. Qara bulud gəlib onun üzünü örtdü, yerə qaranlıq çökdü. Qara Balıq yenə də tək-tənha qaldı. Bir neçə dəqiqə heyrət içərisində qaranlığa baxdı, sonra daşın altına çəkilib yatdı... Sübh tezdən ayılanda başının üstündə pıçpıçla danışan bir neçə Rizə balıq gördü. Onlar Qara Balığın yuxudan ayıldığını görüb dedilər:

– Sabahın xeyir!

Qara Balıq onları tanıdı:

– Sabahınız xeyir olsun! – dedi. – Nəhayət, ardımca gəlib, mənim dediyim yola düşdünüz?

Rizə balıqlardan biri:

– Bəli, – dedi, – ancaq hələ də qorxu canımızdan çıxmayıb.

Bir başqa balıq:

– Saqqa quşunun fikri bizi rahat buraxmır, – deyə dilləndi.
Balaca Qara Balıq:

– Siz çox fikirləşirsiniz. Hər şeyi fikirləşmək, özü də bir dəfəyə fikirləşmək düz deyil. Yola düşən kimi qorxu bizi tərk edəcəkdir, – deyə cavab verdi.

Birlikdə yola düzəlmək istədilər. Gördülər ki, dövrələrindəki su yuxarı qalxdı, başları üzərinə örtük çəkildi. Hər yer qaranlıqlaşdı, qaçmağa imkan qalmadı. Balaca Qara Balıq o saat başa düşdü ki, Saqqa quşunun kisəsinə düşübdür.

Balaca Qara Balıq dedi:

– Dostlar, biz Saqqa quşunun kisəsinə düşmüşük, lakin xilas olmaq üçün yol var.

Rizə balıqlar ağlayıb ah-zar etməyə başladılar.

– Artıq bizim qaçmağa yolumuz yoxdur! Təqsir səndədir. Bizi yoldan çıxartdın!

– İndi bizim hamımızı "qurt" eləyib udacaq. İşimiz bitdi.

Qorxunc bir qəhqəhə səsi eşidildi. Bu, Saqqa quşu idi, gülürdü və gülə-gülə deyirdi:

– Rizə balıqlar necə də girimə keçib! Ha! Ha! Ha! Ha! Sizin halınıza yanıram, heç ürəyimdən gəlmir, sizi "qurt" eləyib udum. Ha! Ha! Ha! Ha!..

Rizə balıqlar yalvarmağa başladılar:

– Həzrəti-ağayi Saqqa quşu, sənin tərifini çoxdan eşitmişik, lütf edib mübarək dimdiyinizi bir qədər aralasaydınız, buradan xilas olub mübarək vücudunuza duaçı olardıq.

Saqqa quşu dedi:

– Mən hələ bu saat sizi “qurt” eləyib udmaq fikrində deyiləm. Kisəmdə ehtiyat balıqlar var, bir qarnımın altına baxın.

Kisənin aşağı hissəsində iylənmiş bir neçə Rizə balıq var idi.

Rizə balıqlar qorxuya düşüb dedilər:

– Həzrəti-ağayi Saqqa quşu, bizim günahımız yoxdur, bu Balaca Qara Balıq bizi yoldan çıxarıb...

Balaca Balıq:

– Qorxaqlar! – dedi. – Siz elə xəyal edirsiniz ki, yalvarmaqla bu hiyləgər rəhmdillik edib sizi bağışlayacaq?

Rizə balıqlar bir səslə dedilər:

– Heç nə danışdığını da bilmirsən. İndi görərsən ki, həzrəti-ağayi Saqqa quşu bizi necə bağışlayacaq və səni necə “qurt” eləyəcək!

Saqqa quşu dilləndi:

– Doğrudur, sizi bağışlayıram, ancaq bir şərtlə!

– Şərtinizi buyurun, qurban!

–Azadlığınızı bu füzul (çoxbilmiş) balığı öldürməklə əldə edə bilərsiniz.

Balaca Qara Balıq bir qədər kənara çəkilib Rizə balıqlara:

– Qəbul eləməyin, – dedi, – bu hiyləgər bizi bir-birimizin canına salmaq istəyir, mənim başqa planım var...

Rizə balıqlar azadlığa çıxmaq həvəsi ilə Balaca Qara Balığın dediklərinə qulaq asmadılar, qalxıb onun üstünə düşdülər. Balaca Balıq yavaş-yavaş arxaya çəkildi:

– Qorxaqlar! – dedi, – hər halda girə düşmüsünüz, qaçmağa da yolunuz yoxdur. Mənə də ki, gücünüz çatmaz!

– Biz azadlığa çıxmaq istəyirik, onun üçün də səni öldürməliyik!

– Ağlınızı başınıza yığın! Məni öldürsəniz də qaçmaq üçün yol tapa bilməyəcəksiniz. Hiyləgər quşa inanmayın!

– Sən əsla bizim fikrimizi çəkmirsən, bu sözləri öz canını qurtarmaq üçün deyirsən!

– Elə isə, qulaq asın, sizə nicat yolu göstərim. Mən özümü ölümcüllüyə vurub ölü balıqların içərisində gizlənəcəyəm. Görək Saqqa quşu sizi azad edəcəkmi?! Əgər sözümə qulaq asmasanız, bu xəncərlə hamınızı qıraram, quşun da kisəsini parçalayıb çıxaram. Siz isə...

Rizə balıqlardan biri onun sözünü kəsib:

– Daha bəsdir! – dedi, – mən bu sözlərə inanmaq istəmirəm. – O, bu sözləri deyə-deyə ağlamağa başladı.

Balaca Qara Balıq onun ağladığını görüb dedi:

– Bu anasının naz-naz balasını niyə yanınıza salıb gətiribsiniz? – O, xəncərini çıxarıb balıqların üstünə cumdu. Rizə balıqlar çarəsiz qalıb Balaca Balığın təklifini qəbul etdilər. Yalandan bir-birləri ilə dalaşmağa başladılar. Balaca Qara Balıq özünü ölümcüllüyə vurub uzandıqda onlar yuxarı qalxdılar:

– Həzrəti-ağayi Saqqa quşu, – dedilər, – Çoxbilmiş Qara Balığı öldürdük.

Quş güldü:

– Çox yaxşı iş gördünüz, – dedi, – bunun əvəzində sizin hamınızı diri-diri udacağam, qarnımda istədiyiniz qədər gəzərsiniz.

Rizə balıqlar macal tapmamış bir andaca Saqqa quşu onları uddu. Qara Balıq isə cəld xəncərini çəkib möhkəm zərbə ilə quşun kisəsini yırtdı və deşikdən çıxıb qaçdı.

Saqqa quşu aldığı zərbənin ağrısından fəryad qopardı, başını suya salıb Balaca Qara Balığı yenidən tutmaq istədi. Lakin gücü çatmadı...

Günorta idi. Artıq nə dağ görünürdü, nə dərə, çay axıb geniş düzənlikdən keçirdi. Çayın sağ-solundan tökülən kiçik çaylar onun suyunu qat-qat artırırdı. Balaca Qara Balıq suyun çoxluğundan ləzzət alırdı. Birdən ayılıb gördü ki, suyun dibi görünmür. O yan-bu yana baş vurdu, heç yana çıxa bilmədi. Az qala qərq olmuşdu. Ürəyi istədiyi qədər üzəndən sonra da əli bir yana çatmadı. Birdən gördü ki, ağzının qabaq hissəsində mişarvari dişləri olan uzun bir heyvan ildırım sürəti ilə ona hücum edir. Balaca Qara Balıq hiss etdi ki, heyvan bu saat onu parça-parça edəcəkdir. Çapalayıb tez suyun üzərinə qalxdı. Bir müddətdən sonra suyun altına endi. Yolun yarısında minlərlə Balıq dəstəsinə rast gəldi. Onlardan birini saxlayıb soruşdu:

– Qardaş, qəribəm, uzaq-uzaq yerlərdən gəlirəm. Deyin görüm bura haradır?

O dönüb Balaca Qara Balığa dedi: – Qardaş, bizim dənizə xoş gəlibsən!

Balıqlardan biri dedi:

– Bütün çaylar və arxlar bura tökülür.

Balıqlardan biri isə:

– İndi get bir az gəz. Suyun üzünə çıxmaq istəsən, Balıqudandan ehtiyatlı ol. Bu günlər o heç kəsdən qorxmur. Hər gün dörd-beş balıq ovlamasa, yaxamızdan əl çəkmir, – dedi.

Balaca Qara Balıq dəniz balıqlarının dəstəsindən aralanıb təklikdə üzməyə başladı. Az sonra dənizin üzünə çıxdı. İndi o, qızmar günəşin yandırıcı hərarətini öz kürəyində hiss edir, bundan ləzzət alırdı. Aramla üzür, öz-özünə deyirdi. "Bu saat ölüm

çox asanlıqla mənim sorağıma düşə bilər. Yaşamağa qadir olduğum halda onu özümə yaxın buraxmamalıyam".

Balaca Qara Balıq fikir və düşüncələrini sona çatdıra bilmədi. Balıqudan gəldi, onu götürüb apardı. Balaca Balıq Balıqudanın uzun dimdikləri arasında çabalasa da özünü xilas edə bilmirdi. Balıqudan dimdiyi ilə onun belini elə bərk sıxırdı ki, az qala canı çıxacaqdı. Digər tərəfdən də Balaca Qara Balıq sudan qıraqda nə qədər sağ qala bilərdi? Ölümün qabağını almaq üçün lap Balıqudanın qarnına getməyinə razı idi, axı, oradakı nəmişlikdən istifadə edə bilərdi. Buna görə Balıqudana dedi:

– Nə üçün məni sağ-sağ udmursan? Mən o balıqlardanam ki, öləndən sonra bütün bədənim zəhərə dönür.

Balıqudan heç nə deməyib fikrə getdi:

– Ay hoqqabaz, – dedi, – istəyirsən, məni dilləndirib aradan çıxasan?

Sahil getdikcə yaxınlaşırdı. Balaca Qara Balıq: "Quruya çatsaq, daha iş bitdi", – deyə öz-özünə düşündu və nəhayət, Balıqudana dedi:

– Bilirəm, məni balaların üçün aparırsan. Amma, sahilə çatana qədər öləcəyəm, bədənim zəhər kisəsinə dönəcək, balalarına niyə rəhmin gəlmir?!

Balıqudan bir anlıq fikrə getdi: "Ehtiyat yaxşı şeydir. Hər ehtimala qarşı onu özüm yeyim, balalarım üçün isə başqa balıq tutum... Birdən bu, bir kələk işlədə bilər... Yox, canım heç bir kələk işlədə bilməz". Sonra gördü ki, Qara Balıq susalıb candan düşür. Öz-özünə dedi:

"Deyəsən, öldü, artıq onu özüm də yeyə bilmərəm". Zərif və yumşaq balığı yeməkdən ehtiyat elədi. Ancaq yenə Qara Balığı səsləyib ölüb-ölmədiyini müəyyən etmək istədi. Düşündü ki,

yarımcandırsa, yesin, ölübsə... Dimdiklərini aralayan kimi Qara Balıq onun ağzından xilas oldu. Balıqudan aldandığını görüb, Balaca Qara Balığı təqib etdi. Balaca Qara Balıq havada ildırım kimi şığıyıb aşağı düşür, ağzını açıb dənizin rütubətli havasını udurdu. Nəhayət, suya düşdu. Köksünə yeni nəfəs doldu. Balıqudan da ildırım sürəti ilə şığıyıb onun arxasınca suya baş vurdu, aman verməyib yenə də Balığı uddu. Balaca Qara Balıq bir xeyli başına nə gəldiyini hiss etmədi. Bircə onu hiss etdi ki, hər yer qaranlıq və rütubətlidir, çıxış yolu isə yoxdur. Elə ki, gözləri qaranlığa alışdı, ağlayıb anasını istəyən bir Rizə balıq gördü. Yaxınlaşıb ona nəsihət verdi:

– Qalx ayağa, ay balaca! Başına çarə qılmaq haqqında fikirləş, ağlamaqdan, ananı çağırmaqdan bir şey çıxmaz.

Rizə balıq soruşdu:

– Sən kimsən? Məgər görmürsən, get-gedə məhv oluram? Ana... Ay ana, haradasan, imdadıma çat! Daha mən səni görə bilməyəcəyəm, ana!

Balaca Qara Balıq:

– Daha bəsdir, canım, – dedi, – sən bütün balıqları rüsvay elədin...

Rizə balıq ağlamağına ara verən kimi, Balaca Qara Balıq dedi:

– Mən Balıqudanı öldürüb bütün balıqları azad eləmək fikrindəyəm. Səni onun qarnından xilas edəndən sonra bunu həyata keçirmək istəyirəm.

– Sən özün ölümlə əlbəyaxasan, Balıqudanı necə öldürə bilərsən?

Balaca Qara Balıq xəncəri göstərib dedi:

– Bununla onun qarnını cıracağam. Hələlik mənə qulaq as, gör nə deyirəm. Mən Balıqudanın qarnında o tərəf-bu tərəfə

gedib onun əsəbləri ilə oynayacağam. Bu zaman o, məni məsxərəyə qoyub başlayacaq qəhqəh çəkib gülməyə, elə ki dimdiklərini açıb gülməyə başladı, cəld özünü bayıra at.

– Bəs sən?

– Mənim fikrimi çəkmə. Bu bədcinsi öldürməmiş bayıra çıxası deyiləm.

Balaca Qara Balıq bu sözləri deyib Balıqudanın qarnında o tərəf-bu tərəfə var-gəl etməyə başladı. Rizə balıq isə Balıqudanın mədəsinin ağzında hazır dayandı. Balıqudan ağzını açıb qəhqəhə ilə gülməyə başlayanda, Rizə balıq onun ağzından bayıra atıldı və suya düşdü. Çox gözlədi, xilaskarından xəbər çıxmadı. Birdən gördü ki, Balıqudan havada mayallaq vurub fəryad qoparır... Nəhayət, o, müvazinətini itirib tappıltı ilə suya düşdü, yenə bir qədər çabalayandan sonra taqətdən düşdü. Lakin Balaca Qara Balıqdan yenə də xəbər çıxmadı və indiyə qədər də bir səs-soraq yoxdur.

Burada Qoca Balıq nağılını bitirdi. Üzünü on bir min doqquz yüz doxsan doqquz nəvə və nəticəsinə tutub dedi:

– Daha yatmaq vaxtıdır, balalarım, gedin yatın!

Nəvə-nəticələri ondan soruşdular:

– Nənəcan, axı, sən Rizə balığın başına sonra nələr gəldiyini demədin?

Qoca Balıq dedi:

– O da sabahkı gecəyə qalsın, balalarım. Artıq yatmaq vaxtıdır. Gecəniz xeyrə qalsın!

On bir min doqquz yüz doxsan doqquz bala Balıq bir ağızdan: – Gecəniz xeyrə qalsın! – dedi və yatmağa getdi. Nənəni də yuxu apardı. Balaca Qızıl Balıq isə nə qədər çalışdısa yata bilmədi. Sübhədək dəniz barədə fikirləşdi...

# Bir hulu[1], min hulu

Susuz, yoxsul bir kəndin qırağında böyuk və abad bir bağ vardı. Bağ su sarıdan korluq çəkmirdi, müxtəlif meyvə ağacları ilə də zəngindi. O qədər uca, qollu-budaqlı ağacları var idi ki, bağın bu başından baxsaydın, o başını görə bilməzdin.

Bir neçə il əvvəl kəndin ərbabı torpaqları hissə-hissə bölüb kəndlilərə satdı, bağı özü üçün saxladı. Satılmış yerlər dərə-təpəlik, barsız-bəhrəsizdi, hətta suyu da yox idi. Dərə boyu uzanan düzənlikdə ərbabın bağı yerləşirdi. Kəndlilər aldıqları torpaqda dəmyə arpa-buğda əkirdilər. Xülasə, bunların üstündən keçək, yoxsa mətləbdən uzaq düşərik.

Bağda iki hulu ağacı bitmişdi. Biri o birindən həm balaca, həm də cavan idi. Hər ağacın yarpaqları, çiçəkləri bir-birinə oxşayırdı. Elə ilk görüşdə hamı bunların bir cinsdən olduğunu ayırd edirdi. Böyük ağac peyvənd olunmuşdu. Hər il yekə və gözəl hulular gətirirdi. Elə hulular ki, ovuca zorla yerləşirdi. Adamın dişləyib yeməyə heyfi gəlirdi. Bağbanın dediyinə görə həmin ağacı bir əcnəbi mühəndis peyvənd eləmişdi; peyvəndi də elə öz ölkəsindən gətirmişdi.

Məlumdur ki, belə xərc çəkilmiş bir ağacın hulusunun qiyməti də baha olmalı idi. Hər iki ağacın gövdəsindən asılmış

---

[1]Hulu — şaftalı

taxta parçası üzərində bu sözlər yazılmışdı: "Və in yəkad". Bunu, guya ağaclar nəzərə gəlməsin deyə asmışdılar.

Balaca hulu mindən çox çiçək açsa da, bir dənə də olsun meyvə yetirmirdi: ya çiçəklərini tökür, ya da huluları kal vaxtı saralıb tökülürdü. Bağban əlindən gələni edirdisə də heç bir nəticə hasil olmurdu. Qol-budağı ildən-ilə artırdı. Amma dərman üçün də bar vermirdi.

Bir gün bağbanın fikrinə gəldi ki, balaca ağaca peyvənd vursun; vurdu da, yenə bir şey çıxmadı. Nəhayət, bağban qəzəbindən əvvəlcə ağacı qorxutmaq qərarına gəldi. Mişar gətirdi, arvadını çağırdı, balaca hulu ağacının yanında başladı mişarın dişlərini itiləməyə. Elə ki, mişar əməlli-başlı itiləndi, bağban bir qədər geri çəkilib dedi:

– Bu saat sənin qol-budağının bir neçəsini kəsəcəyəm ki, ağıllanasan, hulularını bir daha yerə tökməyəsən.

Bağban balaca hulu ağacına çatmamış arvadı onu haqladı və əlini tutub:

– A kişi, – dedi, – sən mənim canım, əl saxla! Mən sənə söz verirəm ki, gələn ildən hulularını saxlayıb böyüdəcək. Yenə tənbəllik eləsə, birlikdə başını kəsib qoyarıq yerə, doğrayıb atarıq təndirə, yanıb kül olar.

Hədə-qorxu da ağacın halına təfavüt eləmədi.

Yəqin hamınız bilmək istəyirsiniz ki, balaca hulu ağacının dərdi nə imiş, hulularını nə üçün yetişdirmirmiş? Çox gözəl! Bundan sonra başlayacağımız hekayət də elə həmin bu suala cavab verəcəkdir.

Qulaq asın!

Səs salmayın! Balaca hulu ağacının söhbətinə diqqətlə qulaq asın. Görək balaca hulu ağacı nə deyir. Deyəsən, öz sərgüzəştini danışmağa başlayır. Bəli, danışmağa başlayır:

– Biz, yüz-yüz əllidən çox idik. Səbətin içərisindəydik. Bağban səbətin altına, yan-yörəsinə və üstünə yarpaqlarımızdan düzmüşdü ki, günəş zərif qabığımızı yandırmasın, qırmızı yanaqlarımıza toz-torpaq qonmasın. Fəqət, yarpaqların arasından süzülən mavi işıq səbətə daxil olub qırmızı yanaqlarımıza toxunurdu. Bağban bizi lap sübh tezdən, günəş doğmamışdan dərmişdi. Buna görə bədənimizdə sərinlik və rütubət qalmışdı. Payız axşamlarının soyuğu canımızdan çıxmamışdı. Azacıq hərarət göy yarpaqlardan süzülüb bədənimizə toxunduqca xoşallanırdıq.

Əlbəttə, biz hamımız bir ağacın övladları idik və hər ilin bu vaxtı bağban bizi dərib səbətə doldurar, şəhərə aparardı. Ərbabın qapısını döyüb, səbəti ona verər və kəndə dönərdi. Lap elə indi olduğu kimi.

Onu da deyim ki, biz yüz-yüz əllidən artıq yetişmiş, sulu meyvə idik. İndi isə, qoyun özümdən danışım: şirin və ləzzətli şirədən incəlmiş qabığım partlamaq istəyirdi, yanaqlarıma o qədər qızartı çökmüşdü ki, görən elə bilirdi çılpaqlığımdan utandığım üçün qızarmışam. İri və bərk çəyirdəyim yaşamağa can atırdı. Xülasə, bağban məni lap səbətin üstündə qoymuşdu ki, elə ilk görünüşdən nəzəri cəlb edim... Şübhə yoxdur ki, ərbabın evinə çatan kimi onun bircəsi olan qızına qismət olacaqdım. Ərbabın qızı da yanağımdan bir dişləm götürdükdən sonra məni kənara tullayacaqdı. Axı, ərbab evi Sahibəlinin və ya

Poladın evi deyildi ki, bir dənə də olsun xiyar, ərik və hulu görməmiş olaydılar.

Nə isə, mətləbdən uzaq düşməyək.

Bağban əlində səbət bağın ortasındakı cığırla gedirdi. Birdən ayağının altındakı siçan yuvalarından biri uçuldu, az qaldı yıxılsın. Özünü saxladı. Səbət də bərk silkələndi. Mən yerimdən tərpənib torpağa düşdüm. Bağban məni görməyib keçib getdi. Artıq günəş şüaları bağın hər tərəfinə yayılmışdı. Torpaq hələ qızmasa da, göydən isti yağırdı. İsti yavaş-yavaş qabığımdan ətimə keçdi. Canımdakı şirə də qızışdı. İsti çəyirdəyimə qədər işlədi. Mənə elə gəldi ki, susuzlayıram. Anamın yanında olanda susuzlayanda ondan doyunca su içirdim; günəşə baxırdım ki, üzərimə düşüb məni daha çox qızdırsın. Günəş üzərimə düşüb yanaqlarımı qızdırdıqca anamdan su əmir, qidalanırdım. Bu zaman bədənimdəki şirə cuşa gəlir, günbəgün böyüyürdüm, böyüdükcə də gözəlləşir, daha sulu olurdum. Üzümün damarlarında qırmızı qan çoxaldıqca ağırlaşır və anamın qol-budağını əyir, özümü güclə saxlayırdım.

Bu zaman anam mənə baxıb deyirdi:

– Mənim göyçək qızım, üzünü heç vaxt günəşdən gizlətmə. Günəş bizim dostumuzdur. Torpaq bizə qida verirsə, onu günəş bişirir. Səndə olan gözəlliyin çoxu günəşdəndir. Bir bax, o meyvələr ki, günəşdən gizlənir, sapsarı saralıb sısqalaşırlar. Göyçək qızım, əgər bir gün günəş yerdən küsüb ona işıq verməsə, yerdə bir dənə də olsun canlı qalmaz. Nə bitki, nə heyvan!

Elə buna görə də bacardığım qədər bədənimi günəşə verib onun hərarətini özümə çəkirdim. Bu səbəbdən də gündən-günə böyüyüb, qüvvələnirdim. Həmişə özümdən soruşurdum: "Kimsə

bir gün günəşi incitsə, o da bizdən küssə, nə edərik?" Anam yarpaqları ilə yanağıma qonmuş zərif tozu silib deyərdi:

– Sən nələr fikirləşirsən? Görünür, çox ağıllı qızsan, mənim əziz balam! Mən inanıram ki, günəş xanım bir neçə mərdimazar və xudpəsəndə görə bizdən küsməz. Amma bir gün onun hərarəti və nuru qurtara bilər. Onda gərək başqa bir günəş haqqında fikirləşək. Belə olmasa, qaranlıqda qalar, şaxtadan buz bağlayıb donarıq.

Heç özüm də bilmirəm, söhbətimizin harasında qaldım. Deyəsən, yadıma düşdü. Hə, onu deyirdim ki, isti çəyirdəyimə işlədi və bərk susuzladım. Bir azdan bədənimdəki şirə cuşa gəldi, qabığım qurumağa və çatlamağa başladı. Atlı qarışqa qaça-qaça mənə yaxınlaşıb ətrafımda fırlanmağa başladı.

Onu da deyim ki, səbətdən yerə düşəndə qabığım bir yerdən partlamışdı və bədənimdən axan şirə yanağıma süzülmüşdü. Özü də günəşin hərarətindən bərkimişdi. Atlı qarışqa xortumlarını şirəmə batırıb çıxartdı, bir müddət xortumlarına baxıb onları yenidən işə saldı. Buynuzlarını dümdüz elədi, ayaqlarını yerə bərk dayayıb, şirəmi çəkməyə elə girişdi ki, az qala indicə xortumları yerindən çıxacaqdı. O, bir az da güc gəldi. Qurumuş şirəmdən bir neçə tikə qoparıb sevincək halda qaça-qaça məndən uzaqlaşdı. Elə bu zaman qulağıma səs gəldi. İki nəfər divardan aşıb bağa düşdü və qaça-qaça mənə yaxınlaşdı; Sahibəli ilə Polad idi. Bağdakı meyvələrdən yeyib qarınlarını doydurmağa gəlmişdilər. Onlar qaça-qaça gəlib mənim üzərimdən atıldılar, sonra anama tərəf getdilər. Bir azdan kor-peşman qayıtdılar, ovqatları yaman təlx idi. Danışıqlarından başa düşdüm ki, bağbanın əlindən yaman yanıqlıdırlar.

Polad deyirdi:

– Gördün? Bu bağın da axırı. Meyvələrdən bir dənəsi də bizə qismət olmadı.

Sahibəli:

– Axı, nə edə bilərdik? Bir aydan çoxdur bağban əlində tüfəng ağacın dibindən bir addım da qırağa çəkilmir, – dedi.

Polad:

– Lənətə gəlmiş hətta bir dənə də olsun qoymayib qalsın. Ax... O sulu hululardan bir bütövünü necə təpərdim ağzıma! Yadına gəlirmi, keçən il nə qədər hulu yedik? – dedi.

Sahibəli narazılıqla dilləndi:

– Elə bil biz adam deyilik. Hər şeyi bir-bir dərib ərbaba verir, o da ki, zay eləyir. Bütün günahlar bizim özümüzdədir; əlimizi-əlimizin üstünə qoyub otururuq, o da kəndi çapır.

– Bilirsən, Sahibəli, ya bu bağ kəndin olmalıdır, ya da od vurub bağın bütün ağaclarını yandıracağam.

– Odu ikilikdə vurarıq.

– Od vurmasaq, kişi deyilik!

Uşaqlar elə əsəbləşmişdilər ki... bilirsən ayaqlarını yerə necə döyürdülər?! Qorxdum ki, birdən məni ayaqlayarlar. Xoşbəxtlikdən ayaqlamadılar. Mənim lap yanımda Poladın ayağına tikan batdı. Əyilib çıxarmaq istəyəndə gözü mənə sataşdı, dərhal tikanı yaddan çıxartdı. Məni yerdən götürüb:

– Gədə, Sahibəli, – dedi, – bura bax!

Uşaqlar məni bir-birilərinə verib sevinirdilər.

Məni birdən-birə yemək istəmirdilər, çünki çox istiləşmişdim. Özüm də istəyirdim məni sərinlədib sonra yesinlər. Qabarlı və kələ-kötür əlləri qabığımı didsə də, mən bundan incimir, ək-

sinə sevinirdim. Çünki məni axıra qədər ləzzətlə yeyəcəkdilər və yeyəndən sonra, hətta dodaqlarını da yalayacaq, barmaqlarını da soracaqdılar; günlərlə, həftələrlə dadım damaqlarında qalacaqdı!

– Polad, indiyə qədər belə yekə hulu görməmişdik!

– Doğrudan da, görməmişdik!

– Gedək hovuzun qırağına. Orada sərinlədib yeyək.

Məni elə ehtiyatla aparırdılar ki, elə bil bu saat əllərindən düşüb sınacaqdım. Hovuzun qırağı sərin və kölgəli idi. Söyüd ağacları buraya elə sərin kölgə salmışdı ki, ilk anda sərinliyi çəyirdəyimdə belə hiss etdim. Məni ehtiyatla hovuza axar suya qoydular. Qabarlı əlləri ilə suyun qabağını kəsdilər ki, axıb hovuza düşməyim. Su lap buz kimi idi. Bir az keçəndən sonra Polad ilə Sahibəli söhbətə başladılar:

– Sahibəli!

– Bəli!

– Deyirəm, bu hulunun çox böyük qiyməti var, ha?

– Əlbəttə!

– Əlbəttə də söz oldu? Əgər bilirsənsə, de görək nə qədər qiyməti var?

– Çox böyük qiyməti var.

– Məsələn, nə qədər?

– Lap sərinlətsək, belə lap sərinlətsək, min tümən!

– Pul görməmisən, elə bilirsən min də puldur...

– Bəs de görək nə qədərdir?

– Yüz tümən.

– Balam, min ki, yüzdən çoxdur.

– Mən özümdən düzəltmirəm, atamdan eşitmişəm.

– Əgər belədirsə, onda hər ikisi bir şeydir, mən də özümdən düzəltmirəm, atamdan eşitmişəm.

Polad əli ilə məni yavaşca yoxladı.

– Əllərim dondu. Deyəsən, yeməli olub.

Sahibəli də məni ehtiyatla yoxlayıb:

– Lap buz kimidir, – dedi.

Məni sudan çıxartdılar. O dəqiqə istilik hiss etdim. İstəyirdim ki, məni tez yesinlər. Günəşdən və anamdan topladığım bütün qüvvəmi bu iki kəndli balasına vermək istəyirdim .

Polad ilə Sahibəli məni yemək qərarına gələrkən fikirləşdim ki, gör ömrümdə neçə dəfə şəkildən-şəklə düşürəm, hələ neçə dəfə də düşəcəyəm. Öz-özümə deyirdim: "Bir gün bədənimin zərrələri torpaq, su və nurdan ibarət idi, anam onları yerdən sorub budaqlarının ucuna qədər çatdırırdı. Sonralar anam qönçələndi, gül açdı və yavaş-yavaş mən əmələ gəldim. Bədənimin bütün zərrələrini yavaş-yavaş anamın bədənindən çəkib günəşin nuruna qatdım. Bundan sonra çəyirdəyim, qabığım, ətim əmələ gəldi və yetişmiş sulu hulu oldum. İndi isə Polad ilə Sahibəli məni yeyirlər. Yəqin ki, mənim bədənimin zərrələri onların ətlərinə, tük və sümüklərinə çevriləcəkdir. Əlbəttə, bir gün onlar da öləcəklər. Onda mənim bədənimin zərrələri nə olacaq?.." Xülasə, uşaqlar məni yemək qərarına gəldilər. Sahibəli məni Polada verib dedi:

– Bir dişləm vur.

O, bir dişləm vurub məni Sahibəliyə qaytardı. Dodaqlarını yaladı. Bayaq dediyim kimi, ağızlarını ləzzətə gətirmişdim. Bədənimin əti qurtarmaq üzrə idi. Çərdəyim isə yeni həyat haqqında fikirləşirdi, tədbir arayırdım ki, nə vaxt və nə cür etsin

ki, bir daha cücərə bilsin. Axı, mən eyni vaxtda həm ölür, həm də yaşamaq istəyirdim.

Polad məni son dəfə ağzına apardı, bədənimin son ətini sordu. Ağızından çıxaranda mən hulu deyildim, içərisində yaşamaq istəyən tum gizlətmiş kələ-kötür və möhkəm qabıqlı çəyirdək idim. Çəyirdəyimin partlayıb cücərməsi üçün rütubətli torpağa ehtiyac hiss edirdim.

Uşaqlar barmaqlarını və dodaqlarını bir neçə dəfə yaladıqdan sonra Sahibəli dedi:

– İndi neyləyək?

– Suya düşək, çimək. Sonra çəyirdəyi sındırıb tumunu yeyərik.

– Tum üçün özgə planım var, qoy hələ qalsın.

Polad məni söyüdün dibinə qoydu, sonra dal-dalı çəkilib ayaqlarını qolları ilə qucaqlayıb arxası üstə özünü suya atdı. Bir dəfə batıb çıxdı. Bulanıq su boğazına qədər idi. Başına, qollarına və qulaqlarına su otları yapışmışdı.

Sahibəli dedi:

– Polad, üzünü o yana çevir.

Polad soruşdu:

– Lüt çimmək istəyirsən?

– Hə, istəyirəm çimdiyimi atam bilməsin. Bilsə məni döyər.

– Evə qayıtmağımıza hələ çox var.

– Məgər başımızın üstündə günəşi görmürsən?

Polad daha heç nə demədi, üzünü yana çevirən kimi Sahibəli özünü suya atdı. Birlikdə üzməyə, suya baş vurmağa, bir-birinin üstünə su atmağa başladılar.

Birdən hər ikisi eyni vaxtda dilləndi:

– Gədə, gecikdik!

Sudan çıxdılar. Polad şalvarını bir neçə dəfə sıxdı. Məni də söyüd ağacının dibindən götürdülər və divardan aşıb getdilər.

Kənd evləri ərbabın bağından xeyli aralıda idi. Polad dostuna dedi:

– Bura bax, sən bayaq dedin ki, çəyirdək üçün planım var?

– Kölgə düşən kimi gəlib səni çağıraram, gedib təpənin üstündə oturarıq, onda planımı sənə danışaram.

Kəndin dar küçələri xəlvət idi. Peyin iyi və milçək aləmi bürümüşdü. Yekə bir it divarın üstündən düz qabağımıza düşdü. Polad əlini itin başına, üzünə çəkib həyətlərinə girdi, it də onun dalınca getdi.

Sahibəligilin evi Poladgilinkindən o qədər də uzaq deyildi. Məni ovcunda bərk-bərk sıxıb damların üstündən öz həyətlərinə atıldı. Bu zaman dizə qədər anasının divar dibinə tökdüyü yumşaq peyinə batdı. Anası səs gələn kimi başını qapıdan çıxardı:

Sahibəli, – dedi, – tez ol, atana bir az sudan, çörəkdən apar!

Sahibəli məni tövləyə apardı, küncə tökülmüş peyinin içərisində gizlətdi. Qaranlıqda peyinin iyindən başqa heç nə hiss etmirdim. Orada neçə saat qaldığımı bilmirəm. Ancaq peyinin tünd iyi az qalmışdı məni boğsun. Nəhayət, hiss etdim ki, peyini üstümdən götürdülər. Bu, Sahibəli idi. Məni çıxartdı, əli ilə bir-iki dəfə sildi, sonra şalvarının balağına çəkib tamamilə təmizlədi. Gəldiyimiz yolla qayıdıb Poladgilin evlərinin damına çatdıq. Poladın anası ilə bacısı damın dalında yapba yapır və divara yapılmış quru yapbaları qoparıb bir-birinin üstünə yığan qonşu arvadla söhbət edirdilər.

Sahibəli Poladın haraya getdiyini soruşdu, Poladın anası dedi:

– Polad keçisini otarmağa aparıb.

Poladı təpənin başında tapdıq. O, qara keçisini otlağa buraxmışdı, özü isə iti ilə birlikdə oturub bizi gözləyirdi. Birdən nəzərlərimi Sahibəli ilə Poladın dərilərinin rəngi cəlb etdi. Günün qabağında o qədər çılpaq gəzmişdilər ki, qapqara qaralmışdılar.

Polad səbri tükənmiş halda soruşdu:

– Yaxşı, planını de görək!

Sahibəli soruşdu:

– İstəyirsənmi ki, sənin də hulu ağacın olsun?

– Dəli olmuşam ki, istəməyim?!

– Elə isə gedək.

–Bəs keçi?

– Ötürərik evə.

– Anam tapşırıb ki, gün batana qədər otarım.

– Onda itin yanında qoyarıq.

Polad əlini itin üz-gözünə çəkdi:

— Mən qayıdana qədər, – dedi, – keçinin yanında olarsan, yaxşı?

Biz üçümüz də qaça-qaça gəlib bağın divarına çatdıq.

Sahibəli dedi:

— Polad, qalx yuxarı!

Polad dilləndi:

– Daha planını gizlədə bilməzsən. Özüm başa duşdüm. Deməli, hulumuzun çəyirdəyini əkəcəyik .

– Elədir ki var. Çəyirdəyi yumşaq bir yerdə əkərik. Bir neçə ildən sonra bizim də hulu ağacımız olar. Özün yaxşı bilirsən ki, nə üçün başqa yerdə əkirik.

– Əlbəttə, bilirəm; təpənin başında, damların arasında hulu ağacı bitməz. Hər şeydən əvvəl yumşaq torpaq, çoxlu su lazımdır ki, ağac əmələ gəlsin.

Sahibəli zarafatla: – Daha çərənləmə, tez elə, mən gedim bağın o başına, görüm bağban qayıtmayıb ki? – dedi.

Bağban şəhərdən hələ qayıtmamışdı. Poladla Sahibəli bağın xəlvət bir guşəsində torpağı qazıb məni basdırdılar. Sonra əllərini üstümdəki torpağa çəkib getdilər.

Qaranlıq və rütubətli torpaq məni ağuşuna alıb sıxdı. Əlbəttə, mən hələ cücərə bilməzdim. Cücərmək üçün hər şeydən əvvəl müəyyən qədər vaxt lazım idi. Bir neçə vaxtdan sonra torpağın altına keçməkdə olan soyuqdan artıq qışın gəldiyini və yerin üstünü qar örtdüyünü başa düşdüm. Torpaq mənim yaxınlığıma qədər donmuşdu. Ancaq torpağın altında donmamaq, uşüməmək üçün kifayət qədər istilik var idi.

Beləliklə, mən hərəkətdən və qaynardan düşdüm, torpağın altında xoş və şirin yuxuya getdim ki, yazda daha hazırlıqlı və daha qüvvətli ayılım, cücərim, torpaqdan çıxıb Polad ilə Sahibəli üçün çoxmeyvəli ağac olum. Elə ağac ki, onun huluları mənə baxanda öz gözəlliyindən utanan qızların qızarmış yanağına oxşasın, sulu və iri olsun. Qışda gördüyüm yuxulardan yadımda bir şey qalmayıb. Ancaq o yadımdadır ki, bir dəfə yuxuda gördüm ki, yekə ağac olmuşam. Polad və Sahibəli mənə dırmaşıb budaqlarımı silkələyirlər. Ağacın ətrafına toplaşan çılpaq kəndli uşaqları yerə tökülən huluları götürüb ləzzətlə yeyirlər.

Ağızlarının suyu sinələrinə tökülür, çılpaq qarınlarını və hətta göbəklərini də isladır. Bir keçəl uşaq Poladı səsləyib soruşur:

– Polad, heç demədin yediyimizin adı nədir? Axı, mən istəyirəm, evə dönəndə nə yediyimi anama söyləyim. Özü də çox yeməyimə baxmayaraq, doymamışam.

Dövrəmdə lap balaca iki uşaq da vardı. Onların əynində heç nə yox idi. Ətraflarında uçan milçəklər üz-gözlərinə, ağız-burunlarına qonurdu. Uşaqlar əllərinə hərəsi yekə bir hulu götürüb ləzzətlə dişdəm vurur, bəh-bəhlə yeyirdilər.

Bax bu, gördüyüm yuxulardan biri idi. Lap son dəfə badamgülünü yuxuda gördüm. Bihuş halda uzanmışdım. Bu an xəfif bir səs ucaldı. Səslə birlikdə mənə çox tanış olan ətrin torpağın altına daxil olduğunu hiss etdim. Səs dedi:

– Badamgülü, ətrini göyçək hulunun üzünə sürt. Əgər yenə də ayılmasa, əllərini üzündə, bədənində gəzdir ki, gülün iyini yaxşı duysun. Bacardıqca tez ayılt. Çünki cücərmək, böyümək vaxtıdır. Axı, bütün çəyirdəklər cücərməyə başlayıblar.

Üzümə və bədənimə toxunan badamgülünün ətri o qədər xoş idi ki, həmişə bihuş qalmaq istəyirdim. Amma olmadı. Ayıldım. Özümü yenə də bihuşluğa vurmaq istəyirdim ki, badamgülü dedi:

– Daha naz eləmə. Sən öz bəxtində diri toxum saxlamısan və belə qərara gəlmisən ki, cücərəsən, böyük ağac olasan, meyvə gətirəsən. Elə deyilmi?

Badamgülü gözəl gəlinlərə oxşayırdı. Elə bil təmiz və ağappaq qardan paltar geymişdi, dodaqlarına da gül ətri sürtmüşdü. Əlbəttə, mən hələ qar görməmişdim. Onun haqqında hulu olanda anamdan eşitmişdim. Badamgülünün məndən

qabaq kiminlə həmsöhbət olduğunu, yanıma kim tərəfindən göndərildiyini öyrənmək istəyirdim ki, qollarını boynuma doladı, üzümdən öpüb gülə-gülə dedi:

– Nə iri vücudun var! Qollarımın arasına da sığışmırsan. – Sonra əlavə etdi: – Bahar da burada idi. Dedi ki, cücərmək, böyümək vaxtıdır.

Baharın adını eşidən kimi elə bil yuxudaydım, ayıldım. Fikirləşdim ki, bahar gəlib-gedib, mən isə hələ qabığımı partlatmamışam.

Pərişan halda yuxudan ayılıb dik atıldım.

İki gündən sonra günəşin çıxmasına tamaşa etməyi qərara almışdım. Bədənimdən yeni bir rişə çıxıb irəliyə sürünərək uzanırdı.

Çoxlu su içmişdim. Ona görə də şişdim. Qabığım partladı. Bu zaman milə oxşayan rişəmi partlamış qabağımdan kənara uzatdım və torpağa daxil etdim ki, böyük köküm olsun, üzərində dayanıb inkişaf edə bilim. Sonra cücərtimi özümdən kənara göndərib dedim ki, başını əysin, üzüyuxarı qalxıb torpağı yarsın və gedib günəşi tapsın.

Boğulmamaq üçün hava da yığmışdım. Bayırın istisi də torpağın altına süzülürdü. Bu zaman artıq öz içərimdə inkişaf edib varlığımı dəyişərək başqa bir şeyə çevrilmişdim. Ağac olmaq üçün böyüməli, çox iş görməli idim...

Qoz boyda bir daş qarşımı kəsərək yuxarı qalxmağa imkan vermirdi. Onu deşib keçə bilməyəcəyimi yəqin etdikdən sonra dövrə vurub yanından ötdüm və yuxarı qalxdım. Yuxarı qalxdıqca günəşin hərarətini daha çox hiss edir və ona doğru can atırdım. Yer üzərinə çıxmış otların kökləri arasında hərəkət edirdim. Nəhayət, başımın üzərindəki nazik torpaq qatını

partlatdım. Məni qarşılamağa çıxan hərarəti, işığı gördüm. Artıq mən torpağın üzərinə çıxmışdım. Elə bir torpağın ki, anamın və həyatda olan bütün canlıların anasıdır.

Başdan-ayağa ağ çiçəyə bürünmüş badam ağacı günəşin işıqları altında bərq vururdu. Onun görkəmi məni valeh etdi, sevindirdi. Salam verdim. Badam ağacı dərhal dilləndi:

– Salam, mənim ayüzlüm! Bu dünyaya xoş gəlmisən!

Polad ilə Sahibəli sorağıma gələndə yaşıl yarpağım vardı... Onlar məni görcək sevindilər. Hər ikisi birlikdə: "Bu ağac bizim öz ağacımızdır! " – dedilər. Arxdan bir neçə ovuç su gətirib mənim dibimə tökdülər. Sonra çıxıb getdilər...

Yay girəndə boyum bir xeyli uzanmışdı. Budaqlarım isə hələ yox idi. Polad ilə Sahibəli tez-tez yanıma gəlirdilər. Yanımda xeyli oturub mənim gələcəyimdən, özlərinin planlarından danışırdılar. Bir gün başını çomaqla əzib öldürdükləri qırmızımtıl, parıldayan bir ilanı mənim yarım metrliyimdə qazdıqları torpağa basdırdılar.

Polad əllərini ovuşdura-ovuşdura dedi:

– Əcəb!.. Kefi kök olacaq!

Sahibəli isə:

– Bilirsən, – dedi, – bir ilan ölüsü, çoxlu gübrəyə və peyinə bərabərdir.

Polad dedi:

– Belə güman edirəm ki, gələn il bunun nübarını yeyə bilərik.

– Nə bilim... Bizim ki, bu vaxta qədər ağacımız olmayıb.

– Mən eşitmişəm ki, hulu və şaftalı ağacları, adətən, tez bar verir.

Polad düz deyirdi. Mən özüm də bunu bilirdim. Anam iki illiyində iki hulu yetirmişdi. Fikirləşirdim, görəsən hulularım böyüyəndən sonra nə şəklə düşəcəyəm. Tezliklə bar gətirmək, hulularımın bədənimdəki şirəni sormaqlarını görmək istəyirdim. İstəyirdim ki, hulularım ağırlıq salıb budaqlarımı əysinlər, o qədər əysinlər ki, başları yerə dəysin.

Payız gəldi. Hava soyuduqca yuxulamaq istəyirdim. Nəhayət, qar yağdı, yer buz bağladı. Mən tamam yuxuya getdim. Poladla Sahibəli gövdəmi küləş və cır-cındırla sarımışdılar. Axı, qabığım hələ lətif və zərif idi, şaxtalı qış günlərində dovşanların ləzzətli yemi ola bilərdim.

Yaz gələn kimi əvvəlcə rişələrim özlərinə gəldi.Budaqlarım da aldığı şirədən ayılıb canlanmağa başladı. Kiçik budaqlarımın arasında xırda yarpaqlar düzəldirdim. Cəmi üç qönçəm qalmışdı. Üç gül açdım. Lakin arada hiss etdim ki, bunların üçünü də hulu edə bilməyəcəyəm. Güllərimdən biri lap ilk çağlarda solub düşdü. İkincisini çağala[1] eləmişdim. Amma, ona qida çatdıra bilmədiyim üçün soluxdu və külək vurub yerə saldı. Bu zaman bütün qüvvəmi toplayıb misli-bərabəri olmayan elə bir hulu yetişdirmək fikrinə düşdüm ki, görənin gözləri kəlləsinə çıxsın, hər kəs yesə, ömründə dilinə başqa meyvə vurmasın!

Gül açandan xeyli sonra onların yarpaqlarını tökdüm və başladım gül kasacığımın içərisindəki yeganə meyvəmə yem verib yetişdirməyə. O vaxta qədər ki, gül kasacığım pardaqlandı. O, budağımın lap ucunda yerləşmişdi. Elə buna görə də badam çağalası boyda olanda məni əyməyə başladı. Narahatlığım artdı,

---

[1] Çağala - ilk qoza

düşündüm ki, ürəyimdən olan hulu yetişdirəsi olsam, belim ya əyilər, ya sınar. Lakin bütün çətinliklərə baxmayaraq, hulumu yetişdirməkdən əl çəkən deyildim. Hətta, düzünü bilmək istəsəniz, gələcəkdə onların sayını minə çatdırmaq qərarına gəlmişdim. Elə buna görə də ilk cəhddən və ilk huludan başlayaraq özümü bərkə-boşa salıb sınamaq istəyirdim. Uşaqların yaxınlığımda basdırdıqları ilan ölüsü çürüyüb ətrafımdakı torpağı qüvvətləndirmişdi.

Bu qüvvətliliyin nəticəsi idi ki, budaqlarım və çoxlu yarpaqlarım olmuşdu.

Son günlər Sahibəli ilə Polad yanıma çox az-az gəlirdilər. Yəqin ki, ataları ilə biçinə və yaxud da xırmana gedirdilər. Nəhayət, bir gün mənə baş çəkməyə gəldilər. Ağaclarını dibimə basdırıb məni ona sarıdılar. Deyəsən, elə həmin gündə Poladla Sahibəli bir-birləri ilə pıçıldaşdılar:

– Sahibəli!

– Hə, de!

– Deyirəm, birdən bu bağban basdırdığımız ağacı tapar ha?

– Tapsa, nə olar ki? – deyə Sahibəli cavab verdi.

Polad heç nə demədi. Sahibəli yenə sözünə davam etdi:

– Tapsa da, bir qələt edə bilməz. Ağacı özümüz əkib becərmişik, meyvəsi də özümüzünküdür.

Fikrə getmiş Polad dilləndi:

– Torpaq ki bizim deyil?!

– Yenə də heç bir qələt edə bilməz. Torpaq onu əkənindir. Ağac əkdiyimiz bu bir tikə yer bizimkidir.

Polad cürətləndi:

– Əlbəttə, öz malımızdır. Əgər bir qələt eləyərsə, bütün bağa od vurarıq!

Sahibəli yumruğunu günəşdən yanmış açıq sinəsinə vurdu:

– Özum ölüm, – dedi, – qoymaram, heç canına isti keçsin... Od vurub qaçarıq.

İnanın ki, əgər həmin gün Polad və Sahibəli dibimə paya basdırmasaydılar, gecə qırılacaqdım. Bərk külək qalxdı. Ağacların budaqlarını və yarpaqlarını bir-birinə qatdı. Sübh tezdən gördüm ki, badam ağacının bir neçə budağı qırılıb.

Günlər bir-birinin ardınca ötürdü. Mən bütün qüvvəmlə hulumu böyüdür, günəşə sarı tuturdum ki, yanaqlarını qızartsın. İsti ətinə-qanına işləsin. Qızım bədənimi möhkəm sorurdu. Bədənim bundan bəzən ağrısa da, incimirdim. Axı, artıq mən özüm də ana idim, göyçək qızım vardı...

Sahibəli ilə Poladın başı mənə qarışdığından başqa ağacları unutmuşdular. Mən özümü onların malı hesab edirdim. Yetişdikdən sonra hulumu məhz onlar dərib yeməliydilər. Necə ki, bir zaman onlar mənim özümü yemişdilər.

Payızın əvvəllərində bir gün Polad tənha və qəmgin halda yanıma gəldi. İlk dəfə idi ki, onu tənha görürdüm. Polad mənə su verdi, sonra üzünü mənə və huluma tutub ahəstə-ahəstə dedi:

– Hulu ağacım! Mənim qəşəng hulum! Bilirsiniz nə olub? Heç bilirsiniz bu gün niyə təkəm? Görürəm ki, bilmirsiniz. Sahibəlini ilan çaldı, öldü!.. Muncuq nənə bütün gecəni onun başının üstünü kəsdirib oturdu. Onun da əlindən bir iş gəlmədi. Dediyi bütün dərmanları Sahibəlinin atası ilə birlikdə gedib çöldən, dağdan, dərədən yığıb gətirdik. Sağalmadı ki, sağalmadı. Eh, yazıq Sahibəli!.. Axı, niyə məni tək qoyub getdin?!

Polad xeyli ağladı. Nəhayət, yenə dilləndi:

– Bir neçə gün bundan əvvəl naharçağı çöldən qayıdanda təpənin başında rastlaşdıq. Keçən ilki kimi, sənin dibində

basdırmaq üçün yenə də ilan tutmaq istədik. Fikirləşdik ki, bu sənə yeni qüvvə verər. İlanlar dərəsinə düşdük. Elə bil onlar yoxa çıxmışdılar. Dərənin yaxınlığındakı qayalıqlarda, daşlıqlarda dolaşdıq. Onların daşlar arasında yuvaları var. Canlarına isti təsir edən kimi yuvadan çıxırlar. Bizim qonşuların, elə Sahibəlinin xalasıoğlunun da torpaqları ilanlar dərəsindədir. Burada həmişə ilanların fışqırıq səsi eşidilir. Sahibəli ilə mən dağın ətəyində daşların arasına nəzər salır, çubuqlarımızı deşiklərə uzadırdıq ki, sənə kök ilan tapaq. Şalvardan başqa əynimizdə heç nə yox idi. Günəşin hərarəti kürəklərimizi elə qızdırmışdı ki, yumurta qoysaydın, bişərdi. Bu daşın üstündən o biri daşın ustünə hoppanırdıq. Birdən Sahibəlinin ayağı sürüşdü, arxası üstə yıxıldı. Elə bu an onun tükürpərdici çığırtısı bütün dərəyə yayıldı. Sahibəli ilanın çənbər qurub dayandığı daşın üstə yıxılmışdı. Sahibəli bir də çığırıb dərəyə yuvarlandı. Mən ilana fürsət verməyib başına bir zərbə endirdim. Sonra qarnını, başını ağaca doladım.

Sahibəli huşsuz halda uzanıb qalmışdı, səs-səmiri çıxmırdı. Əlindəki ağac harasa düşmüşdü. İlanın çaldığı yer qızarmışdı. İlan onun ayağını və ya qolunu sancmış olsaydı, nə edəcəyimi bilərdim. Amma elə yerindən çalmışdı ki, çarə etməkdə aciz idim. Naçar qalıb Sahibəlini dalıma aldım və kəndə gətirdim. Muncuq nənə qəbiristanlıqda anama demişdi ki, Sahibəlini onun yanına tez çatdırsaydım, ölməzdi. Axı, mən onu necə tez çatdıra bilərdim? Hulu ağacı, sən hamıdan yaxşı bilirsən ki, Sahibəli məndən nə qədər canlı idi...

Polad yenə də ağlamağa başladı. Sahibəli ilə Poladı necə çox istədiyimi indi hiss etdim. Sahibəlini bir daha görə bilməyəcəyimi

yəqin edəndə az qaldım sarsılam, yarpaqlarımı töküb həmişəlik quruyam.

Polad bir xeyli ağladı, sonra:

– Mən daha kənddə qala bilmərəm, – dedi, – hara gedirəmsə, Sahibəli gəlib gözlərinin önündə durur, qüssələnəcəyəm. Dağa gedəndə də, keçimi otaranda da, itlərin başını sığallayanda da, çöldə uşaqlarla çəyirtgə tutanda da, ot biçəndə də, damların üstünə çıxanda da Sahibəli gözlərim önündə canlanır. Elə bil həmişə – "Polad!.." – deyə məni səsləyir. Hulu ağacı, mən bu səslərə dözə bilmirəm. İstəyirəm şəhərə – dayımın yanına gedim. Daha kənddə qala bilmərəm. Hulu ağacı, mən getdim... Qoy hulun da özünə qalsın!

Elə ki gördüm Polad durub getməyə hazırlaşır hulumu onun qarşısına saldım. O, hulumu götürüb iylədi; toz-torpağını sildi, başdan-ayağa süzüb ovuclarında əzizlədikdən sonra yerə qoyub getdi...

Bildim ki, dostu Sahibəlidən ayrı yeməyə ürəyi gəlmir.

O biri il yaxşı boy atmışdım. Gövdəmin hər tərəfində çoxlu budaqlar və yarpaqlar bitmişdi. İyirmi-otuzacan gül açmışdım. Artıq bağın hər tərəfini görə bilirdim. Bir gün bağban mənim baş qaldırdığımı gördü. Sevincindən bilmirdi nə etsin. Rəngimdən, yarpaqlarımdan və güllərimdən hansı toxumdan olduğumu başa düşdü; heç bir zəhmət çəkmədən bağında yaxşı hulu ağacı bitmişdi.

Belə nanəcib bir bağbanın əlinə düşdüyüm üçün çox narahat idim; çünki o, pulbaz, nankor bir zalıma nökərçilik edirdi, pul xatirinə kəndin camaatını özünə düşmən etmişdi.

Hulularımın kimə qismət olacağını bildikdə özümdən acığım gəldi. Məni Polad ilə Sahibəli əkib böyütmüşdü, hulu-

larımı da onlar yeməli idilər. Ağlıma, ürəyimə və bütün varlığıma hakim olan bu fikirlərdən sonra başladım hulularımı tökməyə. Bağban o zaman xəbər tutdu ki, artıq bir dənə də hulum qalmamışdı. O, elə başa düşdü ki, yerim pisdir. Buna görə də bu sözləri mənə eşitdirdi:

– Gələn il yerini dəyişəcəyəm. Yaxşı su içərsən, iri və gözəl hulular gətirərsən.

Üzümüzə gələn ilin yazında rişələrimi ayıltdıqda gördüm ki, onlardan bəziləri tamam quruyub, bəziləri nəsə kəsilib. Əlbəttə, sağlam rişələrim də çox idi, onları rütubətli torpağın köksünə uzatmağa başladım. Sonra yeni rişələr əmələ gətirib ətrafa yaydım. Bu zaman ayılmaq, yarpaq və gül açmaq fikrinə düşdüm və ana oldum.

O vaxtdan indiyəcən ömrümdən neçə il keçdiyini bilmirəm. Ancaq, bağban mənim hulularımdan bir dənə də olsun nübar eləyə bilməyib, bundan sonra da eləyə bilməyəcək. İstəyir qorxutsun, ya da doğrayıb yandırsın. Ona tabe olmayacağam.

*Yay, 1968-ci il.*

# Çuğundursatan oğlan

Neçə il bundan əvvəl bir kənddə müəllimlik edirdim. Məktəb bir qapısı, bir pəncərəsi olan kiçik otaqdan ibarət idi və özü də kənddən təqribən yüz metr aralıda yerləşirdm. Otuz iki şagirdim var idi. On beşi birinci, səkkizi ikinci, altısı üçünçü, üçü isə dördüncü sinifdə oxuyurdu. Məni ora payızın axırlarında göndərmişdilər. Uşaqlar iki-üç ay müəllimsiz qaldıqlarından məni görən kimi sevindilər. Dərslər dörd-beş gün ləng keçdi. Nəhayət, uşaqları çöldən, fərş emalatxanalarından, ordan-burdan birtəhər ki, yığa bildim. Uşaqların çoxusu dərs olmadığından xalçaçı Hacıqulunun karxanasında işləməyə getmişdilər. Zirəkləri gündə on-on beş qran əmək haqqı alırdı. Hacıqulu buraya şəhərdən gəlmişdi. Çünki kənddə karxana açmaq ona daha sərfəli idi: şəhər fəhlələri daha çox əməkhaqqı tələb edir və gündə qırx qrandan az almırdılar. Amma kənddə yüksək əməkhaqqı iyirmi qrandan otuz qrana qədərdi.

Kəndə gəlişimdən on gün ötməmişdi ki, bərk qar yağdı, yer buz bağladı. Soyuğun qabağını almaq üçün qapı-pəncərənin dəlmə-deşiyinə kağız yapışdırdıq. Bir gün üçuncü və dördüncü siniflərin şagirdlərinə imla yazdırırdım. Birinci və ikinci sinif uşaqları isə bayırda idilər. Qapının arxasından nazik bir səs eşidildi:

[1]Ləbu — çuğundur.

– Ləbu[1] gətirmişəm, ləbu gətirmişəm, uşaqlar! İsti, şirin ləbu!

Sinif nümayəndəsindən soruşdum:

– Bu kimdir?

O dedi: – Özgə adam deyil, ağa... Tarverdidir. Qışda ləbu satır. İstəyirsən, deyim içəri gəlsin.

Qapını açdım. Tarverdi çuğundur qazanı ilə içəri girdi. Baş-gözünü köhnə yun şalla sarımışdı. Ayağının birinə köhnə qaloş tayı, o birisinə isə adi kişi ayaqqabısı geymişdi. Köhnə, uzun pencəyi dizlərinə çatırdı, əllərini pencəyinin qolunda gizlətmişdi. Burnunun və barmaqlarının ucu şaxtadan qızarmışdı. On-on iki yaşı olardı.

O, salam verdi. Çuğundur qazanını yerə qoyub:

– Ağa, – dedi,– icazə verin, əllərimi qızdırım.

Uşaqlar o saat Tarverdini peçin qırağına çəkdilər. Oturmaq üçün öz səndəlimi ona təklif etdim. Oturmadı və dərhal dedi:

– Yox, ağa, elə buradaca oturaram.

O biri uşaqlar da Tarverdinin səsini eşidib otağa doluşmuşdular. Bir qədər qızışdıqdan sonra Tarrverdi dilləndi:

– Ağa, çuğundur yeməyə meyliniz varmı?

Cavab gözləmədən qalxıb çuğundur qazanına tərəf getdi. Neçə rəng parçadan yamanmış nəm dəsmalı qaldırdı. Bu zaman qazandan buxar qalxdı. Çuğundurun üstündə dəstəli bıçaq var idi. O, seçib götürdüyü çuğundurlardan birini mənə uzadıb dedi:

– Yaxşı olar ki, özünüz soyasınız, bəlkə, mənim əllərimdən... Biz kəndliyik, şəhər görməmişik. Adət-ənənələrini də bilmirik.

O, dünyagörmüş qocalar kimi danışdı. Çuğunduru ovcuma qoydu. Üzünü soydum, tünd qırmızı və xoş rəngli çuğundur oldu. Bir dişləm vurdum. Çox şirin idi. Bu an sinfin lap axırında oturan Novruz dilləndi:

– Heç kəsin çuğunduru Tarverdininki kimi şirin deyil.

Sinif nümayəndəsi də onun səsinə səs verdi:

– Ağa, bu çuğundurları bacısı bişirir, Tarverdi də satır. Anası uzun müddətdir xəstədir.

Tarverdinin üzünə baxdım. Üz-gözündən şirin təbəssüm və mərdlik yağırdı. Boyun şalını açmışdı. Başının tükləri qulaqlarını örtmüşdü. O, üzümə baxdı:

– Hərənin bir işi var, ağa, – dedi, – bizim işimiz də budur.

– Tarverdi, anana nə olub? – soruşdum.

– Ayaqları tutulub. Nə olduğunu, doğrusu, mən özüm də yaxşı bilmirəm. Kəndxuda deyir ki, iflic olub.

Atasını soruşmaq istəyəndə sözümü ağzımda qoydu:

– Ölüb!..

Uşaqlardan biri araya çökmüş sükutu pozdu:

– Ona qaçaq Əsgər deyərdilər.

– Yaxşı at sürürdü. Bir gün dağların başında əmniyyələrin[1] atdığı gülllədən həlak oldu, özü də atın belində, – deyə Tarverdi səsləndi.

O yan-bu yandan bir xeyli söhbət etdik. Üç-dörd qranlıq da çuğundur satıb getdi. Nə qədər elədimsə, məndən pul almadı:

– Bu dəfə mənim qonağımsan, – dedi. – Gələn dəfə pul verərsən. Elə bilmə kəndliyik. Biz də bir şey anlayırıq....

Tarverdi qarın üstü ilə kəndə tərəf gedə-gedə ucadan deyirdi:

– Ay ləbu, isti şirin ləbu! Gəlin ay camaat, gəlin, ləbu alın!

Uşaqlar mənə Tarverdidən çox şey danışdılar: "Solmaz adlı bir bacısı var. Özündən iki-üç yaş böyükdür. Atası sağ ikən pis

---

[1] Əmniyyə – jandarm

dolanmırdılar. Sonra fəlakətə düşdülər. Əvvəl bacısı, sonra özü xalçaçı Hacıqulunun karxanasına işləməyə getdilər. Bir müddətdən sonra Hacıqulu ilə sözləri düşdü, karxanadan[1] çıxdılar...”.

Rzaqulu da, Əbülfəz də Tarverdi barədə bildiklərini danışdılar:

– Ağa, bişərəf Hacıqulu bacısına pis nəzərlə baxırdı.

Tarverdi Hacıqulunu dəfə[2] ilə vurub öldürmək istəyirdi.

Tarverdi hər gün bir-iki dəfə məktəbə baş vururdu. Çuğundurlarını satandan sonra hərdən gəlib sinifdə oturur, dərslərə qulaq asırdı... Bir gün ondan soruşdum:

– Tarverdi, eşitdiyimə görə Hacıqulu ilə dava eləmisən. Bunun nə üstə olduğunu mənə deyə bilərsən?

Tarverdi:

– Keçmişin söhbətidir, ağa – dedi, – başınızı ağrıtmağa dəyməz.

– Əhvalatı bütün təfsilatı ilə birər-birər danışsan, məmnuniyyətlə qulaq asaram, – dedim.

Tarverdi söhbətə başladı:

— Mən bacımla lap uşaqlıqdan Hacıqulunun yanında işləyirdim. Bacım işə məndən qabaq düzəlmişdi. Mən onun əlinin altında işləyirdim. O iki tümən alırdı, mən də ondan bir qədər az. İki-üç il əvvəl anam yenə də xəstə idi, işləmirdi. Karxanada bizdən başqa otuz-qırx uşaq işləyirdi. Elə indi də işləyirlər. Sübhdən bacımla işə gedib, günorta qayıdırdıq. Günortadan sonra gedib axşam evə dönürdük. Bacım karxanada başına çadra

[1] Karxana – emalatxana

[2] Dəfə – xalçaçıların işlətdiyi alət

örtsə də, üzünü gizlətmirdi. Çünki ustalarımız atamız yerində idilər. Burada özgə sayılan uşaqlardı, bir də ərbabımız Hacıqulu. Sənə nə deyim, ay ağa, axır zamanlar bişərəf Hacıqulu gəlib bizim başımızın üstündə dayanır, gözlərini bacımın üzündən çəkmirdi. Hərdənbir də əlini bacımın, mənim başıma çəkir, öz-özünə gülə-gülə uzaqlaşırdı. Ürəyimə heç nə gətirmirdim. Fikirləşirdim ki, ərbabımızdır, bizə məhəbbət göstərir. Bir müddət ötdü. Bir dəfə, pəncşənbə[1] günü həftəlik muzdumuzu alanda bacıma bir tümən əlavə pul verdi: "Ananız xəstədir, bu bir tüməni ona xərcləyərsiniz", – dedi və bacımın üzünə qımışdı. Onun bu hərəkətindən xoşum gəlmədi. Heç nə olmamış kimi, bacım bir söz demədi. Hər ikimiz evə – anamızın yanına döndük. Hacıqulunun bacıma əlavə pul verdiyini bilən kimi anam fikrə getdi, – bundan sonra sizə əlavə pul versə götürməzsiniz, – dedi.

Ertəsi gün ustalarımız və böyük uşaqlar arasında pıç-pıç başladı. Onlar bir-birinin qulağına nəsə deyirdilər, ancaq çalışırdılar ki, biz eşitməyək, Ağa, nə başını ağrıdım, o biri pəncşənbə günü hamıdan sonra muzd almağa getdik. Hacı özü tapşırmışdı ki, onun yanına ara xəlvətləşəndən sonra gələk. Nə isə, əmək haqqımızı almağa gəldik. Hacı yenə əlavə pul təklif etdi:

– Sabah sizə gələcəyəm, – dedi, – ananıza sözüm var. – Bacımın üzünə baxıb şit-şit qımışdı. Qızın rəngi qaçdı, başını aşağı dikdi.

– Ağa, sən allah, məni bağışlayın. Bir də, özünüz buyurdunuz ki, nə olub hamısını birər-birər danışım. Bəli, Hacının pulunu özünə tərəf itələdim:

[1] Pəncşənbə – cümə axşamı

– Hacı ağa, – dedim, – bizə əlavə pul lazım deyil. Anamın acığı gəlir.

Hacı yenə özünü o yerə qoymayıb qımışdı və dedi:

– Canım, axmaq olma, səninlə, ananla deyil ki, xoşunuza gələ, ya gəlməyə.

Hacı pulu götürüb bacımın ovcuna basmaq istədi. Bacım dala çəkilib bayıra qaçdı. Hirslənmişdim, az qala ağlayacaqdım. Gözüm mizin üstündəki dəfəyə sataşdı. Götürüb Hacıya tərəf tolazladım. Dəfə üzünü parçaladı, qan axmağa başladı. Hacı haray çəkib köməkçi çağırdı. Mən bayıra qaçdım. Evimizə gəldim. Sonra nə olduğunu bilmədim. Bacım anamın böyrünə qısılıb xısın-xısın ağlayırdı.

Axşam kəndxuda bizə gəldi. Hacıqulu mənim əlimdən şikayətlənib sifariş göndərmişdi ki, mən onlarla qohum olmaq istəməsəydim, Tarverdini əmniyyələrin əlinə verərdim, dədəsini yandırardılar. Sonra kəndxuda üzünü anama tutub dedi:

– Hacı məni elçiliyə göndərib, ya "hə" de, ya "yox"!

Hacının şəhərdə bir bölük arvad-uşağı var. Bundan əlavə hələ bir neçə siğə də saxlayır. Məni bağışla, ağa, lap kaftar itə oxşayır. Ağarmış saqqalından, tökülmüş dişlərindən utanmır, kaftarın biri, kaftar!

– Yüz dənə qızım olsa, birini də bu qoca kaftara verməərəm, öz dərdimiz özümüzə bəsdir. Ay kəndxuda, sən yaxşı bilirsən ki, belə adamlar biz kəndlilərlə doğrudan-doğruya heç vaxt qohum ola bilməzlər, —deyə anam dilləndi.

Kəndxuda:

– Bəli, – dedi, – sən düz buyurursan, Hacıqulu qızı siğə eləmək fikrindədir. Amma qəbul etməsən, uşaqları karxanadan çıxaracaq. Sonra da əmniyyələrin dərd-səri başlayacaq. Bunu yadından çıxarma.

Bacım anamın böyrünə qısılıb hıçqıra-hıçqıra:

– Daha karxanaya getməyəcəyəm, – deyirdi, – ondan qorxuram.... Məni öldürər...

Səhəri günündən bacım karxanaya getmədi. Mən tək getdim. Üzünü dəsmalla bağlamış Hacıqulu qapının ağzında dayanıb təsbeh çevirirdi. Qorxudan yaxınına getmədim. O isə məni görən kimi dedi:

– Oğlan, gəl keç içəri, səninlə işim yoxdur.

Mən qorxa-qorxa ona yaxınlaşdım və qapıdan keçmək istədikdə boynumun ardından tutub karxananın həyətinə itələdi. Sonra da yumruqla, təpiklə başladı məni əzişdirməyə. O qədər vurdu ki, lavaş kimi açıldım. Nəhayət, əlindən qurtarıb dünənki dəfəni götürdüm. Kənara çəkilib çığırdım:

– Bişərəf! Mənə də qaçaq Əsgərin oğlu deyərlər! – Tarverdi nəfəsini dərib sözünə davam etdi: – Onu da deyim ki, elə oradaca öldürmək istəyirdim. Ancaq fəhlələr tökülüb məni tutdular, evimizə apardılar. Hirsimdən ağlayır, özümü yerə çırpır, Hacını söyürdüm. Sifətimdən qan sızırdı. Nəhayət, sakitləşdim. Bir keçimiz var idi. Bacımla birgə qazandığımız iyirmi tümənə almışdıq. Onu da satdıq. Topladığımız qəpik-quruşla bir-iki ay dolandıq. Nəhayət, bacım çöpəkyapan bir arvadın yanında işə düzəldi. Özüm isə... Rastıma-qismətimə düşən hər hansı işin

qulpundan yapışdım. Birtəhər ki, necə deyərlər, çulumuzu sudan çıxardırıq...

– Tarverdi, bacın nə üçün ərə getmir? – soruşdum.

O, utana-utana üzümə baxıb astadan qımıldandı:

– Çörəkyapan arvadın oğluna nişanlanıb. İndi birlikdə çalışıb cehiz hazırlayırıq ki, toylarını eləsinlər.

Bu ilin yayında keçmişdə müəllim olduğum həmin kəndə gəzməyə getmişdim. Çöldə, qırx-əlli qoyun-keçi qabağında Tarverdiyə rast gəldim. Soruşdum:

– De görüm, bacının cehizini düzəldə bildinizmi?

– Bəli! – dedi, – hələ toyunu da elədik. İndi öz toyum üçün pul yığmağa başlamışam…

# Qar dənəsinin sərgüzəşti

Qarlı qış günlərindən birində pəncərənin arxasında dayanıb tamaşa edirdim. Qar dənələri rəqs edə-edə divarların, kolların, ağacların budaqlarına, bir sözlə, hər şeyin üzərinə düşürdü. Elə bu an iri bir Qar dənəsi pəncərəyə tərəf gəldi. Əlimi bayıra uzadıb Qar dənəsinin altına tutdum, astaca gəlib ovcumun içinə düşdü. Necə də ağ və şəffaf idi! Elə bil üzərində sənətkar əli işləmişdi. Öz-özümə:

– Kaş, – dedim, – Qar dənəsinin dili olaydı, öz sərgüzəştini mənə danışaydı.

Buna bənd imiş kimi Qar dənəsi dilə gəldi:

– Mənim sərgüzəştimi eşitmək istəyirsənsə, qulaq as, danışım: mən bir neçə ay əvvəl su qətrəsi idim; Xəzər dənizində milyard-milyard su qətrələri ilə o yan-bu yana getməklə günlərimi keçirirdim. Yay günlərindən birində dənizdə gəzişirdim. Günəş bərk isti saçırdı. İstinin təsirindən qızışıb minlər, on minlərlə qətrə ilə birlikdə buxara çevrildim.

Biz yüngüllükdən qanad taxıb yuxarılara uçurduq. Külək də arxamızca düşüb bizi istədiyi tərəfə qovurdu. O qədər yuxarı qalxdıq ki, axırda adamlar gözümüzdən itdi. Hər tərəfdən buxar kütlələri gəlib bizə qovuşurdu. Bəzən də biz gedib daha böyük buxar kütlələrinə qovuşurduq; bir-birimizə qovuşub yol gedirdik, getdikcə sıxlaşır, çoxalır, çoxaldıqca da yuxarılara, ənginliklərə uçurduq. Bəzən günəşin üzünü örtürdük, bəzən də ay və ulduz-

ların qarşısını kəsirdik. Gecəni daha da qaranlıqlaşdırırdıq. Buxar zərrələrinin bir çoxu deyirdi:

– Artıq biz bulud olmuşuq!..

Külək bizi cürbəcür şəkillərə salırdı. Hələ mən özüm dənizdə yaşayanda buludları müxtəlif şəkillərdə: insan, dəvə, hətta, uzunqulaq şəklində görmüşdüm.

Göydə neçə ay sərgərdan qaldığımızı bilmirəm. Çox hündürdə idik, hava soyumuşdu. Bir-birimizə o qədər sıxlaşmışdıq ki, ətrafı görmür, haraya getdiyimizi bilmirdik. Günəş görünmürdü. Elə bil günəşin qabağını kəsmişdik.

Buludun eni-uzunu bir neçə yüz kilometr olardı. Yağış olub yerə qayıtmaq istəyirdik. Yerin həsrətiylə ürəyim bir tikə olmuşdu. Bir müddətdən sonra yarısu və yarıbuxar halına düşdük. Az qalırdı yağışa çevrilək. Birdən hava elə soyudu ki, mən də, yoldaşlarım da titrədik. Ətrafıma nəzər salıb yoldaşlarımın birindən soruşdum:

– Nə olub?

Belə cavab verdi:

– İndi başqa yerlərdə havalar isti olsa da, bizim olduğumuz yerlərdə qışdır. Bu gözlənilməz soyuq bizi yağış olmağa qoymayacaq... Bircə mənə bax! Mən qara dönürəm, elə sən özün də...

Yoldaşım sözlərini qurtara bilmədi. Qara dönüb yerə enməyə başladı. Onun ardınca mən də, minlərla mənim kimi zərrələr də bir-birinin ardınca qara dönüb yerə yağmağa başladıq.

Dənizdə olanda ağır idim. Ancaq indi çox yüngülləşmişdim. Qov kimi uçurdum. Ona görə ki, soyuq iliklərimə işləmişdi. Rəqs edə-edə yerə gəlirdim. Elə ki, yerə yaxınlaşdım, gördüm, Təbriz şəhərinə düşürəm. Xəzər dənizindən nə qədər uzaqlaşmışdım.

Yuxarıda olarkən bir uşağın yazıq bir iti döydüyünü gördüm. İt aldığı zərbələrdən yazıq-yazıq zəngildəyirdi. Gördüm ki, yerə bu vəziyyətdə yaxınlaşsam, düz həmin zalım uşağın başına düşəcəyəm. Küləkdən xahiş elədim ki, məni başqa yerə aparsın, uşağın başına düşməkdən xilas oldum. Külək xahişimi qəbul edib məni buraya gətirdi. Əlini altıma tutduğun üçün səndən xoşum gəldi...

Nəhayət, Qar dənəsinin səsi kəsildi. Baxıb gördüm ki, suya dönüb...

# 24 saat yuxuda və ayıqlıqda

*"Əziz oxucu!*

*"24 saat yuxuda və ayıqlıqda" hekayəsini məşğuliyyət üçün yazmamışam. Ona görə yazmışam ki, sən dünyanın hər yerində yaşayan öz balaca dostlarını yaxşı tanıyarsan və onların dərdlərinin çarəsi haqqında fikirləşəsən..."*

Tehranda başıma gələnlərin hamısını yazsam, bir neçə kitab olar və oxucunu yora bilər. Ona görə də ancaq 24 saat ərzində gördüklərimdən bəhs edəcəyəm. Sözümə başlamazdan əvvəl deməliyəm ki, axı necə oldu ki, atamla Tehrana gəldik?

Bir neçə ay idi ki, atam işsiz idi. Anamı, bacı və qardaşlarımı şəhərimizdə qoyub Tehrana gəldik. Şəhərlilərimizdəm, tanışlarımızdan bir neçəsi Tehrana bizdən qabaq gəlib, özlərinə iş tapmışdılar. Məsələn, birisinin buzsatan dükanı vardı. Bir başqası köhnə pal-paltar alıb-satırdı. O birisi portağal alveri ilə məşğul idi... Atam da girinə bir əl arabası keçirib ayaqüstü alver eləməyə başladı: göyərti, yeralması[1], xiyar və bu kimi şeylər alıb-satmaqla başımızı dolandırırdıq. Atamın qazancının cüzi hissəsini özümüz yeyir, qalanını anama göndərirdik. Mən hərdənbir atamla bəzi alqı-satqı şeylərini tapmaq üçün o yan-bu yana ayaq döyür, hərdənbir də xiyabanlarda avaralanıb axşam atamın yanına

[1] Yeralması – kartof

[2] Adams bəstə – saqqız

qayıdırdım. Bəzən də adams bəstə[2] və ya hafizin kitabını satırdım.

İndi əsl mətləbə keçək:

Bir axşam məni, Qasım, biletsatan Zivərin oğlu və Əhmədhüseyn – dörd nəfər bankın pilləkənində oturub qumar oynamaq üçün yer tapmaq haqqında fikirləşirdik. Bu zaman azacıq əvvəl elə həmin pilləkəndəcə rastlaşdığımız iki nəfər gəlib yanımızda oturdu. Onların ikisi də bizdən böyük idi. Biri taygöz idi, o birinin şalvarının cırığından çirkli dizi görünürdü. Üst-başı bizimkindən də pis idi. Amma ayağına təptəzə qara ayaqqabı geymişdi. Əvvəl dördümüz də onun ayaqqabılarına, sonra isə dönüb bir-birimizə baxdıq. Bu baxışla bir-birimizə çatdırmaq istəyirdik ki, uşaqlar, ayıq olun, deyəsən, ayaqqabı oğrusuna rast gəlmişik. O, fikrimizdən keçənləri dərhal oxudu:

– Nə olub, – dedi, – ayaqqabı görməmisiniz? – Yoldaşı onu məzəmmət elədi:

– Baş qoşma, Mahmud. Görmürsən nə gündədirlər? Yazıqlar ömürlərində belə ayaqqabı görüblər?

Mahmud:

– Sən bir mənə bax! – dedi, – yazıqların yalın ayaqlarını görə-görə, hələ bir soruşuram da ki, ayaqqabı görməmisiniz?

Taygöz yoldaşına eyhamla dedi:

– Hamının atası sənin kimi "varlı" deyil ki, uşağına təptəzə ayaqqabı alsın...

Hər ikisi bir-birinə baxıb hırıldadı.

Dördümüz də duruxmuşduq. Əhmədhüseyn biletsatan Zivərin oğluna, Qasım onlara, sonra da hər üçü dönüb mənə baxdı. Bu, o deməkdir ki: "Neyləyək? Dava salaq, yoxsa elə qoyaq hır-hır gülüb bizi ələ salsınlar?"

Mən ucadan Mahmuda dedim:

– Sən oğrusan! Sən bu ayaqqabıları oğurlamısan!

Bunu eşidən kimi hər ikisi pıqqıldadı. Taygöz əlini Mahmudun kürəyinə vurdu:

– Sənə demədim, Mahmud?.. Ha-ha-ha! Sənə demədim? Hi-hi-hi!..

Xiyabanın yanında düzülmüş rəngbərəng xüsusi minik maşınları elə bil qarşımıza dəmir divar çəkmişdi. Mənimlə düz üzbəüzdə durmuş qırmızı maşın getdikdən sonra xiyabanı görməyə yer açıldı. Taksilər, xüsusi maşınlar və avtobuslar xiyabanı tutmuşdu. Mənə elə gəlirdi ki, Tehran dünyanın ən qaynar şəhəri, bu xiyaban isə onun ən qaynar nöqtəsidir. Gülməkdən qəşş edən taygöz və onun yoldaşı Mahmud məni lap hövsələdən çıxarmışdı. Allahımdan idi ki, davamız düşsün. Yeri düşdü, ya düşmədi, yenicə öyrəndiyim söyüşü işlətdim. Öz-özümə deyirdim ki, kaş Mahmud mənim qulağımın dibindən vuraydı, mən də əsəbləşib ona deyəydim:"Mənə əl qaldırırsan? Bu saat gəlib bıçağı qarnına yortaram!"

Bu məqsədlə yanımda oturmuş Mahmudun yaxasından tutub soruşdum:

– Əgər oğru deyilsənsə, de görüm ayaqqabıları sənə kim alıb?

Yalnız bundan sonra gülüş səsləri kəsildi. Mahmud əlimi itələyib dedi:

– Öz yerində otur, bala! Nə danışdığını bilirsən?!

Taygöz tez aralığa girib dalaşmağımıza mane oldu.

– Mahmud, – dedi, – baş qoşma. Gecənin bu vaxtında dalaşmağın mənası yoxdur. Qoy gülməyin ləzzəti damağımızdan getməsin.

Dördümüz də dalaşmaq fikrində idik. Amma Mahmudla taygöz, doğrudan da, zarafat edib gülmək istəyirdilər.

Mahmud barışdırıcı bir əhvali-ruhiyyə ilə söhbətinə yekun vurdu:

– Daaş, bizim bu gün dalaşmağa hövsələmiz yoxdur. Əgər dalaşmaq istəyirsinizsə, qoyaq qalsın sabah axşama.

Taygöz onun sözünə qüvvət verdi:

– Bu gecə biz deyib-gülmək istəyirik.

Mən də:

– Qoy siz deyən olsun! – dedim.

Bu zaman bir sərnişin maşını gəlib yaxınlığımızda dayandı. Maşından bir kişi, cavan bir qadın, oğlan uşağı və bir tula düşdü. Bizim Əhmədhüseyn boyda olan oğlan qısa şalvar geymişdi. Ayağında ikirəngli, üstüaçıq yay ayaqqabısı vardı. Başının tüklərini yağlamışdı. Bir əlində ağ çeşmək tutmuşdu. O biri əli ilə də atasının qolundan yapışmışdı. Tulanın zəncirindən tutmuş xanım gəlib yanımızdan keçəndə ətir iyi bizi məst elədi. Qasım yerdən götürdüyü çınqılı oğlanın peysərinə vurdu. Oğlan geriyə döndü, bizə baxıb dedi:

– Avaralar!..

Əhmədhüseyn onun sözünü cavabsız qoymayıb açıqlı-acıqlı dedi:

– Rədd ol, anasının oğlu!..

Mən fürsət tapıb:

– Gəlib səni vuraram, – dedim.

Hamımız gülüşdük. Atası oğlunun əlindən dartıb bizdən bir az aralıdakı mehmanxanaya daxil oldu. Yenə bütün nəzərlər Mahmudun təzə ayaqqabılarına zilləndi.

Mahmud dostcasına dedi:

– Ayaqqabı mənə o qədər də lazım deyil, istəyirsiniz verim sizə? – O, üzünü Əhmədhüseynə tutdu: – Balaca, gəl ayaqqabıları çıxart və öz ayağına geyin.

Mahmudun ayaqlarına şübhəli-şübhəli baxan Əhmədhüseyn yerindən tərpənmədi.

Mahmud:

– Nə durub baxırsan? – dedi, təzə ayaqqabı istəmirsən? Gəl götür də!

Bu sözlərdən ürəklənən Əhmədhüseyn yerindən qalxdı, ayaqqabıları çıxarmaq üçün Mahmudun qabağında yerə çökdü. Üçümüz də bir söz deməyib ona baxırdıq. Əhmədhüseyn Mahmudun ayağından yapışıb bərk dartdı. Əlləri sürüşüb arxası üstə səkiyə yıxıldı. Mahmudla, taygöz elə güldülər ki, dedim, qarınları bu saat partlayacaq. Əhmədhüseynin əlləri qapqara olmuşdu. Taygöz əlini Mahmudun kürəyinə vuraraq hey deyirdi:

– Mahmud, sənə demədim? Ha, ha, ha!.. Sənə demədim? Hi, hi, hi!..

Mahmudun ayaqlarında Əhmədhüseynin barmaqlarının yeri görünürdü. Aldandığımızı indi başa düşdük. Amma hoqqabazların gülüşləri bizə də sirayət elədi. Biz də başladıq gülməyə. Səkiyə sərilmiş Əhmədhüseyn də yerindən qalxıb bir qədər bizə baxdı. O da gülməyə başladı. Əyilib diqqətlə Mahmudun ayaqlarına baxdım. Ayaqqabı haradaydı. Ayaqlar məharətlə elə rənglənmişdi ki, elə bil ayağına təzə, qara ayaqqabı geyinmişdi...

Mahmud oyun oynamağı təklif etdi. Mənim dördcə qranım vardı. Qasım pulunun qədərini demədi. O iki nəfər dostun da beş qranı vardı. Əhmədhüseyninsə bir dinarı da yoxdu. Bizdən bir az aşağıda bağlanmış mağazanın qabağında oturduq. Oyuna ilk dəfə Zivərin oğlu başladı. Sonra növbə Qasımın idi. O, Zivərin oğlundan bir qran aldı. Mahmud isə Qasımdan iki qran udduqda sevindi:

– Bərəkət! Deyəsən, bəxtimiz gətirib!

Oyunu beləcə davam etdirirdik. Bu ara yanımızdan səliqə ilə geyinmiş iki cavan ötdü. Əhmədhüseyn onların qabağına qaçıb yalvarmağa başladı:

– Bircə qran!.. Ağa, xahiş edirəm bircə qran ver!

Cavanlardan biri onu kənara itələdi. Ancaq Əhmədhüseyn yenə də qaçıb qabaqlarını kəsdi və yalvardı:

– Ağa, bircə qran ki bir şey deyil. İltimas edirəm, bircə qran ver. Sən allah, bir qran ver!

Bu zaman cavanlardan biri onu götürüb qarnı üstə tulladı. O, səkini xiyabandan ayıran dəmir hasardan asılı qaldı. Çırpınıb arxın qırağına düşdü. Ona tərəf gələn bir oğlanla iki qızı görcək qalxıb qızların birinin qabağına qaçdı və yalvarmağa başladı:

– Xanım, səni and verirəm allaha, bir qran ver! Acam! Bir qran ki bir şey deyil! Xanım, sən allah əsirgəmə!

Qız əvvəl məhəl qoymadı. Sonra Əhmədhüseynin əl çəkmədiyini görüb sumkasından pul çıxardı və onun ovcuna qoydu. Əhmədhüseyn sevinə-sevinə yanımıza qayıtdı:

– Mən də oynayıram, – dedi.

Qasım soruşdu:

– Pulun var?

O, ovcunu açıb iki qranlığı göstərdi.

Qasım soruşdu: – Yenə də yolçuluq elədin? – Qalxıb onu döymək istədi. Mahmud onun əlini tutub qalxmağa qoymadı. Əhmədhüseyn sakitcə özünə yer eləyib oturdu.

Mən ayağa qalxdım:

– Yolçularla oynamaq istəmirəm, – dedim.

Bu zaman Mahmud da:

– Aşıq atdıq bəsdir, – dedi, – gəlin divaravurdu oynayaq.

Qasım mənə:

– Lətif, – dedi, – oyuna pəl vurma. – Sonra dönüb hamımızdan soruşdu: – Kim aşıq oynayır?

Taygöz dilləndi:

— Özün-özünlə oyna, biz divaravurdu oynayırıq.

Zivərin oğlu Qasımı göstərərək:

– Bununla aşıq atmağın xeyri yoxdur, – dedi, – elə şeşbeşdir ki, atır. Gəlin pulatdı oynayaq.

Əhmədhüseyn soruşdu:

– Oynayaq?

Mahmud dedi;

– Yox, divaravurdu oynayaq...

Xiyaban xəlvətləşmişdi. Üzbəüzümüzdəki dükanlardan çoxu bağlanmışdı. Oyuna başlamaq üçün arxın qırağında durub hərəmiz divara sarı bir qranlıq atdıq. Biz qranlıqları divarın dibindən hələ yığışdırmamışdıq, birdən Əhmədhüseyn qışqırdı:

– Ajan![1]

Ajan lap üç addımlığımızda idi. Mən, Əhmədhüseyn və taygöz qaçıb aradan çıxdıq. Mahmudla Zivərin oğlu da bizim dalımızca qaçdılar. Qasım divarın dibindəki pulları yığışdırmaq istəyəndə ajan özünü yetirdi. Qasıma bir zərbə endirdi. O da aldığı zərbədən fəryad çəkib qaçmağa üz qoydu. Ajan onun arxasınca çığırdı:

– Qumarbaz avaralar!.. Məgər ev-eşiyiniz, ata-ananız yoxdur? – və pulları yığışdırıb getdi.

Meydanı ötüb keçəndən sonra gördüm ki, tək qalmışam. Xiyabanın o tayındakı çilovkabab dükanı da bağlanmışdı. Deməli, atamın yanına qayıtmaq vaxtı keçmişdi. Küçə və xiyabanlardan

---

[1] Ajan – polis

keçərkən öz-özümə deyirdim: "İndi artıq atam yatmış olar. Kaş yatmayıb məni gözləyəydi. Bəs, oyuncaq dükanı necə? Yəqin o da bağlanıb. Gecənin bu vaxtında kimin hövsələsi çatar ki, oyuncaq alsın? Yəqin, mənim dəvəmi də vitrindən götürüb içəri aparıblar. Kaş onunla danışa biləydim. Yəqin dünənki qərarımızı da unutmayıb. Çünki özü söz vermişdi ki, məni belinə mindirib Tehranı gəzdirəcəkdir. Hələ əlavə etmişdi ki, dəvə ilə səyahət etməyin başqa ləzzəti var".

Mən xəyal aləmində ikən qulağımın dibində tükürpədici səs ucaldı. Əvvəl zənn etdim ki, işim bitdi. Özümə gələndə gördüm ki, xiyabanın ortasında bir minik maşını dayanıb. Mənə heç nə olmamışdı. Ancaq ovcumun içi ağrıyırdı. Ovuşdurmağa başladım. Elə bu zaman bir nəfər maşından başını çıxarıb ucadan bağırdı;

– Heykəl kimi nə dayanmısan? Rədd ol maşının qabağından!

Özümə gələndə gördüm, sükanın arxasında bəzək-düzəkli qoca bir qadın oturub. Yanındakı yekə it başını çıxarıb ətrafı süzür. Fikirləşdim ki, bir daş götürüb maşının şüşəsini sındırmasam, hirsim soyumayacaq. Lakin fikrimdən daşındım. Qoca qadın bir neçə dəfə siqnal verib qışqırdı:

– Karsan? Maşının qabağından rədd ol!

Yanımızdan bir neçə maşın ötüb keçdi. Qoca qadın bir də başını çıxarıb qışqırmaq istəyəndə üzünə tüpürüb götürüldüm. Bağlı bir dükanın səkisində oturdum. Ürəyim döyünürdü.

Dükanın içərisində işıq yanırdı, dəmir qapının deşiklərindən içəri görünürdü. Cürbəcür ayaqqabılar səliqə ilə düzülmüşdü. Atam bir dəfə demişdi ki, ongünlük qazancımıza da bu ayaqqabılardan bir cüt ala bilmərik. Kürəyimi qapıya söykəyib ayaq-

larımı uzatdım. Ovcumun içi yenə də ağrıyırdı, ürəyim üzülürdü. Yadıma düşdü ki, çörək yeməmişəm: Öz-özümə dedim:

– Bu gecə də ac yatmalıyam. Kaş, atam mənim üçün bir şey saxlamış olaydı...

Birdən dəvənin məni gəzdirməyə çıxaracağı yadıma düşdü. Yerimdən dik qalxıb yola düşdüm. Oyuncaq şeyləri satılan dükan bağlanmışdı. Lakin qapının dalından səs eşidilirdi. Qəfəslərdəki ağ dəvə balaları səs salıb deyirdilər:

– Xiyabana çıxsan, biz də səninlə gələrik, yaxşımı?

Dəvəm ilə bir-iki kəlmə danışmaq üçün nə qədər çığırdımsa, eşitmədi. Əlacsız qalıb qapıya bir-iki təpik ilişdirdim ki, bəlkə, başqaları sakitləşə, dəvəm məni eşidə. Bu zaman kimsə qulağımdan tutub dedi:

– Ay uşaq, dəli olubsan? Gecənin bu vaxtı burada nə gəzirsən? Gedib yatsana!

Dayanmaq vaxtı deyildi. Ajanın əlindən qurtarıb aradan çıxdım... Atamın yanına çatanda xiyabanlar tamam xəlvətləşmişdi. Hərdən taksi maşınları gəlib keçirdi. Atam əl arabasının üstündə yatmışdı. Mən də orada yatmalı olsaydım, atamı oyatmalı, ayaqlarını bir yana çəkməsini xahiş eləməli idim. Üstündə bir neçə adam yatmış arabalar da vardı. Quru torpaq üzərində yatanlar da az deyildi. Mən öz əl arabamızın yanında uzanıb yuxuya getdim.

"Cirik! Cirik! Cirik!

– Ey, Lətif, haradasan? Lətif, niyə cavab vermirsən? Niyə gəlmirsən, gedək gəzək!

Cirik! Cirik! Çirik!

Lətifcan, səsimi eşitmirsən? Mən dəvəyəm, səni gəzməyə aparmağa gəlmişəm. Gəl belimə min, gedək".

Dəvə eyvanın altına çatan kimi yataqdan durub atıldım və düz onun belinə düşdüm. Gülə-gülə dəvəyə dedim:

– Niyə hay salırsan, mən ki sənin belindəyəm?

Dəvə sevindi. Saqqızdan bir tikə mənə verdi, bir tikə də öz ağzına qoyub yola düzəldi. Azacıq getmişdik ki, dedi:

– Ağız qarmonunu da gətirmişəm. Al çal, qulaq asaq.

Mən qarmonu alıb çalmağa başladım. Dəvə də bəzən iri və kiçik zınqırovlarını mənim qarmonumla həmahəngləşdirirdi.

Birdən başını mənə sarı çevirib soruşdu:

– Lətif, axşam yeməyi yemisən?

– Pulum olmadığından yeməmişəm.

– Elə isə əvvəlcə gedək yemək yeyək.

Bu zaman ağ dovşan yaxınlaşıb:

– Dəvəcan, – dedi, – axşam yeməyini yaylaqda yeyəcəyik; siz gedin, mən də gedib o birilərinə xəbər verim ki, oraya gəlsinlər.

Dovşan çeynədiyi sarı kökü arxa atıb hoppana-hoppana bizdən uzaqlaşdı. Dəvə məndən soruşdu:

– Bilirsən malikanə nə deməkdir?

– Məncə yaylaq deməkdir.

– Yox canım, malikanə milyonerlərin ab-havası gözəl yerlərdə qurduqları imarətdir, cah-cəlaldır ki, kefləri istəyəndə gedib orada istirahət eləsinlər, kef çəksinlər. Malikanələrdə evlərdən fərqli olaraq böyük hovuzlar, fontanlar, güllü-çiçəkli bağ-bağçalar da olur. Malikanə sahibləri xidmət üçün bir dəstə aşpaz, bağban və nökər də saxlayırlar. Bəzi milyonerlərin başqa xarici ölkələrdə – Fransada, İsveçrədə malikanələri var. İndi biz sərinləmək üçün Tehranın şimalındakı malikanələrdən birinə gedirik.

Dəvə bu sözləri deyib, elə bil quş idi, qanadlandı, havaya qalxdı... Bizdən aşağıda təmiz, qəşəng evlər görünürdü. Mənə elə gəlirdi ki, kinoya baxıram. Nəhayət, dəvədən soruşdum:

– Biz şəhərdən uzaqlaşmışıq?

– Yox, sən niyə bu fikrə düşdün?

– Çünki, bu tərəflərin havası çox təmizdir. Evlərin hamısı böyükdür, əzəmətlidir.

– Sən haqlısan. – Dəvə güldü: – Tehran bir-birindən fərqli iki hissədən ibarətdir; cənub və şimaldan ibarət iki hissədən. Cənub hissəsi-tüstülü, tozlu-torpaqlı, zibillidir, şimal hissəsi – tərtəmizdir, gözəldir. Köhnə avtobusların hamısı cənubda işləyir, kərpic kürələr də orada yerləşir. Küçə və xiyabanlarının çoxuna asfalt döşənməyib. Şimaldan gələn çirkli və iylənmiş su arxları buraya axır. Bir sözlə, cənub yoxsul və ac insanların, şimal isə əyanların, varlıların yaşadıqları rayondur. Sən heç Həsirabadda, Naziabadda və Hacı Əbdülhəmid xiyabanındakı onmərtəbəli mərmər binaları görmüsən? Bu hündür binaların aşağı mərtəbələrindəki mağaza sahiblərinin müştəriləri elə adamlardırlar ki, onların lüks sərnişin maşınları, neçə min tümən qiyməti olan itləri var.

Mən dedim:

– Cənub tərəfdə belə şeylərə rast gəlmək mumkün deyil. Orada heç kəsin minik maşını yoxdur. Amma çoxlu əl arabaları var. Adamlar yeraltı daxmalarda yaşayırlar.

Acından az qala ürəyim gedirdi. Bizdən aşağıda əlvan çıraqlı sərin, təravətli və gül-çiçəyə bürünmüş böyük bir bağ görünürdü. Bağın ortasında qəşəng bir imarət, onun yanında gömgöy suyu olan hovuz yerləşirdi. Hovuzda qırmızı balıqlar üzürdü, qırağında qoyulmuş mizlərin üzərinə cürbəcür yeməklər düzülmüşdü. Ətri adamı məst edirdi.

Dəvə dedi:

– Axşam yeməyi hazırdır. Aşağıya enmək olar.

– Bəs bağın sahibi haradadır? – soruşdum.

Dəvə:

– Onun fikrini çəkmə. Zirzəmidə əl-qolu bağlı uzanıb qalıb, — dedi.

Dəvə hovuzun qırağında astaca yerə endi. Mən atılıb yerə düşən kimi ağ dovşan əlimdən tutdu, mizlərin birinin arxasında oturduq. Bir azdan qonaqların başı açıldı, gəlhagəl başlandı. Gəlinciklərin bir dəstəsi minik maşınlarında, bir dəstəsi də təyyarə və vertolyotlarda gəldi. Uzunqulaq şıllaq ata-ata, tısbağalar dəvə balalarının quyruğunda sallana-sallana, meymunlar mayallaq aşa-aşa, dovşanlar qaça-qaça gəlib çıxdılar. Qəribə qonaqlıq idi.

Cürbəcür yeməklər var idi. Qızardılmış hinduşkalara, cücələrə, quzu kababına, plov və xuruşlara, heç vaxt görmədiyim başqa yeməklərə baxanda ağzımın suyu axırdı. Meyvə də ki nə qədər desən var idi. Dəvə hovuzun o başında dayanaraq hamını sakitləşdirib dedi:

– Kiçikdən böyüyə qədər, hamınız xoş gəlib səfa gətiribsiniz! Amma, bilirsiniz bir belə xərc çəkilmiş qonaqlığı kimin xatirinə eləmişik?

Uzunqulaq səsləndi:

– Lətifin xatirinə. İstədik ki, o da ömründə heç olmasa bir dəfə yaxşı çörək yesin və arzusu ürəyində qalmasın!

Pulemyotatan xoruz:

– Lətif gəlib bizə o qədər tamaşa edib ki, hamımız onu sevirik, – dedi.

Pələng söhbətə qarışdı:

– Əlbəttə, o istəyir ki, biz onun olaq. Biz də elə onunku olmaq istəyirik.

Şir:

– Doğrudur, – dedi, – varlı uşaqları bizdən çox tez doyurlar. Çünki ataları hər gün yeni oyuncaqlar alır. Onlar da bizimlə bir-iki dəfə oynadıqdan sonra doyur və bizi bir qırağa atırlar.

Mən söhbətə qarışdım:

– Sizlərdən hər hansınız mənim olsanız, söz verirəm ki, heç vaxt sizinlə oynamaqdan doymaram. Sizi tək qoymaram, həmişə sizinlə oynayaram.

Oyuncaqlar hamı bir səslə:

– Bilirik. Biz səni çox yaxşı tanıyırıq, – dedilər, – amma təəssüf ki, biz səninki ola bilmərik. Çünki, bizi çox baha satırlar.

Oyuncaqlardan biri:

– Məncə, sənin atanın bir aylıq gəliri belə, bizlərdən birini almağa çatmaz, – dedi.

Dəvə bir daha hamını sakitləşdirdi:

— Mətləb üstünə qayıdaq, – dedi. – Sizin dediklərinizin hamısı düzdür. Ancaq biz bugünkü qonaqlığı çox mühüm bir şeyin xatirinə düzəltmişik. Siz isə ona toxunmadınız.

Mən yenə də sözə başladım:

– Nə üçün məni bura gətirdiyinizi özüm bilirəm. Siz mənə demək istəyirsiniz ki, bir bax, başqaları sənlə atan kimi ac-yalavac xiyaban kənarlarında yatmırlar.

Mizin arxasında oturmuş bir neçə kişi və qadın acgözlüklə xörək yeyirdilər. Mən də yeməyə başladım. O qədər ac idim ki, yedikcə doymurdum. Qarnım ac olanda quruldadığı kimi yenə də hey quruldayırdı. Fikirləşdim ki, bəlkə, yuxu görürəm? Ona görə də doymuram. Əllərimi gözlərimə çəkib yoxladım. Hər ikisi açıq idi. Öz-özümə dedim: "Mən yuxudayam! Yox, ayığam. Yux-

uya gedən adamın gözü açıq olmaz, heç yanı görməz. Bəs nə üçün doymuram? Niyə ürəyim üzülür?"

...İmarətin ətrafına dolanır, onun qiymətli daşlarını əlimlə sığallayırdım, haradansa gələn toz-torpaq düz üzümə toxundu. Zirzəmiyə yaxın olduğumdan elə bildim oradan gəlir. Birinci pilləsinə ayaq qoyanda, ağız-burnuna qədər toz-torpaq doldu ki, asqırıq məni tutdu; bərkdən asqırdım və öz-özümdən soruşdum: "Nə olub? Mən haradayam?"

Bu an süpürgəçinin süpürgəsi gözümün qabağından ötüb səkinin toz-torpağını üz-gözümə çırpdı: "Nə olub? Mən haradayam? Deyəsən, yuxu görürəm?." Yox, yuxu deyildi. Atamın əl arabasını gördüm. Taksilərin səs-küyünü eşitdim. Gözlərim sübhün alaqaranlığında seçilə bilən binalara sataşdı. Deməli, yuxu görmürdüm. Süpürgə mənim qabağımdan uzaqlaşsa da, səkini təmizləyə-təmizləyə irəliləyirdi. Öz-özümə dedim: "Deməli, gördüklərimin hamısı yuxu imiş? Yox? Amma, deyəsən, yuxu imiş. Yox! Yox! Yox!.." Süpürgəçi dönüb mənə baxdı. Atam yatdığı əl arabasının üstündən əyilib soruşdu:

– Lətif, yuxu görürsən?

– Yox! Yox! – dedim.

Atam:

– Bəs yuxu görmürsənsə, niyə çığırırsan? Gəl yuxarı, yanımda uzan, – dedi.

Yuxarı qalxdım. Atam qolunu başımın altına qoydu. Amma məni yuxu aparmadı. Ürəyim üzülürdü. Qarnım taxta kimi belimə yapışmışdı. Atam yata bilmədiyimi görüb:

– Yorğun olduğum üçün tez yatdım, – dedi, – sən də ki, çox gec gəlmisən.

Dedim:

– Toqquşan maşınlara tamaşa etdiyim üçün gecikdim.

Araya sükut çökdü. Mən bir az sonra atamdan soruşdum:

— Dəvə danışmağı, uçmağı bacarar?

— Yox, bacarmaz.

Mən:

— Doğrudan da, elədir, — dedim, — dəvənin qanadı yoxdur, o, necə uça bilər?!.

Atam təəccüblə soruşdu:

— Oğul, sənə nə olub? Hər səhər yuxudan duranda dəvədən söz salırsan?

— Atacan, pullu olmaq yaxşı şeydir. Adam ürəyi istədiyini yeyə bilir, ürəyi istədiyini ala bilir. Belə deyil, ata?

Atam həmişə dediklərini yenə təkrar etdi:

— Naşükur olma. Allah kimi pullu, kimi pulsuz eləməyi özü hamıdan yaxşı bilir.

Səhər açılan kimi atam çustlarını[1] başının altından götürüb geyindi, arabanın üstündən yerə düşdü.

— Dünən kartofu sata bilmədim. Yarısından çoxu qalıb, — dedi, iki dolu kisəni götürüb arabaya boşaltdı. Mən tərəzini, çəki daşlarını götürüb yerbəyer elədim. Yola düşdük.

Atam üzünü mənə tutub dedi:

— Gedirik firni yeməyə.

Həmişə səhər vaxtı atam "gedirik firni yeməyə" deyəndə bilirdim ki, axşam ac yatıb.

Biz süpürgəçinin təmizlədiyi xiyabanla şəhər parkına sarı gedirdik. Firnisatan qoca həmişə olduğu kimi bu dəfə də arxın qırağında arxası xiyabana oturmuşdu. Qazan pıqqıldayırdı. Üç kişi və bir arvaddan ibarət müştərisi alüminium qablara tökül-

---

[1] Çust – dabansız, yüngül ayaqqabı

müş firni yeyirdilər. Atam qoca firnisatanla salamlaşdı. Oturduq. İki qab xörəyi yeyib durduq. Atam mənə iki qran verdi:

– Nahara buraya gələrsən, – dedi, – birlikdə nahar edərik.

Atamdan ayrılandan sonra rastlaşdığım ilk adam biletsatan Zivərin oğlu oldu. O, bir kişinin qabağını kəsib:

– Ağa, xahiş edirəm bilet alasız, inşallah udacaqsınız. Siz allah, alın! — deyirdi.

Kişi biletsatan Zivərin oğlunun əlindən birtəhər qurtara bildi. Zivərin oğlu dodağının altında onu söyüb uzaqlaşmaq istəyirdi ki, mən arxadan onu səslədim:

– Sırıya bilmədin?

– Ovqatı təlx idi. Deyəsən, evdə arvadı ilə dalaşıb, – deyə uzaqlaşan kişiyə işarə etdi.

İkilikdə yola düşdük. O, əlindəki biletləri hey camaata göstərirdi:

– Ağa, bilet! Xanım, bilet!..

Zivərin oğlu satdığı hər bilet üçün anasından bir qran alırdı, xərcini çıxarandan sonra bilet satmırdı, gəzməyə, oynamağa, kinoya gedirdi. O, bizim hamımızdan pullu idi. Günortalar körpü altında uzanıb bir-iki saat yatmağı adət eləmişdi. Günəş doğmamış durub anasından aldığı 20 bileti günortaya qədər satardı ki, günortadan sonra boş olsun. "Nadir xiyabanı"na qədər 3 bilet satdı:

– Daha mən buradan o yana getməyəcəyəm, – dedi.

Ondan ayrılanda mağazaların bir neçəsi açılmışdı. Uşaq oyuncaqları satan mağaza isə hələ bağlı idi. Vitrinə yaxınlaşdım. Dəvəm görünmürdü. Onun yuxusuna haram qatmamaq xatirinə qapını döymədim. Keçib oradan uzaqlaşdım. Xiyabanlar dərsə gedən məktəblilərlə dolu idi. Bəziləri ata-anaları ilə xüsusi maşınlarda məktəbə gedirdilər. Günün bu vaxtında ancaq Əhməd-

hüseyni tapa bilərdim. Ona görə də yoluma davam etdim. Bir neçə xiyaban keçəndən sonra elə xiyabanlara çatdım ki, orada bir zərrə də olsun, tüstüyə və natəmizliyə rast gəlməzsən. Uşaqdan böyüyə, hamı tərtəmiz geyinmişdi. Sir-sifəti bərq vururdu. Qızlar, qadınlar al-əlvan güllər kimi par-par parıldayırdılar. Mağazalar, imarətlər günəşin şüaları altında aynaya oxşayırdı. Bu məhəllədən keçəndə elə bildim, kinoda oturub filmə baxıram. Amma heç cür təsəvvür edə bilmirdim ki, bu hündür və təmiz evlərin içərisində necə xörək yeyirlər, necə yatırlar, necə danışırlar, necə geyinib-kecinirlər, haradan da biləydim?!

Əliçantalı üç məktəbli mağazanın vitrinindəki şeylərə tamaşa edirdi. Mən də gəlib onların arxasında dayandım. Səliqə ilə daranmış saçları xoş ətir saçırdı. İxtiyarsız olaraq birisinin boynunu iylədim. Onlar geriyə dönüb məni ikrah və nifrətlə süzdülər.

Biri dedi

— Nə pis iy verir!

Mağazanın şüşəsində özümü gördüm. Saçlarım, o qədər uzun və pərişan-pırtlaşıq idi ki, qulaqlarım onların arasında itmişdi. Köhnə köynəyim kir bağlamışdı, cırıqlarından sinəm görünürdü. Lüt və çirkli ayaqlarımdakı başmaqlarım yırtılmışdı. Hirsimdən bu ağazadələrin beynini vurub dağıtmaq istəyirdim. Bu zaman mağaza sahibi bayıra çıxdı. Əlinin işarəsi ilə məni qovdu:

– Yeri get! Səhər bir şey qazanmamışıq ki, sənə də bir şey verək.

Heç nə demədim. Yerimdən də tərpənmədim. O yenə də işarə etdi:

– İtil, get görək. Nə üzlü adamsan!

Yerimdən tərpənmədən:

– Mən dilənçi deyiləm! – dedim.

– Bağışla, bəs nəçisən?

– Heç nəçi, elə-belə durub tamaşa edirəm Birdən gözümə ağ bir kaşı tikəsi sataşdı. Əyilib götürdüm və gücümü toplayıb mağazanın iri şüşəsinə çırpdım. Şüşə qırılıb tikə-tikə oldu. Elə bil üstümdən ağır bir yük götürüldü. İki qıç da borc götürüb yel kimi tərpəndim. Qaç ki, qaçasan. Neçə xiyabanı arxada qoyduğumu bilmirəm. Əhmədhüseynlə rastlaşdım. Bildim ki, artıq şüşəsini sındırdığım mağazadan uzaqlaşmışam.

Əhmədhüseyn adəti üzrə qız məktəbinin qabağında var-gəl edər, maşından düşənlərin qabağını kəsib dilənərdi. Səhərlər onun işi-peşəsi bu idi. Kimin yanında yaşadığını hələ də bilmirəm. Amma, Qasımın dediyinə görə var-yox bircə nənəsi var, o da dilənçidir.

Zəng çalındı, uşaqlar siniflərə doluşdular. Biz də yola düzəlib uzaqlaşdıq. Əhmədhüseyn təəssüfləndi:

– Bu gün yaxşı qazanardım. Bəxtimdən heç kəsdə xırda pul olmadı.

Mən soruşdum:

– Biz hara gedirik?

Əhmədhüseyn dedi:

– Elə-belə gedirik də.

– Elə-belə niyə? Gedək Qasımın yanına, adama bir stəkan ayran içək.

Qasım "Simetri xiyabanı"nın qurtaracağında ayran satırdı. Yanına gedəndə həmişə adama bir stəkan pulsuz ayran verərdi. Qasımın atası da "Əbdülmahmud xiyabanı"nda köhnə pal-paltar satırdı. Onun balaca dükanı üç nəfərlik ailənin yaşadığı yer idi. Qasımın anası ərinin ondan-bundan aldığı cırıq, çirkli paltarları ya dükanda, ya da xiyabandakı arxda yuyub səliqəyə salar, əri də satardı.

Bir-iki saat yol getdikdən sonra Qasımın olduğu yerə çatdıq. Orada yox idi."Əbdülmahmud xiyabanı"na dönüb atasına baş çəkdik. Dedi ki, Qasım anasını (anasının həmişə ya ayaqları, ya da mədəsi ağrıyırdı) xəstəxanaya aparıb.

Nahara yaxın idi. Mən, Əhmədhüseyn və Zivərin oğlu "Nadir xiyabanı"nda arxın qırağında oturduq. Tum çırtlaya-çırtlaya dəvə haqqında söhbətə başladıq. Nəhayət, qərara aldıq ki, mağazaya girib dəvənin qiymətini soruşaq. Daxil olmaq istəyəndə satıcı bizi dilənçi hesab edib çımxırdı:

– Bayıra çıxın, xırda pulumuz yoxdur!

– Ağa, biz pul istəmirik... Dəvəni neçəyə satırsınız?

Mağaza sahibi təəccüblə soruşdu:

— Dəvə?

Əhmədhüseynlə Qasım arxadan dilləndilər:

— Bəli, dəvə! Qiyməti neçədir?

— Dedim ki, satdıq deyil, çıxın bayıra!

Kor-peşman bayıra çıxdıq. Satmalı olsaydılar da, onu almağa bizdə o qədər pul hardaydı. Dəvə yerində möhkəm dayanmışdı. Əhmədhüseynin əli onun qarnına zorla çatırdı. Zivərin oğlu da əlini uzadıb dəvəni sığallamaq istədi. Satıcı onun qulağından yapışıb dartdı:

– Ay eşşək, görmürsən, yazılıb: "Əl vurmaq olmaz? ". O, dəvənin sinəsinə sancaqlanmış kağızı göstərdi.Heç birimizin kağız üzərindəki yazıdan başımız çıxmırdı. Mağazadan çıxıb tum çırtlaya-çırtlaya uzaqlaşdıq. Zivərin oğlu: – Yuxum gəlir, – deyib yaxınlıqdakı körpülərin birinin altına keçdi.

Əhmədhüseynlə şəhər parkına getmək qərarına gəldik. Hava isti və bürkü olduğundan yaman tərləmişdik. Heç birimiz danışmırdıq. Qəribsəmişdim. Anamın yanında olmaq üçün ürəyim əsirdi.

Şəhər parkındakı arxda yuyunmaq üçün suya girdik. Bizdən yuxarıda iki uşaq çimirdi. Parkın gözətçisinin çığır—bağırla gəldiyini görüb qaçdıq. Torpağın üstündə oturub özümüzü günə verdik. Əhmədhüseynlə torpaq üzərində dəvənin şəklini çəkirdik ki, atamın səsini eşitdim. Əhmədhüseyn çıxıb getdi. Atamla cızbızxanaya gedib nahar elədik.

Atam fikirli və dinməz dayandığımı görüb soruşdu:

– Lətif, sənə nə olub? Kefsizləmisən?

– Heç nə olmayıb! – dedim.

Parkdakı ağacların altına gəlib uzandıq. Atam yata bilmədiyimi görüb söruşdu:

– Lətif, bir de görüm axı, sənə nə olub? Dalaşmamısan ki, bəlkə, bir sözə deyən olub?

Dinməz dayanmaq, dinib-danışmayıb kədərlənmək arzusundaydım. Belə anlarda anamın səsini eşitmək, onu qucaqlayıb öpmək, ətrini duymaq istəyirdim. Başımı atamın sinəsinə dayayıb hönkürməyə başladım. O, qalxıb oturdu. Məni bağrına basdı. Yenə də ona heç bir söz demədim. Bircə onu dedim ki, ürəyim istəyir anamın yanında olum. Yuxu məni apardı... Ayılanda gördüm atam dizlərini qucaqlayıb oturub, adamlara baxır. Ayaqlarını qucaqladım.

– Ata! – dedim.

O, mənə baxdı. Əllərini saçlarımda gəzdirdi:

– Oğlum, oyandın?

– Bəli!

– Sabah öz şəhərimizə, ananın yanına qayıdırıq. İş olsa, orada bir parça çörək tapıb yeyərik, olmasa da... Görək neyləyərik... Bizim burada, onların orada başsız qalmağından belə yaxşıdır.

Parkdan qaraja qədər olan yol boyu bilmirdim sevinim, yoxsa sevinməyim. Yarı canım dəvənin yanında qalmışdı. Ondan

heç cürə ayrılmaq istəmirdim. Dəvəmi də özümlə apara bilsəydim, heç bir qəmim olmazdı... Bilet aldıq. Yenə də xiyabanları dolaşmağa başladıq. Atam axşama qədər necə olursa-olsun əl arabasını satmaq istəyirdi. Mən isə bir dəfə də olsa, dəvəni doyunca görmək arzusundaydım. Atam əvvəlcə məni tək buraxmaq istəmirdi. Dedim ki, ürəyim açılsın deyə gəzmək istəyirəm. Atam razılaşdı, sonra qərara gəldik ki, gecə şəhərimizə yollanacağımız qarajın yaxınlığında yataq.

Axşama az qalırdı. Neçə saat dayanıb dəvəyə tamaşa etdiyimi bilmirəm. Bir də gördüm, yaxınlığımızda üstüaçıq bir minik maşını dayandı. Maşında səliqə ilə geyinmiş bir kişi və bir qız uşağı əyləşmişdi. Sevinc içərisində olan qızın nəzərləri dəvəyə zillənmişdi. Ürəyimə damdı ki, dəvəni almağa gəliblər.

Qız atasını dartaraq dedi:

– Tez ol, ata. İndi bir başqası gəlib alar!

Onlar mağazaya girmək istəyəndə gördülər ki, mən qabaqlarında durub yolu kəsmişəm. Ağlamağım gəlirdi, nəyinsə qüssəsini edirdim. Qorxurdum. Nə etdiyimi özüm də bilmirdim. Bircə onu bilirdim ki, ata ilə qızın qarşısını kəsmişəm və deyirəm: "Ağa, dəvə satdıq deyil! Səhər özü mənə deyib. İnanın ki, satdıq deyil".

– Yolu niyə kəsibsən? Çəkil kənara! – deyə kişi məni möhkəm itələdi və ikilikdə mağazaya daxil oldular. Kişi mağaza sahibi ilə söhbət edəndə qız hey geriyə dönüb dəvəyə baxırdı. Elə şad və xürrəm görünürdü ki, elə bil həyatında hələ bir dəfə də olsun kədərlənməyib. Bu an mən hərəkətsiz və dinməz halda qapının kənarında dayanıb mağazanın içərisini süzürdüm. Meymunlar, dəvə balaları, xoruzlar, dovşanlar mənə baxırdılar. Mənə elə gəlirdi ki, onlar da mənim halıma acıyırlar.

Ata ilə qız mağazadan çıxanda kişi mənə iki qran pul uzatdı. Mən əllərimi arxamda çarpazlayıb onun üzünə elə baxdım ki, kişi

tez pulu cibinə qoydu. Mağaza sahibi məni itələyib qapıdan uzaqlaşdırdı. Bu zaman mağazada işləyən iki kişi dəvəyə sarı getdi. Qız artıq keçib maşında oturmuşdu. Maraqla dəvəyə baxırdı. Onlar dəvəni yerdən qaldırıb aparmaq istədilər. İxtiyarsız olaraq qaçıb dəvənin ayaqlarını qucaqladım. Çığırmağa başladım:

– Mənim dəvəmi haraya aparırsınız? O, mənimkidir! Qoymaram aparasınız!

Kişilərdən biri:

– Ay uşaq, – dedi, – dəli olmusan? Çəkil kənara!

Qızın atası mağaza sahibindən soruşdu:

— Dilənçidir?

Səs-küyə xeyli adam yığılmışdı. Dəvənin ayarlarını buraxmırdım. Kişilər onu yerə qoymağa və məni zorla kənara çəkməyə məcbur oldular. Maşında oturmuş qız atasını səslədi:

— Ata, qoyma bir də əlini ona vursun!

Qızın atası sükanın arxasına keçdi. Dəvəni də gətirib maşına qoydular. Maşın yerindən tərpənəndə yenə qaçıb ondan yapışdım:

– Mənim dəvəmi haraya aparırsınız? Mən dəvəmi istəyirəm!.

Fəryadıma əhəmiyyət verən olmadı. Maşın hərəkət edərkən arxadan kimsə məni dartıb saxladı. Əllərim üzüldü. Üzüüstə yerə yıxıldım. Başımı qaldırıb son dəfə dəvəmə baxdım. Mənə elə gəlirdi ki, o da boynundakı zəngi qəzəblə səsləndirib ağlayır. Burnumdan açılan qan asfaltı boyamışdı. Ayaqlarımı yerə döyəcləyib hönkürdüm. Ürəyimdə öz-özümə dedim:

"Kaş vitrindəki silah əlimdə olaydı!"

# Tərcüməçidən

Səməd Behrəngi 1939-cu ildə Təbrizin Çərəndab məhəlləsində yoxsul azərbaycanlı ailəsində anadan olmuşdur. Onun atası İzzət beş övladından ikisini, o cümlədən Səmədi oxutdurmağa müvəffəq olmuşdu. Bu, ağır məhrumiyyətlər bahasına başa gəlmişdi. Səmədin qardaşı Əsəd Behrənginin "Keyhan" qəzetində dərc etdirdiyi yazı bu cəhətdən maraqlıdır. Yazının bir yerində oxuyuruq: "Hər gün səhər tezdən məhəllə sakinləri başmaqlarını qoltuğuna vurub sürətlə qaçan bir oğlan uşağını görür və bir-birindən onun kim olduğunu soruşurdular:

– Nə üçün o, həmişə qaçır? Başmaqlarını niyə qoltuğuna vurur?

Sonralar məlum oldu ki, həmin uşaq onların məhəlləsində yaşayan fəhlə İzzətin oğludur. Oxuduğu məktəb uzaqda olduğundan qaçır ki, gecikməsin. Başmaqlarını da qoltuğuna ona görə vurub ki, yırtıqdır, qaçmağına mane olur... Uşağın adı Səməddi".

Səməd ibtidai məktəbi oxuyub qurtardı. Sonra Təbriz pedaqoji məktəbini bitirib, bir müddət İran Azərbaycanının ucqar kəndlərində müəllimliklə məşğul oldu. Zəhmətkeş kəndlilərin həyatı ilə yaxından tanışlıq Səməddə yazıb-yaratmaq, yoxsulların məhrumiyyətlərini qələmə almaq həvəsi oyatmışdı. O, Təbriz universitetini bitirib, xeyli dəyərli əsərlər yazandan sonra vətəndaş yazıçı kimi tanınmağa başladı.

Səməd Behrəngi müasir Fars və İran Azərbaycanının mütərəqqi nəsrinin, xüsusilə uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi təkcə İranda deyil, həm də dünyanın bir çox ölkəsində tanınır. Yazıçının əsərləri bir neçə il bundan əvvəl İngiltərədə keçirilən uşaq ədəbiyyatı sərgisində nümayiş etdirilmişdir. İtaliyanın Boloni şəhərində Beynəlxalq uşaq ədəbiyyatı müsabiqəsində onun "Balaca Qara Balıq" hekayəsi mükafata layiq görülmüşdü.

Behrəngi cəmi 29 il ömür sürmüşdür. Lakin bu az müddət ərzində o, zəngin bədii irs yaratmışdır. Onun yazıları qəzet və jurnallarda dərc olunmuş, dəfələrlə kitab halında çapdan çıxmışdı. Yazıçının "Balaca Qara Balıq", "Bir hulu, min hulu", "Ulduz və qarğalar", "24 saat yuxuda və ayıqlıqda", "Çuğundursatan oğlan", "Qar dənəsinin sərgüzəşti" və s. əsərləri yüksək qiymətləndirilir. Onun yaradıcılığında uşaq hekayələri və uşaqlara aid başqa yazıları geniş yer tutur. Kapitalist dünyasında əməkçi balalarının yoxsul və fərəhsiz dolanışığı, onların əzab-əziyyəti, mübarizəsi Səməd Behrəngi qələmi ilə geniş təsvir olunur.

KİTABIN İÇİNDƏKİLƏR

Ulduz və qarğalar ....................................................3
Balaca qara balıq ....................................................52
Bir hulu, min hulu ....................................................72
Çuğundursatan oğlan ....................................................93
Qar dənəsinin sərgüzəşti ....................................................101
24 saat yuxuda və ayıqlıqda ....................................................104
Tərcüməçidən ....................................................126

Redaktoru **Məmməd Namaz**
Rəssamı **Ə. Məmmədov**
Bədii redaktoru **S. Şatikov**
Texniki redaktoru **S.Həbibzadə**
Korrektorları **D. Məlikova, S. Ağayeva**

Yığılmağa verilmiş 18/V – 1978-ci il
Çapa imzalanmış 23/VI – 1978-ci il
Kağız formatı 84x108 1/32. Kağız № 1
Fiziki ç/v. 3,25. Şərti ç/v. 5,46. Uçot nəşr. v. 5,35
Sifariş № 5879. Tirajı 15.000 Qiyməti 25 qəp.
Azərbaycan SSR Nazirlər Sovetinin
Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi
«Gənclik» nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.